ÖN SÖZ

XX əsr Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan Məmməd Rahim ədəbi yaradıcılığa 20-ci illərin ortalarından başlamış, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza, Osman Sarıvəlli kimi qüdrətli sənətkarlar ilə bir sırada addımlamışdır. Həmin dövr xalqımızın tarixinə inqilabi ruhu və pafosu, həyatı, insanı yenidən qurmaq uğrunda aparılan mübarizə, ictimai-siyasi döyüş illəri kimi daxil olmuşdur. M.Rahim yaradıcılığa başladığı ilk vaxtlardan bu yenidənqurma və döyüş illərinin ruhu, qayəsi, ideyaları, qayğı və təsiri ilə əhatə olunmuş, özünü axtarmağa, yeni günlərə uyğun yeni şair olmağa səy göstərmişdir.

Hələ 1926-cı ildə yazdığı, "Gənc işçi" qəzetində və "Gənc Qızıl qələmlər" məcmuəsində dərc olunan "Gördüm" şeri o vaxt ədəbi ictimaiyyətin nəzər-diqqətini cəlb edir.

1930-cu ildə M.Rahimin ilk şeirlər kitabı – "Arzular" çapdan çıxır. "İkinci kitab" (1933), "Partizanın tüfəngi" (1937), "Nübar" (1938), "Vətən sevgisi" (1942) onun istedadlı bir şair kimi tanıdır.

M.Rahim yaradıcılığının qaynaqlarını təşkil edən qabaqcıl ənənələr şairin poeziyasına millilik, xalq ruhu, Vətən məhəbbəti gətirmiş, bu milli, təbii zəmin üzərində yetişən Rahim poeziyasının ictimai-siyasi və fəlsəfi məzmununu əsaslandıra bilmişdir. Rahimdə xalq ədəbiyyatının bütün şəkilləri, ən fəal və oynaq ünsürləri vardır. Rahim poeziyasının janr əlvanlığı, obrazlılığı da məhz bununla əlaqədardır.

20-ci illərin axırlarında M.Rahimin epik poeziyaya diqqəti güclənir. O, böyük bir həvəslə həyatdan aldığı zəngin müşahidələrini öz hiss və həyəcanları ilə vəhdətdə, iri formalarda təqdim etməyə başlayırdı. Epik şerə dönüşü zəruriləşdirən mühüm amillərdən biri də şairin sənətkarlıq cəhətdən xeyli inkişaf etməsi, lirik poeziyada əhəmiyyətli, bədii təcrübəyə yiyələnməsi idi.

Heç şübhəsiz, dövrün epik şerinin siqlət və miqyasını təyin edən əsərlər sırasında "Döyüş günləri" (1932), "Şairin xəyalı" (1937), "Arzu qız" (1938), "Qırx qız" (1938), "Ölməz qəhrəman" (1948) müəyyən həyati mündəricəyə və bədii məziyyətlərə malik poemalar olub, 30-cu illər epik şerinin inkişaf mənzərəsini tamamlayırdı.

1932-ci ildə şairin qələmə aldığı ilk poema "Döyüş günləri"dir. Poemada Bakı fəhlələrinin ilk inqilabi çıxışları, kapitalistlərə qarşı mütəşəkkil mübarizəsi təsvir edilmişdir. 1905-ci ildə Binəqədidə sahibkar Saday bəy

fəhlələri istismar etməklə bərabər, onları alçaldır, adam yerinə qoymur, qoçuların əliylə gözüaçıq fəhlələri öldürtdürür. Rusiyada baş qaldıran inqilabi hərəkatın təsiri ilə Binəqədi fəhlələri kommunist Gülhəmzənin və başqa inqilabçı fəhlələrin ətrafında cəmləşdirərək mübarizəni qüvvətləndirirlər, onların sıraları möhkəmlənir, mübarizələri daha mütəşəkkil bir şəkil alır.

M.Rahim yaradıcılığında lirik qəhrəman dedikdə konkret obraz, xarakter nəzərə çarpmır, əksinə, gözlərimizin qarşısında bir növ müəllifin özü durur. Lakin şair öz həyat yolunu, işini, mübarizəsini, arzu və qayəsini dövrlə, zamanla o dərəcədə möhkəm, əlaqəli bir şəkildə bağlayır ki, biz onun simasında müasir insana xas olan başlıca əlamətləri də görürük. "Qızım", "Gəncə", "Səhərin nəğməsi", "Şairin ölümü", "Nənəmin ulduzları" kimi şeirlərində şairin xəyalı, arzuları və düşüncələri oxucunu dərindən həyəcanlandırır. Bu əsərlərdə Rahim öz hisslərini ifadə etmək üçün daha təsirli yollar tapır. Şair həyat eşqindən, ayrılıqdan, ölümdən və həsrətdən yazır, insanın müxtəlif həyəcanını, mənəvi aləmini əks etdirməyə çalışır. Lakin nədən yazırsa-yazsın, şairin həyata fərəhlə baxan gözləri, onu bütün varlığı ilə dərk etmək istəyən ürəyi qarşımızda canlanır.

* * *

M.Rahim hələ müharibədən bir neçə həftə qabaq yazmışdır:

Yaxşı bilir yağı düşmən bir orduyam, alayam,
Güllə batmaz, top dağıtmaz bir möhtəşəm qalayam.

Çox keçmədi Vətən sevgisi şairi cəbhələrə, ordu hissələrinə apardı, o öz alovlu çıxışları, həyəcanlı misraları ilə əsgərlərimizi faşizm üzərində cahanşümul, tarixi qələbə uğrunda əzm və hünərlə vuruşmağa çağırdı.

M.Rahimin müharibə illərində çap etdirdiyi "Vətən sevgisi" (1942), "Müqəddəs kədər" (1942), "Səhərin nəğməsi" (1943), "Onu Don qucaqladı" (1948) adlı şeir və poemalar kitabları maraqla qarşılandı. Bu kitabdakı şeirlərin əksəriyyətini həyat özü diqtə edirdi.

M.Rahimin müharibə dövrü şeirləri tək bir cəbhədə mətanətlə vuruşan əsgərlərimizin qəhrəmanlığını yox, eyni zamanda xalqımızın öz qızıl döyüşçülərinə bəslədiyi qayğı, şəfqət və mehribanlığı, cəbhə ilə arxanın vəhdətini də canlı həyati səhnələrlə əks etdirirdi. Bu şeirlərdə "gözləri yol çəkən", "hər qara xəbərdən sarsılmayan" analarımızın, qardaşlarımızı cəbhəyə yola salarkən onlara xeyir-dua verib "yaxşı yol" arzulayan bacılarımızın, gündüzləri tarlalarda, dəzgah dalında yorulmadan işləyən, gecələri, isə beşik başında oturub ərinə əlcək, köynək toxuyan gəlinlərimizin unudulmaz surətini yaratmaq meyli güclüdür.

Müharibə illərində M.Rahimin yazdığı onlarca əsəri – "Tək məzar", "Neftin dastanı", "Əlini sıx ağ günlərin adından", "Azərbaycan oğullarına", "Vətən sözü", "Haqqın məhkəməsi", "Müqəddəs kədər", "Qüdrət nəğməsi", "Sədaqət", "Qafqaz ordusu" və s. "Cənub şeirləri" silsiləsi, habelə sonralar qələmə alınsa da mövzusu Böyük Vətən müharibəsindən götürülmüş, xalqlar qardaşlığının parlaq himni kimi səslənən "Leninqrad göylərində" (1948), "Ölməz qəhrəman" (1948) əsərlərini nəzərdən keçirsək aydın görərik ki, müharibə mövzusu şairin yaradıcılığına necə dərin və üzvi bir surətdə daxil olmuşdur.

* * *

XX əsrin 40-cı illərində M.Rahim yaradıcılığında Cənub mövzusu da geniş və əhatəli yer tutur.

M.Rahimin Cənub mövzusundakı şeirlərini poetik struktura baxımından maraqlı bir xüsusiyyət fərqləndirir. Onları asanlıqla süjetli lirika kimi təhlilə cəlb etmək mümkündür. Belə bir cəhət şairi daha mühüm ictimai-əxlaqi problemlərə məhz vahid bir nöqtədən – vətənpərvərlik prizmasından nəzər salmağa imkan vermişdir. "Balıqçı", "Xarrat", "Barışmayırsan" şeirləri məhz bu əlamətinə görə lirik-miniatür hekayət təsiri bağışlayır.

Bütün əsərlərini xalqın istəyincə görmək istəyən M.Rahimin Cənub şeirlərində əsas qayə Vətən həsrəti problemidir. Bu mənada "Qara daşın həsrəti" və "Arazın şikayəti" əsərləri diqqəti daha çox cəlb edir. Ümumiyyətlə, Azərbaycan poeziyasında Araz ən müqəddəs günahkar kimi poetikləşdirilir. Heç bir günah iş görməyən bu çayı poeziyamız bir Vətənin iki parçası arasında ayrılıq sərhədinə çevirdiyi üçün günahlandırır. Çayın şairə şikayəti də məhz bununla bağlıdır:

Dedi: "Şairlərdən şikayətim var,
Mənim çox qəribə hekayətim var".
Dedim ki, "Nə olub?" Qövr etdi dərdi,
Dedi: "El bir zaman mənə deyərdi,
Sinəsi yadlara qalxan Arazım...
Elədirsə, nədən bəs qana-qana
Şairlər salırlar məni böhtana.
Qalır bir tərəfdə zülmkar yağı,
Deyirlər sən böldün ana torpağı."

Göründüyü kimi, şair vətənpərvərliyi, vətən vəhdəti ideyasını qabartmaq üçün canlı və təsirli forma tapmış, Arazın özünü vətəndaş və mübariz bədii obraz səviyyəsinə qaldırmışdır.

Şairin Cənub mövzusundakı ictimai-lirik əsərlərində ilk nəzərəçarpan cəhətlərdən biri Azərbaycan xalqının milli birliyinin tərənnümüdür. İkinci cəhət isə Cənubi Azərbaycan zəhmətkeşlərinin ağır həyatıdır. Azad bir ölkənin şairi olan Rahim Arazın o tayında yaşayan qardaşlarını mülkədar və sahibkarların boyunduruğu altında gördükdə susa bilmir. İctimai ədalətsizlik onu qəzəbləndirir."Xalçaçı qız" şeirində zəhmətkeşlərin qızıl əlləri ilə yaradılan nemətləri yadlara qismət olmasından gileylənir. Xalçaçı qızın xoş arzuları öz bağban nişanlısının adına toxuduğu "yar otağına salınacaq" – deyə min bir rəng vurduğu cehiz xalının bir gün zorla onun əlindən alır, Londona, bir ingilis xanımına hədiyyə göndərirlər. Bu haqsızlığa şair öz münasibətini ürək ağrısı ilə mənalandırır:

Zorla, gözəl xalını
Əllərindən aldılar,
Sevdanı, məhəbbəti
Ayaqlara saldılar.

* * *

Məmməd Rahimin uşaq ədəbiyyatımızda öz ləyaqətli yeri vardır.

Böyüməkdə olan nəslin sağlam ruhda, dövrümüzə layiq, hərtərəfli inkişaf etmiş vətəndaşlar kimi yetişdirilməsi digər qələmdaşları kimi Rahimi də bütün yaradıcılığı boyu düşündürmüşdür. O, bir sıra məqalə, nitq və çıxışlarında uşaq ədəbiyyatının mühüm nəzəri problemlərinə toxunur, söz sənətkarlarını, birinci növbədə balacalar üçün yazan yazıçıları bu sahədə səmərəli işləməyə, əsərlərin ideya-bədii səviyyəsini yüksəltməyə çağırırdı.

Şairin uşaqlar üçün yazdığı şeirlər "Balaca bağbanlar" (1955) kitabında toplanmışdır. Şairin əsl dostları zəhməti, əməyi yüksək qiymətləndirən, torpağın qədrini bilən körpə balalardır. Şair təbiətin oyanması ilə əlaqədar olaraq balaca bağbanların böyük maraqla işə başlamalarını, onların əhvali-ruhiyyələrində əmələ gələn dəyişikliyi çox sadə, anlaşıqlı dildə nəql edir:

Ağaclar dirçələndə
Quşlar qonaq gələndə,
Bəzənəndə dağ-dərə
Baxıb gözəl düzlərə;
Bizim sadə uşaqlar
Dırmaşıb dağ döşünə,
Sevinərək qalxdılar
Baharın görüşünə...

"Tonqal başında", "İldırımın kitabı", "İki qardaş", "Lalə", "Nərgiz", "Bahar gəlsin", "Reyhan", "Quzu" kimi poema və şeirlərində məna və məqsəd aydınlığı vardır. Balaca Bəhramın ağac əkməsi, Qulunun, Poladın, Firəngizin, Zərəngizin zəhmətsevərliyi, qoca bağbanın ağıllı məsləhətləri maraqlı ştrixlərlə verilmişdir. "İldırımın kitabı" əsərində sitrus meyvələri və təbiət haqqında maraqlı məlumatlar verilir. Əsər uşaqların təbiət və torpaq haqqında təsəvvürlərinin daha da genişlənməsinə kömək edir, onlara humanizm, alicənablıq hissləri aşılayır.

* * *

Məmməd Rahim satira və yumor sahəsində qələmini məharətlə sınayan şairlərdən olmuşdur. Tüfeylilərə, gündəlik həyatda müşahidə olunan bütün qüsurlara fəal tənqidi münasibət xalq şairinin poeziyasına kəsərlilik verən məziyyətdir. Məmməd Rahim satiralarında diqqəti cəlb edən cəhətlərdən biri tənqid hədəfininin konkretliyidir.

M.Ə.Sabir ənənələrinə sadiq qalan müəllif kapitalizm aləminin mənfurluğunu, insanı pul düşgünü etməsini, məhəbbətin var-dövlətə satılmasını qamçılamaqla dollar dünyasına qarşı öz kinini və nifrətini ustalıqla bildirmişdir.

Məmməd Rahimin ümumi yaradıcılığı üçün xas olan mühüm bir cəhət – lakoniklik, fikri yığcam şəkildə ifadə etmək bacarığı onun satiralarında özünü daha bariz şəkildə büruzə verir. "Maral və qurbağa" (1958) şerində həyatda yerini bilməyən lovğa qurbağa libaslı adamların özünü ahu kimi qələmə verməsi lağa qoyulur.

Gözəllikdən bixəbər,
Lovğa-lovğa hər səhər
Özünü maral sayan
Qurbağalardan həzər.

Diri ikən ölü, cəmiyyətə xeyir verməyən, zamanla ayaqlaşa bilməyən, yenilik hissindən məhrum olan müasirlərinin sarkazmla, kinayəylə dağlayan müəllifin satirik şeirlərindən belə bir qənaət hasil olur ki, o, həyatın təsadüfi, keçici qüsurlarını deyil, bütün dövrlər üçün xas olan ümdə məsələləri qələmə alıb ümumiləşdirmişdir.

* * *

Azərbaycan xalqının mübarizlərlə dolu uzaq və yaxın keçmişinin müəyyən mərhələləri, eləcə də böyük simalarının bəzilərinin mənalı həyatı xalq şairi M.Rahimin yaradıcılığında öz bədii əksini tapmışdı. XIX

əsrin görkəmli lirik şairi Natəvan haqqında əsər bu baxımdan diqqətəlayiqdir. Qarabağ, onun gözəl təbiəti və görkəmli adamları haqqında bədii əsər yazmaq şairi hələ gənc yaşlarından düşündürmüşdür. O, "İsa bulağı" (1935), "Kəpənək" (1939) və başqa lirik şeirlərində təbiətin füsunkar gözəlliklərinə, nəsillərə örnək olan şəxsiyyətlərə bəslədiyi sonsuz məhəbbətini ifadə etmişdir. Vaxtilə "Vətən uğrunda[1]" məcmuəsində "Natəvan" sərlövhəli məqalə çap etdirməsi, müntəzəm olaraq tarixi *sənədlərə, Azərbaycan ədəbiyyatı tarixindəki faktik materiallara*, respublika əlyazmaları fondundakı nadir nüsxələrə, nəhayət, bir sıra maraqlı rəvayətlərə müraciət etməsi xəbər verirdi ki, M.Rahim şairə Natəvanın həyatından, taleyindən, zəmanəsindən bəhs edən irihəcmli poetik əsər yazmağa hazırlaşır. Belə də olmuşdur.

Əsər tarixi mövzuya həsr olunsa da müəllif qələmə aldığı hadisələrə öz dövrünün tələbi ilə, əhvali-ruhiyyəsi ilə yanaşmışdır. M.Rahim zərif ruhlu şairənin lirik şeirlərindəki giley-güzarın, şikayətlərin əsl səbəbini onun yaşadığı mühitin zülmətində axtarmış və ona ictimai məna vermişdir.

M.Rahim Natəvanın ictimai və şəxsi faciəsini vəhdətdə, sosial tərzdə götürdüyü üçün şairə ilə zaman arasındakı təzadı ümumiləşdirə bilmişdir. Poemada şairənin yaradıcılığının və şəxsi həyatının səciyyəvi cəhətləri də ön plana çəkilmişdir. Poemada müəllif şair-rəssam kimi çıxış edir. Vurduğu rənglər aydın və əlvandır. Poemanı oxuyarkən adamın gözləri qabağında Qarabağın ucsuz-bucaqsız əfsanəvi füsunkar mənzərələri canlanır. Dağların gözəlliklərinin tərənnümü, təbiətin ülviliyi təbii və cazibədardır. İnsanın qəzəblənməsi, həyəcanlanması, sevinci, kədəri, xəyala dalması, coşması təbii sayıldığı kimi, dağların da özünəməxsus məziyyətləri vardır.

M.Rahim bütün bu təzadlar, gözəlliklər, düşüncələr, həyəcanlar fonunda, təbiətlə həmahəng olan canlı, dolğun, zərif şairə Natəvan surəti yaratmışdır. O, doğma Qarabağın nəğməkar qızıdır.

* * *

M.Rahimin tarixi səpkidə yazdığı əsərlər sırasında "Xaqani" mənzum dramı müəyyən mərhələ təşkil edir. Uzun illər boyu aparılan yaradıcılıq axtarışlarının, gərgin əməyin bəhrəsi olan bu əsər XII əsrin məşhur şairi Xaqaninin həyat və yaradıcılığından, onun keşməkeşlərlə, ziddiyyətlərlə dolu zəmanəsindən bəhs edir.

Xaqani haqda Rahimin pyes yazması təsadüfi deyildir. O, böyük ustadın şeirlərini tərcümə etmiş, hələ 1937-ci ildə yazdığı "Yoldaş sənətkar" şerində Azərbaycanın görkəmli sənətkarları ilə yanaşı, Xaqanini də böyük iftixarla yad edirdi:

[1] M.Rahim. Natəvan. "Vətən uğrunda", 1947, № 7-8, səh.93.

Doğma Vətən, sən böyük sənətkarlar elisən,
Sən bir incə rübabın qırılmayan telisən.
...Şirvana getsəm əgər qaldırar bayraq kimi
Səkkiz əsrin içindən ölməyən Xaqanini.
Gəncə göyə ucaldır Nizaminin dağ kimi
Şerə ustad, möhtəşəm şairlər xaqanını...

Adından məlum olduğu kimi, əsərin baş qəhrəmanı Xaqanidir. M.Rahimin də başlıca məqsədi mürəkkəb, çətin bir yaradıcılıq yolu keçmiş böyük Azərbaycan şairi Xaqanini görkəmli sənətkar və ictimai xadim kimi ümumiləşdirmək olmuşdur. Şairin çox ziddiyyətli, lakin mənalı ömür yolu *Şirvan hökmdarı Axistanın sarayı, sarayda gedən intriqalar, mübarizələr,* qanlı toqquşmalar fonunda canlandırılmışdır. Əsərdə Xaqani surəti müdrik dövlət adamı, vətənpərvər şair, böyük humanist şəxsiyyət, "yoxsullar şairi xəlqani" kimi diqqətimizi cəlb etməkdədir.

M.Rahimin Xaqanisi doğrudan da xalqını, Vətənini dərin bir məhəbbətlə sevir, özünün dediyi kimi "onu vətən iqbalı düşündürür". Məsələn, ərəb xəlifəsi Xaqaniyə katib olmağı təklif edəndə Xəlifəyə üsyankar şair belə cavab verir:

Yazdım katib nədir, mən hətta sizə,
Vəzir də olmaram, illərdən bəri
Şirvan doyuzdurub ac ərəbləri...

"Xaqani" pyesində Xaqani kamil söz ustadı kimi ümumiləşdirilmişdir. Xaqaninin ulu söz sərrafı Nizamiyə münasibəti və saray şairləri ilə söhbətindən bədii hikmətə, sənətkara verdiyi qiymət və b. epizodlar bunu təsdiq edir. Tarixən məlumdur ki, Xaqani poeziyasını Nizami sevmiş, hətta onun ölümünə mərsiyə də yazmışdır. Əsərdə Xaqaninin Nizami ilə məktublaşması bu mənada çox yerinə düşmüşdür. Xaqani də öz növbəsində Nizami sənətinə yüksək qiymət verərək deyir:

Nizami, lütf ilə sorursan nəyəm?
Sənin dərgahında aciz bəndəyəm...

Vətənpərvər şair M.Rahim dahi sələfləri olan Xaqani və Nizaminin bir-birinə münasibəti fonunda öz həməsrlərini, qələmdaşlarını vahid amala xidmət etməyə, birliyə, vəhdətə çağırırdı; xalqı, Vətəni ucaltmağa səsləyirdi.

İfrat Əliyeva

Şeirlər

BAKI

İkinci nəğmə

Sinəndən taqhataq keçəndə qazalaq,
Yel əsib qalxanda göylərə tozanaq,
Dad çəkib babalar xəzrinin əlindən,
Bu sözlər qoparmış yanıqlı dilindən:
Kəsilmək bilməyən küləklər şəhəri.

Azadlıq yolunda vuruşdun mərdana,
Sənə bel bağladı mərd ata, mərd ana.
Qorxmayıb yolunda bir qaşıq qanından,
Atalar keçəndə sənincün canından –
Dedilər adına diləklər şəhəri.

Boranlar, tufanlar keçsə də başından,
Əyilmək bilmədin sən əsla yaşından.
Dayandın hər zaman qayadan çox mətin,
Qəhrəman şəhərtək çoxaldı şöhrətin,
Dedilər: ey Bakı, dözümlü şəhərsən!

İndisə nəvələr firavan-firavan
Nəğmələr oxuyur fərəhlə ucadan.
Söyləyir: can Bakı, ey əziz, mehriban,
Şəhərlər içində üzümlü şəhərsən.

Çox diyar gəzmişəm, çox şəhər görmüşəm,
Mən ancaq, könlümü tək sənə vermişəm.
Adına şeirdən çələng də hörmüşəm,
Ey təmiz arzular, əməllər şəhəri!

Tapılmaz heç tayın dünyada bəlkə də,
Yarışda şəhərlər qoyarsan kölgədə.
Səndəki sənəmlər yoxdu bir ölkədə
Ad verim qoy sənə: gözəllər şəhəri,
Möhtəşəm arzular, əməllər şəhəri.

GÖRMÜŞƏM

Qoca

Al qanların şahidiyəm,
Xan görmüşəm, çar görmüşəm.
Vətənimdə at oynadan
Kor yapalaq, sar görmüşəm.
Bir zamanlar dağ dələrdi
Könül ahu-zarım mənim.
Çalıb-çapdı cahangirlər,
Hey talandı varım mənim.
Çiçək əkdim, vay götürdüm;
Qəmdən oldu barım mənim.
İndi aldım öz haqqımı,
Bilir qızım, qarım mənim.
Səs verirəm səadətə,
Coşur simli tarım mənim.
Həyatımın bərabəri
Kim deyir ki, var, görmüşəm.

Döyüşçü

Əgər düşmən cəhd eləsə
Torpağıma vara bilməz.
İrq seçməyir qızıl əsgər,
Ağ tanımaz, qara bilməz.
Gücümüz var, kəc yağılar,
Cəbhəmizi yara bilməz.
Min il qalsa qarı düşman
Biləyimi qıra bilməz.
Könül aşiq azadlığa,
Qəm tanımaz, yara bilməz.
Çiçəklənir ömür bağım,
Əməlimdən bar görmüşəm.

Gənc

Şəfəq saçan bir gövhərdir,
Bu torpağım, daşım mənim.
Çox deyildir vətənimdən,
Bir il artıq yaşım mənim.
Səadətdir bayraqdarım,
Uçur azad quşum mənim.
Üfüqləri dələr keçər
Əzəmətli başım mənim.
Dağlar mənə deməsin ki,
Mən əriməz qar görmüşəm.

Şair

Xəbər verin qoca qarı
Al geyinsin, taza gəlsin
İlin o dörd mövsümündən
Deyin gözəl yaza gəlsin.
Deyin hilal qaşlı gözəl
İsmətə, Gülnaza gəlsin,
Yerə ensin nurlu günəş,
Məclisimə fəza gəlsin.
Şair Rahim bu görüşə
Şer yaza-yaza gəlsin.
Bəxtiyarıq, kim deyər ki,
Gen dünyanı dar görmüşəm.

1935

QANADLI İNSAN

Gün olur şairin xəyalı kimi
Bu mavi göylərə qanadlanırsan.
Səni qorxutmayır göylərin dibi,
Asimandan yerə hey atlanırsan.

Mənə xəbər verir səhər ulduzu,
Bəzən ona yaxın göründüyünü;
Səndən aşağıda, a göylər qızı,
Bəyaz buludların süründüyünü.

Bəzən çubuq çəkən aqil babalar,
Quyruqlu ulduza oxşadır səni.
Arxanca səslənir ellər, obalar;
Deyir: "Oğul kimi gözlə vətəni".

Sən uçursan geniş, atlas göylərə,
Mən də zənn eləmə durub baxıram.
Doğrusu, arxanca azı yüz kərə,
Mən də yüksəlirəm, mən də qalxıram.

Sənin buludları dələndə başın,
Düşünüb dalıram xəyalata mən.
Nə günlər yaşamış qadın yoldaşın
Bir çoban ərəbin şəriətindən?

Nəzər salan zaman uzaq illərə,
Qadın sinəsində min dağ görürəm.
Qurban atılmışdır bəzən nillərə,
Daşqalaq olunub zavallı bir dəm.
Ona göz yaşları qismət olubdur,
Ənisi, munisi həsrət olubdur.

Tutub yusiflərin atdığı böhtan
Misrin əzizini – Züleyxasını.
Sən də Züleyxasan, bu deyil yalan,
Cırmısan göylərin göy yaxasını.

Ucal, asimana hökmdar kəsil,
Qoy bunu dünyaya mən xəbər verim.
Nələr etməyəcək gələcək nəsil, –
Sənin qaraşının, mənim əsmərim
Bəlkə də göylərdə şəhər salacaq,
Ağlımız bu işə heyran olacaq!

Ey günəş yolçusu, günəş soraqlı!
Bəlkə qəribədir sözlərim bir az?!
Nələr etməyəcək insanın ağlı,
İnsanlıq əbədi güldüyü bir yaz?!

Bilirəm gələcək elə bir zaman,
Bizə gizli olan kainatlardan
Qəlbində ölməyən taza bir umu,
Sənin gözəl qızın mənim oğlumu
Gözləyib duracaq, baxacaq göyə;
"Nişanlım nə zaman gələcək?" deyə.

12 noyabr 1935

QIZIM

Sən mənim xəyalımın bəzəkli otağında,
Şirin-şirin yatarkən öz yumşaq yatağında,
Dodaqları gah gülən, gah büzüşən qızımsan.

Sən bahar həyatımın təzəcə çiçəkləyən,
Gözlərimdə boylanan, yıxılan, imələyən,
Şirin dilli bir ilkim, gül üzlü şən qızımsan.

Mən evimdə yandırıb göz qırpmayan ağ şamı,
Masamın arxasında keçirəndə axşamı,
Bəlkə düşünməyirdim heç həyat yoldaşını.

Bu yolda mən qıyarkən ömrümün az payına,
Sən ətəyimdən tutub, bu günün subayına:
"Bəs mənim anam hanı?" dedin çatıb qaşını.

Bir şairin ki, dolsun gözəllərlə dörd yanı,
O soruşmaz: "Ay ellər, mənim sevgilim hanı?"
Deyib bəzən özümü çox bəxtəvər sanırdım,
Bəzən də bu halımdan bezikir, usanırdım.

Usanırdım o dilsiz, nəşəsiz otağımda,
Gecələri mənimlə keçirib yatağımda
Baş-başa çatıb yatan qərib yalqızlığımdan;
Qapını ehtiyatla, gizli açıb çıxandan.

Bir səhər yeni həyat, yaxşı yoldaş həvəsi,
Anamın gözlədiyi o xəyali nəvəsi
Məni çəkdi, çıxardı subaylıq cığırından;
Evimdə hiss edildi saf gülüş, təzə insan.

İndi, bax, radionun: "Qalxın!" deyən səsilə,
Sabahın otaqları dolaşan nəfəsilə
İş başına getməyə oyanan iki candır!
Biri mənəm, ay qızım, biri sənin anandır!

1935

GÜRCÜ QIZI

Deyirlər ay səpəndə sulara son işığı,
Tamara boğdurarmış hər gecə bir aşiqi.

Deyirlər ki, Daryalın
Köpüklü boğazından
Keçən Terek, azından
Min gecə nəş aparmış,
O zamanlar qanlı Kür
Ağlayıb hönkür-hönkür
Xeyli nalə qoparmış...

Öz yurdundan qovulmuş bir şair də, deyirlər
Bu afətin halından yazmış çoxlu şeirlər.
Deyirlər ki, sənin də adın Tamaradır, qız!
Dolaşır sahilləri şöhrətin ağız-ağız.
Olsun, çox Tamara var Gürcüstanı arasan,
Nə mən qərib şairəm, nə sən o Tamarasan.
Sən, günəşlə ayılan, qəmərlə yatanların,
Balıqçı gürcülərin, Kürə tor atanların

İçində bir dənəsən, –
Sədəfsən, dürdənəsən.

Sən boynundan asmadın Məryəm oğlunu dardan,
Mən də ki, heç olmadım əliquranlılardan.
Nə mən Şeyx Sənanam, nə sən nazlı Xumarsan,
Nə mən səndən gözlərəm, nə sən məndən umarsan.

O keçən ərkanları,
Tarix o zamanları
Bir də qaytarmayacaq,
Torpaqdan ayrılanlar
Bir daha varmayacaq
Bu sevdiyim cahana.
Gəl, gəl çıxaq cövlana,
Qoy qızışsın ortalıq,
Çayda yan gedən balıq
Səsimizi dinləsin.
Conqurun bəstəsindən,
Elin şikəstəsindən
Ruhumuz sərinləsin.
Kədər sənə günüdür,
Sabah bayram günüdür.
Gəl oturma belə tək,
Kürdə bir əmlik kəsək.
Yansın kabab köz üstə,
Hər nə desən göz üstə!
Oxu, ucalsın səsin,
Eşqin, hissin, həvəsin
Çaylar kimi çağlasın,
Bizi Kür qucaqlasın.
Alqış yeni dövrana,
Gəl, gəl çıxaq cövlana
Bir sən,
bir mən,
bir də Kür;
Bu ki, dünyaya dəyər!

Düşün, sular pərisi, mən deyil, bu gün əgər
Sağ olsaydı Şotanız, yaşasaydı Füzuli

İzləyərək bu yolu
Belə etməzlərdimi?
Buynuzdan piyalə, ney,
Bir də gürcü gözəli,
Əli meyli-məzəli
Qocurun yamacına
Seyrə getməzlərdimi?

Biz ki, qəmi vermişik çoxdan elə sadağa,
Sevmək, sevilmək deyil əsrimizdə qadağa.

Sən günəşə, ağları,
Bu sevdalı çağları
Boşa verməyək heç, gəl!
Sən, ey gözəldən-gözəl
Gürcüstanın qoqosu[1]!
Burax, bu çağlayan su
Ruhumuza çilənsin,
Üstümüzə dünyanın
Nəşələri ələnsin.

Nə olar bu arzuma eyləyəsən meyl sən;
Sən ki, şair Fikrətin balıqçısı deyilsən!

Ac ki deyil körpələr!
Qoy bu mavi ləpələr
Salımızı aparsın,
Nəğməmiz xəncər kimi
Çağlayan Kürü yarsın.
Bir sən,
bir mən,
bir də Kür;
Bu ki, dünyaya dəyər!

[1] Qoqo – qız deməkdir (*gürc.*)

Düşün, sular gözəli, mən deyil, bu gün əgər
Sağ olsaydı Şotanız, yaşasaydı Füzuli

İzləyərək bu yolu
Belə etməzlərdimi?
Buynuzdan piyalə ney,
Bir də gürcü gözəli,
Əli meyli-məzəli
Qocurun yamacına
Seyrə getməzlərdimi?

1935

İSA BULAĞI

Dolaşıram təbiəti
Öz-özümə heyran kimi,
Yerə bağlı, göyə vurğun
Bir alıcı tərlan kimi.
Ellər çıxıb göy çəmənə
Yamaclarda seyrandadır;
Qalxır könül buludlara,
Yüksəklərə, cövlandadır.
Hara getsəm könlüm, gözüm
İnsandadır, insandadır!
Nədir belə dalğalanır
Qabağımda ümman kimi?

Ağacların kölgəsində
O çalınan tara baxın!
Yaşılbaş sonalar kimi
Süzün nazlı yara baxın!
Hər parçası bir mənzərə
Əlvan yamaclara baxın!
"Yar-yar" deyən xanəndənin
Bu çəkdiyi cara baxın!
Hər dəstə bir əl toğlusu

Kəsib asdı dara, baxın!
Hansı dövran, hansı əyyam
Olmuş bizim dövran kimi?
Deyirəm ki, sağ olaydı
Maralyanlı aşıq Pəri,
Vaqif, incə Qarabağın
Kəlağaylı gözəlləri;
Unutdurub xan çobana
Sürdüyü qara günləri,
Bir də qalxıb Xaçbulağa
Alıb aşıq Ələsgəri
Gətirəydim bu yerlərə:
İsa bulağından geri
Məclis quraydım Turşsuda
Şairə Natəvan kimi.

Uca dağlar büsatdadır,
Söz bir yanda, saz bir yanda;
Elə bil ki, baxır yola,
O xan qızı Natəvan da.
Deyir: "Səbrim tükəndi, yar,
Yox taqətim quru canda,
Görməmişəm əhdə vəfa
Yer üzündə bir insanda;
Neçin oldu sevinc haram
Həyat adlı bu zindanda?
Nə tutqundur iqbalımız
Qara üzlü duman kimi?!"

Qoy daşları yarıb çıxan
Bu mirvari sellər desin,
Ağacların kölgəsinə
Seyrə gələn ellər desin,
Gözəllərin bu açdığı
Şirin-şirin dillər desin,
Bülbüllərin məşuqəsi
Xumar gözlü güllər desin,
Dilə gəlsin aşıqların

Sazındakı tellər desin,
Bu ellərin dünyasından,
Bu dəsgahdan insan kimi.

Ellər gələr hər tərəfdən
Bizim İsa bulağına;
Qarmon susar, ney dil açar
Gözüm İsa bulağına;
Gəldim şair Vaqif kimi
Özüm İsa bulağına,
Qoy şerimi inci kimi
Düzüm İsa bulağına;
Dinləsin el, vardır mənim
Sözüm İsa bulağına;
Nə zamandan axar belə
Bir sonu yox karvan kimi.

Bilirəm ki, xanlar bizim
Yurdun nəyi var, taladı.
Qoşun çəkdi dönə-dönə
Qan tökdü Qacar, taladı,
Var bilmədi, yox bilmədi,
Ver söylədi çar – taladı;
Sevgilimin növrağını
Çaldı, yasarlar taladı;
Dolu döydü təpəsindən.
Vurdu çovğun, qar taladı;
Ellər ömür sürüb durdu
Öz yurdunda mehman kimi.

Mən əzəldən bildirmişəm
El qeydinə qaldığımı.
Unutmadım günlər boyu
Şənliklərə daldığımı.
Şerə düzdüm xalqımızın
Bayramından aldığımı.
Azad insan yaxşı bilir
Aləmə şur saldığımı.

Ürəyimin tellərindən
Bir saz qurub çaldığımı
Qoy dinləsin yurdum mənim
Bir ölməyən dastan kimi.

1935

KOLXOZÇU AŞIQ

Bir yoxsul kəndlinin daxmasında sən,
Deyirlər dünyaya açdın gözünü;
Ellərin başının üstündən əsən
Acılar, qayğılar öpdü üzünü.
Ömrünün yarısı dağlarda keçdi,
Yoldaşın vəfalı bir sədəfli saz.
Hər keçən bağından bir lalə seçdi,
Qışdan ayrılmadı gözlərində yaz.
Elin xeyirində, elin şərində,
Hamıdan sən qabaq güldün, ağladın.
Sədəfli sazının şux tellərində
Gələcək günlərə ümid bağladın.
Əlindən aldılar sevdiyin yarı,
Sənə toy gecəsi saz çaldırdılar.
Çoxaldı qəlbinin dərdi, qubarı
Getmə, getmə, – dedin – könlüm gözüm yar.
Axundlar, mollalar, hazıryeyənlər,
Sazının səsinə haram deyənlər
Saldılar ömrünü bir zaman dara;
Sən çıxıb gizlicə bəzən dağlara
Ötən durnalara ağılar dedin.
Sonalar aynası gölə bənzədin...
Gözündə eylədi dünyanı zindan
Ellərin düşməni Tovuz bəyləri,
Sənə öz yurdundan, öz bəyazından[1]

[1] Məhsul verməyən torpaq

Ancaq ayırdılar bir qəbir yeri.
Ömrünün nə qərib macərası var;
Ay aşıq, bir səhər atlı kazaklar
Yeriyib gülləyə basanda kəndi,
Göyün ildırımı üstünə endi,
Dedin: "Qisas alım mən də qanlıdan"
Çıxdın atışmağa Bozalqanlıdan;
Bir çiynində tüfəng, bir çiynində saz,
Adın qaçaq oldu, üç payız, üç yaz...
Bir səhər qolları bağlı görüldün,
Uzaq ölkələrə o gün sürüldün.
Yadında varmıdır, qürbətdə bəzən
Sevgilin gözündə canlananda, sən
Basardın döşünə sədəfli sazı,
Bir gül yetirmədən ömrünün yazı.
Desəm keçmişini kitab bağlanar,
Qoy tarix eləsin tutduğundan ar!
Sən bu gün də elin içində varsan;
Səsinlə, sazınla işə yararsan.
Bayram zamanları, bəzən tarlada
Keçən zamanları salmayıb yada
Basırsan döşünə qotazlı sazı,
Bir gül itirməyir ömrünün yazı.
Sən indi bizlərə gözəl həyatdan,
Bəxtiyar dünyadan, xoş kainatdan
Oxuyub deyirsən qoşayarpağı.
Nələr yetirməyir Qafqaz torpağı!?
Səsin ölkəmizə bəzək, yaraşıq,
Adına deyirlər: kolxozçu aşıq.

BAHAR NƏĞMƏSİ

Bahardır, gəl çıxaq düzə, sevgilim!
Dara saçlarını, bəzə, sevgilim!
Bizim ki, eşqimiz gəlməyəcəkdir,
Bu şirin dünyada gözə, sevgilim!

Bahardır gün doğub, quşlar oyanmış,
Dağlar dilə gəlir, daşlar oyanmış.

Bahardır, ləkəsiz, səmadan təmiz
Salınsın çəmənə güllü süfrəmiz.
Göylərə, yerlərə meydan oxuyaq
İşdə biz, gücdə biz, ləyaqətdə biz.

A dostum, bəri gəl, verək qol-qola,
Ağ gün dünyasında çıxmışıq yola.

Başqa aləmi var baharın, yayın,
Gəlişi xoş olur hər il Bir mayın.
Xınalı toğlunu kəsib asmışıq,
Dostlar, sumaq verin, şiş hazırlayın!

Bizim ki, nəşəmiz oynağan atdır,
Dostumuz gələcək, bir də həyatdır.

Bahardır, nə bilir zövqü hər naşı,
Çağır dil biləni, yarı, yoldaşı.
Nəğməyə söz verək, ötək ucadan,
Şirin bülbül kimi hər addımbaşı.

Torpaqda Bəstidən, göydə Leyladan;
Bizim şerimizin ruhudur insan.

Yaşıllıq baharın əlamətidir,
Yaz gəlir, bülbülün qiyamətidir.
Səhərin mehində duyduğun ətir,
Mənim dildarımın təravətidir.

Gülün bir yeri var, yarın bir yeri,
Sazın bir yeri var, tarın bir yeri.

Könlüm bu gün istər bir Xəyyam olsun,
Əlləri dolaşan qızıl cam olsun.
O küt münəqqidi siz salın başa,
Ömründə bir dəfə qoy adam olsun!

Çalışmaq haqqını verən bu Vətən
Deyib, hallanmağı almadı bizdən.

Bahardır, gəl çıxaq düzə, sevgilim!
Dara saçlarını, bəzə, sevgilim!
Bizim ki, eşqimiz gəlməyəcəkdir
Bu şirin dünyada gözə, sevgilim!

Ömrümüz keçirir sənət baharı,
Azadlıq, səadət, qüdrət baharı.

1937

DÜŞÜNCƏ

Deyirəm: göylərə daldıqca bəzən,
Nurlu bir ulduza çevrilərək mən
O geniş dünyada parıldasaydım!

Gah da söyləyirəm: ceyranlar içən,
Güllü bağçaların içindən keçən
Sərin çeşmə kimi şırıldasaydım!

Deyirəm: dönəydim al mərcanlara,
Dost olaydım şirin – gözəl canlara,
Məskənim sinələr – ağ gümüş kimi.

Çevriləydim gülə, qoparaydılar,
Bir qıza ərmağan aparaydılar,
Açılaydım təzə bir gülüş kimi.

Hər təzə eyvana baxıb keçəndə
Deyirəm: evlərə bir daş olaydım;
Qızların eşqinə sirdaş olaydım.

Ya ellər yaylağa varıb köçəndə,
Dönüb gül aşiqi ötən bir quşa,
Yolların üstündə qonaydım daşa.

Bəzən üfüqlərə baxıb dalınca,
Bir gözəl səhnədən ilham alınca
Deyirəm: *nə həsəd, nə şöhrət, ancaq*
Şairi yaşadan əsər olacaq!

Ürəkdə qalmasın sözüm, qoy deyim,
Mənim dünyamızda budur diləyim:
Tərənnüm eləyim yurdu varımla.

Gəl, çıxaq dağlara gəzişək, dalaq,
Dövranımız kimi bəxtiyar olaq
Sən öz nişanlınla, mən öz yarımla.

1937

ŞAİRİN ÖLÜMÜ

O qədər xoş keçir bu şirin həyat,
Yaşamaq dad verir gözəl dünyada.
Ki, zaman dediyin yel gedişli at,
Ölümü salmayır, bir dəfə yada...
Lakin saçlarımın tək-tük ağına
Baxanda, nədənsə göz qabağına
Gəlir zaman olur altmış beş yaşım.
Saçları qar kimi həyat yoldaşım,
Kiçik nəvəsinə nağıl deyəndə,
Gəlinim bir təzə paltar geyəndə,
Hazırlıq görəndə qonaq getməyə,

Mən: "Əhvalım bir az pozulur" deyə
Yumşaq yatağıma uzanacağam.
Mən də bir insanam, sanmayın dağam;
Belə bir zamanda, belə bir anda,
Gözümün önündə, nurlu cahanda
Hər şey qaralacaq axşamlar kimi,
Otağım zülmətə dönəcək mənim;
Əriyib süzülən ağ şamlar kimi,
Gözlərim süzülüb sönəcək mənim;
Qadınım gözümü bağlayacaqdır,
Baxıb ağlayacaq, ağlayacaqdır.
Başımın üstündə lalə bənizli, –
Sevdiyim mehriban, mühəndis qızım,
O dilbər günəşim, parlaq ulduzum
Yaşlar axıdacaq hey gizli-gizli.
Bu, bir ailənin son hörmətidir,
Övladın ataya məhəbbətidir.
Söyləyib: "*insanın bumudur sonu?!*"
Qolunun üstünə alıb oğlunu
Çıxacaq İldırım dərhal otaqdan!
Baxacaq gəlinim səssiz uzaqdan.
Şair yoldaşlarım şeir yazacaq,
Əklil gətirəcək dostlar adıma.
Məzarçı qəbrimi dərin qazacaq,
Baxmadan işimə, istedadıma...
Torpaq öz oğlunu əməlli saxlar,
Məni o gün belə basdıracaqlar...
Dolanacaq aylar, keçəcək illər,
Daha xoş sürəcək ömrünü ellər.
Cahan parlayacaq çilçıraq kimi,
Qəbrimin dövrəsi bağça-bağ kimi
Qönçələr verəcək, güllər açacaq.
Keçərkən yanımdan o zaman ancaq
Ölkənin gəlini, ölkənin oğlu
Baxıb düşünəcək bəlkə, bir zaman:
"İndi qəbri belə çiçəklənən bu
Daşları mamırlı bixəbər insan,
Şeirlər yazardı əbədiyyətdən;

Azad insanlıqdan, azad sənətdən.
Qəlbini köklərdi simli tar kim,
Könül hisslərini bir nübar kimi
Sevinib xalqına sovqat verərdi,
Hər sözə quş kimi qanad verərdi.
O deyildi *elin nə ilk şairi,*
Nə də son şairi bu məmləkətin.
Bir sayıq əsgəri hissin, sənətin
Gözəl yurdumuzun lirik şairi
Bizim M.Rahimin məzarıdır bu".
Deyib yollanacaq evinə doğru...
Mələk! Ey ömrümün nurlu çırağı,
Səni məhv etməsin bu hicran dağı,
Burax ağlamağı o gün bir yana.
Ölərkən dünyada bir iz qoyana
Ellər yaxşı deyir, ölüm-itim yox,
Nə yas tut o zaman, nə də ağla çox.

1937

SAHİBİN HANI

Qapımın altında qazıyıb yeri
Kişnəyirsən yenə, sahibin hanı?
Sən ey yoldaşımın həlim kəhəri,
Hanı cəbhələrin o qəhrəmanı?
Mən dünən yalını gözəl daradım,
Hüsnünə yaraşan mahnı aradım;
Dedim ki torpağa dəyməsin nalın,
Yerdə yoldaşı ol uçan qartalın.
Üz versə xatalar zalım bəşərdən,
Qoru sevgilimi ağır xətərdən.
Toxuyub gecələr mən də çulunu,
Gözləyib duraram sənin yolunu.
Ol bu iqrarıma gəl əmin, kəhər,
Sənə tay tutmaram doğsa min kəhər!

Elə bil ki, duyub ürəkdən məni,
Yoxladın gözucu dağı, çəməni.
Sıçradın ox kimi, gözlərdən itdin,
Tərkində yoldaşım cəbhəyə getdin.
İndi qayıtmısan qəlbində məlal,
Nədir bilməyirəm, bu qəribə hal?
Sənin hüzurumda yox xəcalatın,
Günahı olarmı vəfalı atın?
Sən ki, xeyli həlim, xeyli şux atsan,
Niyə duruxubsan? Nə üçün matsan?
Söylə, bu halına səbəb nədir, nə?
Qazağı yəhərin düşüb böyrünə,
Qırılmış cilovun, taydır üzəngin,
Elə bil dəyişib əvvəlki rəngin.
Sən ey illər boyu mənə mehriban,
Nədir yəhərində quruyan o qan?
Yoxsa bir avara küllə çoyumuş,
Cəbhələr igidi dostun soyumuş?
Sən də yağılara əsir düşməyib,
Dərədən, təpədən, acılar yeyib
Min bir əziyyətlə evə gəlmisən?
Halını dil açıb nə olar desən!..
Mən səni görmədim heç zaman belə,
Sən bir dağ çeşməsi, olduqca oynaq!
Ey bu duruşilə, hərəkətilə
Bir qəza söyləyən, səni heç qınaq
Gətirməyir dilə önümdə, haşa,
Döndümü ürəyin soyuq bir daşa?..
Oldumu başına bu gen dünya dar?
Gəl bəri, gəl bəri, gözəl vəfadar,
Bəlkə mən də sabah minib tərkinə
O qanlı cəbhəyə gedərəm, yenə
Sən dönərsən geri bu sözüm haqdır;
Beləcə kişnəyib eşərsən yeri,
Onda mənim kimi qarşına biri
Elə düşünmə ki, çıxmayacaqdır.

1937

YOLDAŞ SƏNƏTKAR

Doğma Vətən, sən böyük sənətkarlar elisən,
Sən bir incə rübabın qırılmayan telisən.
Nə zaman şair kimi çəkərsəm baş bulağa,
Qanadlansam quş kimi Göy gölə, Xaçbulağa,
Gözlərimdə ellərin Ələsgəri canlanır,
Qarabağda Natəvan, aşıq Pəri canlanır.
O yerlərdə sənətin büsatını görürəm,
Vidadini, Vaqifi, Nəbatini görürəm.
Nə zaman dırmanarsam uca, qarlı dağlara,
Hər daşı bir cavahir, şah vüqarlı dağlara,
Yamaclarda yüksəlir mərd elimin balası,
Koroğlunun sökülməz beş əsrlik qalası.
Şirvana getsəm əgər qaldırır bayraq kimi
Səkkiz əsrin içindən ölməyən Xaqanini,
Gəncə göyə ucaldır Nizamini dağ kimi
Şerə ustad, möhtəşəm şairlər xaqanını,
Söyləyir sənətimin tarix qədər yaşı var,
Dünya həmayilinin məndə çoxlu qaşı var.
Nə zaman gəlsəm əgər bağça-bağlı Nuxaya,
Keçmişin sitəmindən bağrı dağlı Nuxaya,
Dövrəmdə bülbül kimi xoş ötəni görürəm,
Böyük Mirzə Fətəli, ilkin səni görürəm;
Görürəm, köhnəlikdən edib üsyan, yazırsan,
Puşkinin vəfatına gözəl dastan yazırsan.
Mən dalarkən xəyala, göy çəməndən, ovadan,
Şotanın vətənində aşıq Sayat Novadan,
Səndən alır sevinclə bəxtiyar ellər xəbər.
Verər ququ quşundan sonalı göllər xəbər.
Böyük Mirzə Fətəli, qamçılayıb yağını,
Sən açdın ata kimi mehriban qucağını
İnsanlığın yolunda xoş baharlı niyyətə;
Dünyanın iftixarı ölməz əbədiyyətə.
Bu gün azad ellərin deyir oğlu, gəlini,
Bakının ürəyində yaratdım heykəlini
Ey zəka dünyasında doğan ağbaş sənətkar
İzin ver deyim sənə: ölməz, yoldaş sənətkar!

PUŞKİN

Arabir işvəli, nazlı gözəllər
Çiçəkdən başına çələng toxuyur.
Arabir ömrünə uğursuz dillər
Möhürlü, imzalı fərman oxuyur.

Arabir görürəm çarın bağında
Ətrafında qızlar kefi çağ səni.
Arabir ömrünün əziz çağında
Gözləri yol çəkən bir dustaq səni.

Arabir silinir izin şimaldan,
Dağılır xəyalın, təsəvvüratın:
Qartallı Beşdağa sənin də yaldan
Buğlana-buğlana dırmanır atın.

Arabir çıxaraq, bizim Qafqaza,
Quzğunu, tərlanı seyrə dalırsan,
Şeir dəftərinə dərd yaza-yaza,
Azad buludlardan qələm çalırsan.

"Dostların" qurduğu fitnədə, feldə
Görürəm qəm yeyən, bağrı qan səni.
Boranlı qış çağı qanlı dueldə
Bir güllə qurbanı yıxılan səni.

Sən bizim dağları, bizim elləri
Dolanıb gəzmisən bir qərib kimi,
Axan bulaqları, coşan selləri
Seyr edib durmusan müztərib kimi.

Tarixə bəllidir bizim Qafqazın
Ləkəsiz ürəyi, təmiz qılığı.
Qoyar dost yolunda olan-olmazın,
Bəllidir elimin qonaqcılığı.

Sağ olsaydın əgər deyərdim sənə:
Qurbandır adına dövlətim, malım.
Sərin eyvanıma qonaq gəlsənə,
Döşənsin çəmənə ipəyim, xalım.

Babamın əkdiyi qara şanıdan
Giləsi göz kimi salxımlar dərim.
Oturub danışaq sözdən, mahnıdan,
Qonuma-qonşuya xəbər göndərim;

Gəlsin dostlarımız çalaq, çağıraq,
Göyləri mat qoyan bir məclis quraq;
Çevirək şeirə təəssüratı
Sevək yer üzünü, azad həyatı.
Dırmanaq mehriban azad Qafqaza,
Şeir dəftərinə söz yaza-yaza.
Dolanaq çayırı, gəzək çəməni,
Nə dağlılar səni, nə kazak məni
Qəfildən atəşə, gülləyə tutmaz.
Əziz övlad kimi, şairim, səni
Ellər xatırlayar, əsla unutmaz.
Mən bu arzu ilə açıb yenə dil
Dedim: "Qoy iş görüm sənin əlinlə".
Gəlib "Çar kəndinə" özüm keçən il,
Oturdum yanaşı tunc heykəlinlə.
Gözümdən oxudun diləklərimi,
Arzumu, duyğumu, istəklərimi,
Dedin ki: "Gələrəm bahar gələndə,
Bağçalar bar verib, çəmən güləndə".

İndi bahar çağı gül mövsimidir,
Sinəndə qalmasın, burax, çar dağı.
Şairim, durma gəl, əsil dəmidir –
Babamın qurduğu üzüm çardağı
Gözləyir yolunu intizardadır,
Soruşur: "Qonağın şair hardadır?"
Bir səs cavab verir: o yanındadır
Sarmaşıqlı, gözəl eyvanındadır!

AY QIZ

Sən bir açılmalı təzə qönçəsən
Mən sənin yarpağın olaydım, ay qız!
Nazlısan, sazlısan, tüldən incəsən,
Mən sənin növrağın olaydım, ay qız!

Dilin qənd, dodağın məzədir, məzə,
Görüm gül camalın gəlməsin gözə.
Sən bir yeyilməli balsan – tər-təzə,
Mən sənin qaymağın olaydım, ay qız!

Tərlanı olmuşam uca dağların,
Rəngi soluxmasın al yanaqların.
İnciməsin deyə gül ayaqların –
Çəkili başmağın olaydım, ay qız!

Rahim əl çəkərmi öz diləyindən,
Ölüb qurtarmadıq yad gileyindən.
Sənin asılmağa ağ biləyindən
Qızılı qolbağın olaydım, ay qız!

1938

ƏNTƏRƏ

Xəyal uçan bir qartala oxşayar,
Üfüqlərdə qanad çalar, süzər hey.
Əbədiyyət dəryasına baş vurar,
İnci yığar, deşər, sapa düzər hey...

Ərəbistan çöllərində bir zaman
Basqınçılıq, soyğunçuluq olardı.
İki başçı olmayanda mehriban
Qəbilələr qılınc, qalxan alardı.

Bir qorxmayan qəhrəmandı Əntərə,
Oymağına qəfil basqın etdilər.
At belində o, batdı ki, qan-tərə,
Nahaq qana susamasın bir nəfər.

Qılıncını oynadaraq havada,
Şahin kimi dörd bir yana şığıdı.
Obam, – dedi, – basılmasın davada,
Bu meydandan, o meydana şığıdı.

Hara cumdu əcəl kimi yeridi,
Pəncəsindən can qurtaran olmadı.
Zərbəsindən torpaq belə əridi,
Cəbhəsini əsla yaran olmadı.

Zənn etməyin qoç Əntərə yoruldu,
Ya da qaldı bəd ayaqda tələşdə.
Bir zəhərli xain oxla vuruldu,
O qəhrəman batdı qana savaşda.

Bildirmədi bu halını düşmana,
İtirmədi bəd ayaqda huşunu.
"Oxbatmazdır!" deyib düşdü həyəcan
Daban aldı müxalifin qoşunu.

Qaçdı, yaman qaçdı atlı yağılar,
Geniş, qumlu səhralardan yol aldı.
Çapdı getdi quş qanadlı yağılar,
Bir qırpımda gözdən itdi, yoxaldı.

Qoç Əntərə qalib dönür geriyə,
Lakin həyat gözlərində sönürdü.
Bir yamacdan at yeriyə-yeriyə
Qəmli-qəmli evlərinə dönürdü.

"Vurulmamış, ola bilməz, Əntərə
Çox güman ki, indi atdan düşübdür.

Qum üstündə sərələnib o yerə,
Qılınc yanda, qol səbatdan düşübdür".

Deyib həmən qaşlarını çatdılar,
Cürətləndi bayaq qaçan qəbilə.
Atlarının yalmanına yatdılar,
Əbaları quştək açan qəbilə...

Keçmişdisə zəhər onun canına,
Yenə qüvvət Əntərəyə həyandı.
Nizəsini dayaq verib yanına,
Bir yamacda baxar kimi dayandı.

Durdu belə qoç qəhrəman o dikdə,
Getdi artıq bir əbədi yuxuya.
Əzəmətli görüb onu gədikdə
Çapıb gələn dəstə düşdü qorxuya.

Dayanmışdı dağ belində sanki dağ.
Elə bil ki, girəcəkdi meydana.
Şimşək kimi öz yerindən qoparaq,
Qılıncını çalacaqdı dörd yana.

Düşmənləri belə gəldi qərara:
Demək ona ölüm yoxdur cahanda!
Lərzə düşdü canlarına bu ara,
Dəstələri geri qaçdı bir anda...

O, şairdi, qəhrəmandı, qoçaqdı,
Batmayacaq lakin artıq qan-tərə.
Nizəsinə dayanaraq, haçaqdı,
At üstündə can vermişdi Əntərə.

1938

AY GÖZƏL

Xalq havası

Oğlan

Ay gözəl gedək gəzməyə bağa!
Qoy bir az baxım o gül yanağa.

Qız

Yanaqlarımı neylərsən, oğlan,
Dağlarda çiçək görməmisənmi?

Oğlan

Ay qız, sevmişəm gül camalını,
Bir insaf elə göstər xalını!

Qız

Oğlan, gəl burax xam xəyalını,
Məgər hil, mixək görməmisənmi?

Oğlan

Sən, bizim eldə bir nazlı dilbər,
Səbrim qalmadı, qaşını göstər!

Qız

Oğlan, qaşımı neylərsən, məgər
Gecələr hilal görməmisənmi?

Oğlan

Xurma dodağın dərdlərə dərman,
Onlardan mənə, bir busə, canan!

Qız

Dodaqlarımı neylərsən, oğlan,
Məgər beçə bal görməmisənmi?

1939

SƏNƏTKARINDIR

Qabağımda duran, a zalım naşı!
Vurub sındırdığın bu qəbir daşı
Keçən zəmanənin memarınındır.
Kim sənə dedi ki, gəl onu sındır?
Usta ki, qaşını günlərlə çatmış,
Əmək sərf eləyib əsər yaratmış,
Titrəyib üstündə fikri, əməli,
Hər yaranan şeyin mənası vardır,
Gələcək nəsilə bir yadigardır.
Sındırmaq asandır, yaratmaq çətin,
Sənət, mirasıdır əbədiyyətin.
Baş daşı olsa da əsərdir bu da,
Bir zalım, amansız, ağır vurğuda
Kim sənə söylədi, gəl onu sındır,
Ona hörmət elə, sənətkarındır!

Şuşa, 1939

KƏPƏNƏK

Kəpənək, kəpənək, xal-xal kəpənək!
Qoy verim sənə bir sual, kəpənək: –
De, nədən yarandın, haçan yarandın?
Neçin qanadlanıb, uçan yarandın?
Nədir axtardığın belə gəzirsən,
Qonursan çiçəyə, gülə, gəzirsən?
Bir qız tanıyırdım mən Qarabağda,
Gəzərdi şöhrəti dildə, dodaqda;
İncədən-incəydi o gözəl pəri,
Gül dəstə tutardı şümşad əlləri.
Gəzdikcə dərərdi, gül bağlayardı,
İyləyər gülünü, qucaqlayardı,
Cumardı xəyala, sonra da birdən.
Uzadardı mənə, durduğu yerdən

Deyərdi: "Dərmişəm sizinçün bunu!"
Kəpənək, bilirsən nə olduğunu
Aşiqə verilən çiçəyin, gülün?!
Sənin də olmuşdur, güman, sevgilin...
Günəşin nurunu güllər əməndə,
Onunla ayrıldıq bu göy çəməndə
Günlər qərar ilə yönəldi, keçdi.
Mən yenə arandan yola düzəldim;
Onun vətəninə yaylağa gəldim.
Ümid bağladımsa hər gün sabaha,
O qızı görmədim lakin bir daha...
Əlvan geyimləri xeyli qəşəngdi,
Elə bil ki, o da bir kəpənəkdi
Dedim: Ayrılıqmı düşdü araya,
Mənim kəpənəyim uçdu haraya?
"Ondan əl çək!" dedi güllər, çiçəklər –
"Qərar tutmaz olur şən kəpənəklər..."
Sən gülə qonanda bu göy çəməndə,
Onun xatirəsi canlandı məndə.
O qızın eşqilə bir aydan bəri
Gəzib dolanıram çəmənlikləri.
Onun həsrətilə könül dardadır,
Mənim kəpənəyim, görən hardadır?

1939

ÖMÜR İKİ OLAYDI

Ovçu könül vurğun bir şux ceyrana,
Səhər-səhər durub çıxdı seyrana.
Bir nəğməydi ağ suların axışı,
Nərgizlərin can alırdı baxışı.
Gülə baxdım, canan düşdü yadıma,
Dağlar güldü, Məcnun dedi adıma.
Dedim: "Məcnun mənim təki olaydı,
Ömür bir yox, gərək iki olaydı;
Sərf edəydim yar yolunda qoşa mən!

Çevriləydim bir qanadlı quşa mən,
Pərvazlanıb buludlara yetəydim,
Azad eşqin dastanını ötəydim".
Bu arzuyla aldı məni xəyalat,
Düşüncəmin orduları çapdı at...
Birdən gözüm bir laləyə sataşdı,
Soruşmayın neçün, niyə sataşdı,
Onun bağrı qapqaraydı, zil qara.
Dedim: "Lalə, qara hara, al hara?
Belə paltar geyinmisən de niyə?"
Sözüm çox da xoş gəlmədi laləyə,
Dedi: "Ömrüm xoş günlərə bağlıdır,
Kim deyir ki, bağrım başı dağlıdır?!
Bahar çağı güllər günəş əməndə,
Görüş təyin eləmişəm çəməndə.
Dərd bilmirəm, yas tutmuram, çox şadam,
Mən də, şair, sənin kimi azadam!
Matəm üçün olsa idi hər qara,
Belə rəngi mən çırpardım daşlara.
Məhəbbətdən mey içmişəm, hallıyam,
Mən sinəsi dağlı deyil, xallıyam.
Çox yaraşır sən bilirsən yara xal.
Gözəl olur ağ sinədə qara xal".
O dedikcə canan düşdü yadıma,
Sular güldü, Məcnun dedi adıma.
Dedim: "Məcnun mənim təki olaydı,
Ömür bir yox, gərək iki olaydı,
Sərf edəydim yar yolunda qoşa mən.
Səadətdən, azadlıqdan əməldən
Yazmaq üçün bircə ömür gödəkdir.
Bu bir arzu, bir şirincə diləkdir;
Üstümüzə kaş ki, sayə salaydı,
Ömür bir yox, gərək iki olaydı".

1941

ÜRƏYİMİ MƏŞƏL KİMİ QALDIRARAM GÖYLƏRƏ

Mən ilhamı əzəl gündən öz yurdumdam almışam,
Dağ başında saatlarca təbiətə dalmışam.
Söyləmişəm, Axar bulaq, hey təzə gəl, təzə get,
Xoşladığım çəmənləri xalılarla bəzə, get!
İstəmişəm öz ətrilə gül bürüsün bağları,
Əyilməmiş, əyilməsin Azərbaycan dağları.
Şən oxusun nəğməsini sarı bülbül budaqda,
Quşlar azad yuva qursun o dərədə, bu bağda.
Qayğısilə döyünmüşdür qəlbim sözsüz, onların,
Dayanmışam keşiyində gecə-gündüz onların.
Zaman-zaman gözlərimi boşluqlara dikmişəm,
Günün, ayın, ulduzların keşiyini çəkmişəm.
İstəmişəm nurlu günəş parıldasın göy tağdan
Çağrışilə qara gözlü balam dursun yataqdan.
Nəşəsini yaysın düzə əsən sərin küləklər,
Belə olmuş ürəyimdə bar gətirən diləklər.
Gülən günəş! Axan bulaq! Ötən bülbül! Açan gül!
Səhər-səhər pəncərəmə öz ətrini saçan gül!
And içirəm, sizdən ötrü, yaşıl çəmən, göy dərə!
Ürəyimi məşəl kimi qaldıraram göylərə.

1941

BİZ YENƏ DƏ QAYIDARIQ

Siz ey gözü həsrət çəkən ağ birçəkli analar!
Dağıdılmış barlı bağlar, odu sönmüş xanalar!
Yuvasından uzaq düşüb qərib-qərib ötən quş!
Siz ey körpə budaqları solub vaxtsız qurumuş
Tər qovaqlar, akasyalar, əzəmətli göy camlar!
Hər saatı bir gün olan ey səhərlər, axşamlar,
And içirik üfüqlərin al geyinmiş rənginə!
Yaxınlarda bu yerlərə qayıdarıq biz yenə!

Siz ey hər gün əzab çəkən saf vicdanlar, ürəklər,
Yarpağına qan çilənmiş solan güllər, çiçəklər!
Sən ey viran qalan böyük incəsənət ocağı!
Ukraynanın bol məhsullu, bərəkətli torpağı.
Ey baş alıb axıb gedən, qan çağlayan ləpələr,
Siz ey qışın çovğununda yurdsuz qalan körpələr!
Keçdinizsə cəlladların mərhəmətsiz əlinə,
Yaxınlarda bu yerlərə qayıdarıq biz yenə!

Sən ey Taras Şevçenkonun uçurulmuş heykəli,
Ürəklərdə pöhrələnmiş qardaşlığın əməli,
Ölməyəcək azad sevgi, ölməyəcək hüriyyət,
Qaldırılar yaxınlarda bu ayrılıq, bu həsrət.
Döyüşlərdə düşünürük səhər axşam sizləri,
Göy taxılı ayaqlanmış Belorusya düzləri.
And içirik biçilməmiş dərdli zəmilərinə
Yaxınlarda bu yerlərə qayıdarıq biz yenə!

İradəmiz əsarəti yaxınlarda boğacaq,
Azadlığın nur günəşi üstünüzə doğacaq;
Xatırlayır daim sizi şahinlərim süzəndə,
Dənizçilər dəryalardan dəryalara üzəndə,
Xilaskarın həmdəmidir döyüşlərdə cəsarət,
Əzəl gündən insanlığa biganədir əsarət.
And içirik gənc qızların nakam qalan eşqinə,
Yaxınlarda bu yerlərə qayıdarıq biz yenə!
İgidlərin çıxarılmış gözlərinə and olsun,
Qurbanların axırıncı sözlərinə and olsun;
Qəsəm olsun gələcəyə, yurdum ana torpağa,
Qəsəm geniş üfüqlərdə dalğalanan bayrağa,
Azadlığa, səadətə, aya, günə and olsun,
İnsanlığın bu qardaşlıq birliyinə and olsun,
Qəsəm olsun anaların həsrət çəkən qəlbinə,
Yaxınlarda bu yerlərə qayıdarıq biz yenə!

1941

VUR! ÖLƏN FAŞİSTDİR...

Gözlərimin nuru, qoçaq döyüşçü!
Vətənin qüruru, qoçaq döyüşçü!
Yağdır odlar saçan güllələni, yağdır,
De ki, yer üzündə qalmayacaqdır
Azad yurdumuza göz dikən yağı!
Gözümün qarası, gözümün ağı,
Pulemyot dalına keçdiyin zaman,
Düşməni ot kimi biçdiyin zaman.
Deyir ana Vətən: – Əlin var olsun,
Şöhrətin dillərdə bir şüar olsun!
Canavar dediyin doludan qaçar,
Çıxar cığırından, yolundan qaçar.
Sənlə vuruşmaq asan deyildir,
Vur! Ölən faşistdir, insan deyildir!
Yağdır, dolu kimi güllələni yağdır,
De ki, yer üzündə qalmayacaqdır
Faşist dünyasının yalquzaqları;
Çevirərkən düzə tankın dağları,
Gah sağ tərəfdən vur, gah sol tərəfdən,
Qoyma ki, yayınsın güllən hədəfdən.
Vur, faşist səngəri qəbirə dönsün!
Deşilmiş bədəni xəlbirə dönsün!
Yağdır güllələri gur yağış kimi,
Vur, gəlsin baharı ağır qış kimi!
Hər yandan üstünə əs düşmənlərin,
Qış vurub yolunu kəs düşmənlərin,
Şərəf bizimkidir, bizimlədir haqq;
Vur, şanlı yurdumla üz-üzə durmaq
Görsün ki, o qədər asan deyildir,
Vur! Ölən faşistdir, insan deyildir!

1941

NATAŞANIN ÖLÜMÜ

Mənim körpə Nataşam oynaq bir kəpənəkdi,
Kəndlərində Nataşa gözəlliyində təkdi.
Gözlər dəniz kimi göy, saçlar sarı, sapsarı,
Öyünərdi bu qızla ətrafın qovaqları.
Nataşa dərsin deyə çöllər əlvan geyərdi,
Göl onu görən kimi "Gəldi pərim!" deyərdi.
Nə qədər mehribandı dağ-daş gül-çiçək ona,
Böyük, kiçik, bütün kənd vermişdi ürək ona.
Gülər üzlü qızların oydu başının tacı,
Salamlayardı onu körpə vişnə ağacı;
Öz əliylə Nataşa bağ salıb, gül sulardı,
Köpək onu görəndə quyruğunu buladı,
Qanadlanıb üstünə uçardı çil-çil fərə,
Ancaq vəhşi faşistlər kəndə gələndən bəri
Nataşa gülməyirdi, gülməyirdi gözləri.
Partizan atasını düşünürdü gecələr,
Dağ qəlbinə düşsə qəm, dağ əriyər, incələr.
Bir axşam kənd içindən kəsilərkən əl-ayaq,
Yuxuya gedən zaman təbiət, qəmli torpaq,
Birdən köpək uladı, ana qalxdı yerindən,
Nə var, hənirti gəlir kiçik həyətlərindən?
Nataşa dedi: "Ana, həyətdəki nə səsdir?
Bəlkə canavar gəlib? Ah, bəlkə də nemesdir?"
Donur yazıq ananın vücudunda al qanı:
"Faşist adlı məxluqun yoxdur qəlbi, vicdanı!"
Gedər son çoşqamız da... (Ana cumur xəyala)
Çıxım görüm nə vardır yoxlayım lamahala.
"Ana, səni vurarlar, gəl getmə, qayıt geri,
Mən uşağam, mənimlə olmaz bəlkə işləri" –
Ağ gecə köynəyində yüyürür həyətə qız;
Birdən güllə açılır, cəllad olar amansız.
Ah! – deyərək sərilir o körpə quş torpağa,
Dönür ana ürəyi əsən titrək yarpağa.
Cumur çölə.
Nataşa vurulmuş gicgahından,
Buludlara girir ay bu körpənin ahından...

* * *

Bir gövhər tapşırmağa ana torpaq altına
Qollarında balası, gəlir qovaq altına.

* * *

Gecə keçmiş yarıdan, üstü balaca daşlı,
Təzə qəbrin önündə ana gözləri yaşlı
Dayanırkən vücudu birdən alışdı yandı;
Ölümün yuxusundan elə bil ki, oyandı.
Dedi: "Saxlama nakam Nataşanın yasını,
Alar partizan İvan qızının qisasını".
Sürətlə cumdu evə, alışdırdı daxmanı,
Bir yanan evi süzdü, bir qəbri, bir ormanı.
Daldı bir an uzaqda gurlayan top səsinə,
Sonra düzəldi getdi partizan dəstəsinə.

1941

TOYUMUZU ELƏRİK

Mənim cavan qəhrəmanım bir gənc qızı sevirdi,
Göy ulduzu erkən sönür, yer ulduzu sevirdi.
Sevişirdi bu aşiqlər qəmdən uzaq, bəxtiyar,
Bizim eldə insanlara daim olur bəxtiyar.
Sevinc içib məhəbbətin çeşməsinin gözündən,
Onlar azad sevişərkən mehribanca, xeyli, şən,
Ana Vətən bir gün dedi: "Polad arxam, qalam, dur!
Əcdadından igidliyi miras almış balam, dur!
Düşmən gəlir üzərimə!" – Aslan çatdı qaşını,
"Ölməmişəm, anam, – dedi, – uca saxla başını!.."
Vətən belə öz oğlunu cəbhələrə yolladı;
Dost-aşnası dalısınca baxdı, yaylıq salladı.
Qız söylədi uca səslə: – "Uğur olsun!" – yarına –
Ana Vətən arxalanır igid oğullarına.
Əminəm ki, biz düşmənin ürəyini teylərik!

Qayıdarsan yaxınlarda, toyumuzu eylərik".
Qız əyildi yanağından öpmək üçün Aslanı,
Hələ nişan taxılmayıb, ana yurdun aslanı
Elə bil ki, yuxlamışdı, birdən qalxıb ayıldı,
İsmətindən varlığına bir istilik yayıldı.
Aslan getdi, qız da baxdı oğlan gedən tərəfə,
Yaylığını sallayaraq əl eylədi bu dəfə...
Bizim qızlar qəhrəmandır, bilir, görüb eşidən,
Cəbhələrdə geri qalmaz mərd sanılan kişidən.
Bir gün qız da Aslan kimi oldu igid səfərbər,
Bəxtiyardır, gör nə qədər, oğlan əsgər, qız əsgər.
Ana Vətən öz qızını cəbhələrə yolladı,
Dost-aşnası dalısınca baxıb yaylıq salladı...
Uzaq, uzaq cəbhələrdə bir gənc həkim çalışır,
Gecə-gündüz o yatmayır, hər zəhmətə alışır.
Budur, yenə gətirdilər neçə ağır yaralı,
Bağlayırlar bir yaranı azca ondan aralı.
Qan aparıb qəhrəmanı, oğlan getmiş özündən,
Ancaq onun qəzəb yağır yarı solğun üzündən.
Gözlərini açdı yenə, baxır qəmgin baxışla;
Qızdırmadan dilə gəlir: "Ana Vətən, bağışla,
Sən də inan, uzaqlarda yar gözləyən Gülpəri,
Xainlərə təslim olmaz, igid sovet əsgəri,
Mən yeridim tank üstünə..." Yenə getdi özündən...
Qız adını eşidincə bir əsgərin sözündən
Fikirləşdi: "Bu kim ola?" – gəldi nəzər yetirdi,
Baxdı, gördü, Aslanıdır, zənn eləmə itirdi
Bəd ayaqda tez özünü bu cəbhələr aslanı.
Həkim kimi kömək etdi qurtarmağa Aslanı.
Tez yoxladı, gördü ağır üç yarası var onun,
"Xeyr, ölməz igid əsgər, yox, çarəsi var onun..."

Aslan açdı gözlərini, gördü baxır Gülpəri.
Həyat güldü, qarşıladı şir ürəkli əsgəri,
O söylədi: "Çox vuruşdum, bomba atdım üşmana..."
"Çox danışmaq zərərlidir", – həkim dedi Aslana.
Günlər keçir, oğlan yatır, qız çalışır, çalışır,

Azərbaycan maralının şir ürəyi alışır...
Bir gün dedi qız Aslana: "Qayıdarsan Qafqaza,
Salam söylə dönən kimi məndən, Aslan, Qafqaza.
Get! – söylədi, – yaxınlarda biz düşməni teylərik,
Qalib çıxıb qayıdarıq, yaxşı bir toy eylərik!"

Üç ay sonra, bir gün Aslan axtarırdı həkimi:
Baş vururdu hər tərəfə, ah, görəsən nə kimi
Ürək açan, üz güldürən təzə xəbər deyəcək?
Qoç qəhrəman öz yarına, görən, nələr deyəcək?
Aslan tapdı Gülpərini, yaxınlaşdı Loğmana,
Salam! – dedi, cavan həkim cavab verdi oğlana:
– *Gedirsənmi?*
– Hə, gedirəm.
– Salam söylə Qafqaza.
– Mümkün deyil yetirəm.
Qız duruxdu, oğlan dedi:
– Mən səngərə gedirəm.
Dağılmasa birdəfəlik düşmənlərin səngəri,
Bilirsən ki, qayıtmarıq nə mən, nə də sən geri!
Sevincindən şimşək çaxdı gənc həkimin gözləri,
"Vuran qolun dağa dönsün!" Belə oldu sözləri.
Qız bu dəfə bacarmadı, öpdü onu: "Get! – dedi,
Yasarların yuvasını darmadağın et! – dedi.
Biz yaxında qalib çıxıb düşmənləri teylərik.
Birgə dönüb şən Qafqaza, toyumuzu eylərik..."

1941

SƏNSİZ

Mən səni sevmişəm hər şeydən əvvəl
Sənə bağlamışam ürəkdən əməl...
Sənin həyatını qorumaq üçün
Ağır cəbhələrə getmişəm bu gün.
Ey gözəl yurdumun dilbər gəlini,
Ümidim üzməyir səndən əlini!

Sanıram hər yanda olsam mən yenə
Arzumun gözləri rast gələr sənə.
Eşqinlə çalınır könlümün simi,
Döyüşdə bir şəfqət bacısı kimi
Deyirəm önümə çıxarsan mənim.
Gülüb əllərimi sıxarsan mənim.
Yuxuda çəkirəm bəzən adını,
Xatırladır mənə sözlərim səni.
Mən itirməmişəm etimadını,
Axtarır görməyə gözlərim səni.
Sən çıxdın önümə dağda, aranda,
Sənsiz bu könlümün yoxdur aramı.
Döşümü süngüylə düşmən yaranda,
Yenə sən, deyirəm, bağla yaramı.
Eşqinlə bağladın ömrü dövrana,
Mehriban elədin həyata məni.
Sənsiz zənn edərəm düşdüm zindana,
Çağırsalar əgər nicata məni.
Coşsa da gurlayan vəhməli toplar,
Yenə mənim eşqim tutacaq qərar.
Cahanda gəlməzsən rast bir qüvvətə
Ki, boyun əydirsin o məhəbbətə.
Sən mənim ruhumsan, ülviyyətimsən,
Sağ olduqca səni anacaq könül;
Odların içində olsam da bəzən
Səni öz yanında sanacaq könül.
Ölərəm, dönmərəm bu yoldan geri,
Sənsiz günüm qara, eşqim yetimdir.
Ömrün sənsiz keçən dəqiqələri,
Sanıram ən böyük fəlakətimdir.

NEFTİN DASTANI

Qara neftim, qara neftim,
Sən bu yurdun cövhərisən!
Əzəl başdan ellərimin
Nur yağdıran səhərisən.

Sən torpağın qucağında
Alışanda məşəl kimi,
Zərdüşt sevdi varlığını
Bir müqəddəs əməl kimi.
Uzaq, yaxın zəvvarların
Gəldi hər gün ziyarətə
Tanrı deyə başladılar
Odlarına ibadətə.
Tar gecələr şölə saçdın,
Adın düşdü çox dastana.
Qatar-qatar karvanlarla
Gedib çıxdın Hindistana.
Öz xoşuma mən vermədim,
Qismət oldun bir vaxt yada.
Zəncirləyib apardılar,
Zorla səni ta Bağdada.
Azərbaycan kəndlisinin
Yanmamışdan çırağında
Cahangirlər ehtirasda
Qılınc vurdu sorağında.
Mən bilirəm, o zamanlar
Yad evində sən yananda,
Şölə çəkib piltələrin
Şəfəq verib odlananda
Bir sızıltı duyulurmuş
Çırağında həzin-həzin;
İnləyərək yanırsanmış
Həsrətilə ölkəmizin.
Qara neftim, qara neftim,
Sən ki, mənim öz varımsan.
Dünya bilir əzəl gündən
İftixarım, vüqarımsan.
Sən düşəndə məngənəyə
Mənim dərdim bir dağ olar,
Sən keçəndə caynaqlara
Azərbaycan dustaq olar.
Səndən ötrü döyüşlərdə

Keçdi xeyli yaşım mənim,
Gizlətmirəm, tez ağardı
Qoşqar kimi başım mənim.
Mən namusla əmək çəkib
Axıdanda alın təri,
Əcəl çəkib sahilimə
Sürükləyir faşistləri.
Yox, qoymaram bir də səni
Qəsbkarlar çəksin dara!
Öllərəm, inan, buraxmaram
Aparsınlar uzaqlara.
Sən bu azad dünyamızda
Öz evimdə yanacaqsan!
Nur göyərçin olub yenə
Eyvanıma qonacaqsan!

1942

SEVGİLİNİN ARZUSU

Dünən çıxdıq dağ döşünə qol-qola,
Saldım səni cəbhələrə mən yola.
Dedim: yurdun bağrı, başı yaradır,
Xain düşmən gör bir nələr yaradır,
Sən yağını didərgin sal yuvadan,
Əskik olmaz ömrün xeyir-duadan.
Versən əgər Vətən üçün qolunu,
Gözləyərəm intizarla yolunu.
Yox, əgər ki, ayağını itirsən,
Qoltuğunda əsa həyətə girsən
Mən qoluna dayaq ollam, sevgilim
Gecə-gündüz oyaq ollam, sevgilim!
İstəmərəm yel də ötsün yanından,
Günə, aya həsrət qalsan, o zaman
Gözlərinin nuru ollam mən sənin.
Yaxşı qoru ismətini Vətənin!..

Qorxaqlara namus, qeyrət ar olar,
El içində köç-külfəti xar olar.
Hər dərdinə tab gətirrəm mən sənin,
Ancaq inan yerə girrəm mən, sənin
Danışmasa ellər əgər şanından;
Namərd qorxar bircə qaşıq qanından.
Sən Vətənə şan-şöhrətli dönəndə,
Qızıl ulduz parlayanda sinəndə
Yollarına gül səpərəm, sevgilim,
Utanmaram mən öpərəm, sevgilim,
Onda sənin yol üstündə üzündən,
İbrət götür babaların sözündən.
Namərd oğul el başına dərd olar,
Mərd atadan doğan oğul mərd olar!

1942

MƏNƏ DEYİRLƏR Kİ

Mənə deyirlər ki, Rahim, dilə gəl!
Şairsən şeir yaz təzə ilə, gəl.
Döyüşçü səngərdə keçirir onu,
Zəfər sabahına açıb qoynunu
Aynası örtülü evlər, otaqlar,
Yandırıb sönməyən nurlu çıraqlar
Var olsun hər gələn təzə il deyir,
Açsın ömür bağı qərənfil, deyir...
Yazaram, yazmamaq mümkündür məgər?
Ey məni qanilə qoruyan əsgər!
Ey ömrü qurtaran ahdan, amandan,
Mənim qan qardaşım, cəsur komandan!
Qoy dostlar bu gecə getsin xəyalə,
Al şərabla dolu qızıl piyalə
Uzatsın dodağa şirmayı əllər.
Hörmət bəslədiyin yosma gözəllər
Alıb sağlığına nuş etsin bada.

Mən səni şeirlə gətirim yada.
Qoy bu şeir öpsün mərd əllərini;
Uçurt fəlakətin təməllərini!
Nevanın, Volqanın qırağında dur,
Böyük azadlığın sorağında dur!
Qardaş var sənինlə edir iftixar,
Ana var yoluna göz dikib durar.
Nənə var hal sorar sabah yelindən,
Bala var atası düşməz dilindən.
Baba var əlləri asimandadır,
Gözləri yol çəkir, həyəcandadır,
Bacı var xəlvəti tökür göz yaşı,
Əlindən gedəli bircə qardaşı.
Vur, vur ki, aradan qalxsın bu fəraq,
Vur, qəmin əlindən yaxa qurtaraq!
Vur ki, son zəfərin əsəri gəlsin,
İtkin düşənlərin xəbəri gəlsin.
Vur, düşmən əl atsın qəm yaylığına,
Dostlar içsin sənin can sağlığına!
Təzə il gecəsi sən döyüşəndə
Bütün bir gecəni yatmayıb mən də
Yazım şöhrətini, şücaətini,
Vətənə eşqini, sədaqətini.
Sən aç bu səhəri yeni zəfərlə,
Mən – adına layiq təzə əsərlə!..

İKİQAT CİNAYƏT

Eldən gələn kağızlar cəbhəyə bir dayaqdır,
Könül açan sözləri əsgər üçün yaraqdır.
Dünən döyüşçü dostum evindən kağız aldı,
Sevinmədi nədənsə, bulud kimi qaraldı.
Mən ona yaxınlaşıb dedim: "Nə var, qardaşım?
Ağır gündə dərdini bölər dostlar, qardaşım!"
Cavab vermədi əsla, doldu qara gözləri,
Dikilmişdi nədənsə uzaqlara gözləri...

Birdən döyüş qızışdı, yağdı yenə güllələr,
Yenə bir-birimizdən tuta bilmədik xəbər.
Qaş qaraldı, sanma ki, atışmalar dayandı,
Göylər alov büründü, yerlər qana boyandı.
Qəmli bir gəlin kimi gözünü açdı səhər,
Baxdım yatır yanımda cəbhə yoldaşım əsgər.
Sinəsindən vurulmuş, köksü batmış al qana.
Dünən aldığı məktub yellənir, düşüb yana.
Tez kağızı götürdüm... Nələr olur dünyada!
Bivəfa yar veribdir əsgəri, duydum, bada,
Məktubu dostu yazmış, xəbər verir əsgərə;
Atıb onu arvadı getmiş özgə bir ərə...
Bir saatın içində əsgər qəlbən qocalmış,
Taqətini əlindən dərdü-qəm çəkib almış;
Ayırd edə bilməmiş hardan yağır güllələr,
Səbəb dönük sevgidir, tələf olmuşdur əsgər...
Fikir məni apardı heykəl kimi dayandım,
Vaxtsız ölən əsgərə yandım, yandıqca yandım.
Nəhayət, belə yozdum bu ağır fəlakəti:
Bir namussuz arvadın ikiqat cinayəti.
Dedim: "O kişilər ki, alır əsgər qadını,
Qoy yaxşıca qorusun öz təzə arvadını.
Səngərdəki əsgərə göstərməyən sədaqət,
Onun da sevgisinə bir gün eylər xəyanət!"

1942

MÜQƏDDƏS KƏDƏR

O bir gənc kolxozçudur, Ukrayna torpağından,
Hələ məhsul dərməmiş ömrün bahar bağından.
Doğma kolxozlarında dövləti, varı qaldı,
Candan artıq sevdiyi nazlı bir yarı qaldı.
Vətənindən didərgin saldılar bu gün onu,
Ömründə qəm bilməyən azadlığın oğlunu.
Dərd alıb pəncəsinə bu gün didir, dağıdır,

Qınamayın siz onu, ömrün qəmgin çağıdır!
Kim bilir, bəlkə dünən, saçlarından sürülən,
Döyülən, zorlanılan, əzabla öldürülən,
Sarı saçlı nazənin sevimli cananıydı;
Ah, bəlkə də, balaca qardaşımın qanıydı
Bir gülləylə qarlara tökülüb, açdı lalə;
Qınamayın dərdlənib o gedəndə xəyalə!
Haqlıdır kədərlənib baxarkən Vətən sarı,
Bölüşür torpağını alman mülkədarları.
Bu dərd vurdu yadından hər dərdini çıxardı,
Bu dərd bir xəncər kimi odlu qəlbini yardı.
Qoyun kədərlənsin o, təsəllilər hədərdir!
Vətən dərdi, el qəmi, ən müqəddəs kədərdir!
Bu kədər, ancaq onun əlinə vermiş yaraq,
Bu qəzəblə o qanlı cəbhələri yaracaq,
Dəhşətli bir intiqam aldıracaq bu kədər;
Onu dağ tək hücuma qaldıracaq bu kədər!
O, ovcunda sıxır, bax, qəzəbindən yarağı,
Az qalır ki, çatlasın tüfənginin qundağı.
Toxunmayın siz ona, təsəllilər hədərdir!
Vətən dərdi, el qəmi, ən müqəddəs kədərdir!

1942

ONU DON QUCAQLADI

O bir igid cavandı,
Sular tək coşdu, getdi.
Bir alıcı tərləndi,
Yuvadan uçdu, getdi.
Gedərkən nazlı yarı,
Həyatının dildarı
Qurban dedi yoluna;
Yaxınlaşıb qoluna
Kəlağayı bağladı.
Ömrünün gündüzünü

Mərd olmağa çağırıb
Söylədi son sözünü;
Dedi: "Sevirsən məni,
Yaxşı qoru Vətəni".
Qız girincə qoluna,
Çıxdılar kənd yoluna.
Dinmədilər bir qədər,
Əsla danışmadılar.
Bəzən susmağın belə
Çox böyük mənası var.
Sonra gənc: "Sağ ol" – d
Qız: "Zəfərlə dönəsən,
Sənə yaxşı yol" – dedi.
Qayıdarkən geriyə
Yol yeriyə-yeriyə
Yaş tökdü gildir-gildir.
(Ürək daşdan deyildir).
Qövr eləyib ağladı,
Oğlansa vardı getdi.
Qəlbində yar sevgisi,
San ki, çapardı, getdi.
Yola saldı igidi,
Parıldayan ulduz, ay.
Çiynində beşaçılan,
Sol qolunda kəlağay,
Gəldi Don kənarına.
Rus çayının yançağı
Oldu ana qucağı.
Sular kimi çağladı.

O bir alıcı quşdu,
Gecə-gündüz vuruşdu.
Gözlərində Şah dağı,
Hər xaini, alçağı
Sinəsindən dağladı.
Vuruş qızışdı bir gün,
Kiçik bir təpə üçün.

Mənim ana yurdumun
Balaca parçasına
Sahib olmaq istədi
Düşmən qan bahasına.
Bizim şanlı igidlər
Qorxu nədir bilmədi.
Bütün günü vuruşdu,
Geriyə çəkilmədi.
Düşmən üç qəhrəmanı
Aldı axır araya.
Tərlan: "Yoldaşlar, – dedi, –
Hünər yetər haraya"
Dilində bir azadlıq,
Bir təmiz eşqin andı,
Qəhrəmanım vuruşdu,
Ölümcül yaralandı.
Başından tökülən qan
Gözünü tutan zaman
Qolundan gözəl yarı
Verdiyi yadigarı
Açdı, sildi gözünü;
Ələ aldı özünü:
"Qeyrətdən kərəm, dedi –
Azərbaycan oğluyam,
Əsir düşmərəm" – dedi.
Ağrılar duya-duya
Şığıdı Tərlan suya.
"Gözəl Don, qulac-qulac
Qollarını mənə aç!"
Deyib yumdu gözünü,
Atdı çaya özünü.
Tez batdı polad kimi,
Bir şirin həyat kimi
Ölümü qabaqladı.
O böyük təbiətə,
O nakam məhəbbətə
Qan çilənmiş göy otlar,

Dərdli, qəmli buludlar,
Həzin baxan ulduz, ay,
Yar sovqatı kəlağay,
Dərin matəm saxladı.

Toplar nərə çəkərək
Tufanlar qoparanda,
Axıb gedən gur sular
Tərlanı aparanda,
Don çayı gəldi dilə,
Bu səs düşdü sahilə:
Uzaqlarda intizar
Yar gözləyən əziz yar,
Soruşma bir də: "Hanı
Azərbaycan tərlanı?"
İgid meydanda ölər,
Yarasından qan gedər.
El uğrunda qəhrəman
Oğullar qurban gedər.
Qoy ötsün havasında
Aşıqlar daim bunu:
– Azadlıq davasında
Azərbaycan oğlunu
Don çayı qucaqladı.

1942

ASLANIM PARTİZANDIR

Mənim qəhrəmanımdan bir vaxt xəbər gəlmədi,
Qara gözlü Zöhrəsi gecələr dincəlmədi.
Dağ kimi dik tutsa da əzəmətli başını,
Bəzən də qövr eləyib, öz həyat yoldaşını
Saatlarca düşündü, ağladı otağında,
Gündə bir qönçə soldu ömrünün budağında.
Eşidənlər: "Özünü nahaq yorma" dedilər,
"Durnalardan gecələr xəbər sorma" dedilər.

"Dərd insanı qocaldar, kədərlənmə, amandır;
Qəhrəmana ölüm yox, Aslanım qəhrəmandır..."
İntizarkən igidə həsrət çəkən dilbəri,
Gəlib keçdi xəbərsiz ömrün əziz günləri.

Vuruşmalarda Aslan dayanırkan dağ kimi,
Biçib tökürkən yerə düşməni yarpaq kimi,
Çətin yerdə çatırkən, nərə çəkib, haraya,
Bürüdülər, aldılar bir gün onu araya.
Gülən, zarafat edən, ürək verən Aslanım,
Ən ağır vuruşmada yol göstərən Aslanım.
Coşdu: "Dostlar, bal deyil, ömürdür şirin, dedi.
Zağlı avtomatları yaxşı dindirin, dedi.
Müxənnətdir keçməyən yurd uğrunda canından..."
Yağış kimi güllələr ötüşdükcə yanından
O çarpışdı oğul tək, nərə çəkdi şir kimi,
Dəlik-deşik elədi düşməni xəlbir kimi...
Gün batdı, qaş qaraldı, üfüqlərdən doğdu ay,
Sanki həyan gəlirdi qıjıldayıb axan çay.
Atlar nal tökən zaman Aslanımın səsindən,
Onu bir minomyotla vurdular sinəsindən.
Axtaranlar tapmadı ondan əsər-əlamət,
Düşmənlərin başına, min bəla, min fəlakət
Bu qəhrəman oğula, ürəkdən yanmadılar,
Yanmadılar, bu doğru, çünki inanmadılar.
Aslanın ölümünə, dedilər: "Ola bilməz,
Günəşə həmişəlik qara pərdə çəkilməz!
Qoçaqlara ölüm yox, mərdlik ona peşədir.
Güman partizan oldu, yurdu qalın meşədir".
Bədr olmaz, bu qaydadır, nurlu hilal olmasa,
Həyatın dadı qalmaz şirin xəyal olmasa.
Aslan qəhrəmanların dilinin əzbəridir,
Xəyalən yaşadırlar onu çoxdan bəridir;
İndi də and içirlər döyüşçülər başına,
Bəzən kağız yazırlar yarına, yoldaşına,
Ona hörmət edirlər ölməz komandir kimi,
Deyirlər ki, vuruşur Aslan yenə şir kimi.
Bu cəsur komandiri düşmənlər də sanır sağ,

Zabitlər yatmayırlar əsirlər gecə zağ-zağ.
Partizanlar qəflətən bomba atsa hayanda,
Deyirlər ki: "Onlara Aslan verir komanda".
Yağılar bu igidin şöhrətinə mat qalır,
Ölüm qalxır aradan, yenə də həyat qalır.
Nəğmə kimi dilləri gəzir olun hörməti,
Məğrur bir heykəl qurur Aslanıma şöhrəti,
Zaman keçir, dolanır, Aslan unudulmayır.
Dostlar yenə cəbhədə onu yanında sayır.
Zöhrənin də bağından solub yarpaq düşsə də,
Qapqara saçlarına gündə bir ağ düşsə də,
Aldığı hər kağıza bağlayıb əməlini,
Aslanından üzməyir ümidini, əlini.
Bəzən deyir özünə: "Ümidsizlik yamandır,
Bəlkə ölməyib Aslan, doğrudan, partizandır?!"

1942

ÜMİDLƏ YAŞA

Kağız almayırsan xeyli zamandır,
Sıxır ürəyini bir qara möhnət.
Bilirəm, bilirəm, halın yamandır,
Deyirsən: "Mənimki beləymiş, əlbət!"

Gecələr dərdlənib, ey qəmli dilbər,
Baxırsan balana öz yatağında.
Düşür yanağından ilıq incilər,
Solur bənövşələr ömür bağında.

Deyirsən: "Bixəbər yatan, ay bala!
Sənin indən belə adın yetimdir.
Vurulmuş cəbhədə atan, ay bala,
Gözümdə məhv olan məhəbbətimdir".

Sən ey cavan gəlin, mehriban bacı,
Nahaqdır çəkdiyin bu işgəncələr.

Gün olar yoldaşın – başının tacı,
Cəbhədən qayıdıb salamat gələr.

Gəl yetim söyləmə əsgər oğluma,
Qaraltma boş yerə, gəl öz qanını.
Ümidlə göz dikib yarın yoluna,
Gözlə iftixarla qəhrəmanını!..

Namusla yaşayıb əzəl binadan,
Bizim bu ellərin qızı, gəlini;
Gərək tab gətirsin hər dərdə insan,
Gəl nahaq yarından üzmə əlini!

Məktub almasan da indi, ey pəri!
Bir gün müjdələyər uşaqlar səni.
Sonra yar qapıdan girib içəri,
Boynuna qol salar, qucaqlar səni.

Ümid insanlıqla doğulub qoşa;
Şirindir olduqca ümidin dadı.
Əsrin Həcəri ol, ümidlə yaşa,
İnsanın ümidlə gülər muradı.

1942

SƏNİN UĞRUNDA

Gördüm səni ilkin quyu başında,
Dikilmişdi uzaqlara gözlərin;
Özün dalğın, çatılmışdı qaşın da,
Ürəyində deyilməmiş sözlərin.

Bəlkə o gün ötürmüşdün atanı,
Bəlkə bircə qardaşını, nə bilim?!
Sevməmisən bəlkə heç bir oğlanı,
Heç kəs sənə deməyibdir, "sevgilim!"

Bizim dəstə kəndinizə yayıldı,
Mən içməyə su istədim doğrusu.
Saf ürəyin xəyalatdan ayrıldı,
Gülümsəyib mənə verdin şirin su.

Dedin: "Belə, əsgər qardaş hayana?"
Dedim: "Səni qorumağa, ay gözəl!"
Dedin: "Düşmən al qanına boyana!"
Könül döndü yüksək dağa, ay gözəl!

Biz düzəldik yolumuza, bu zaman,
Ayağımız ağ qarları daradı.
Gözdən itdik, sən mehriban-mehriban
Baxdın, güman, gözün nəysə aradı.

O zamandan çox keçibdir, bil ancaq,
Gözlərimdən çəkilməyib surətin.
Yaxşı bilir bağlandığım bu torpaq:
Qollarını bükmək olmaz qüdrətin.

Ana yurdun torpağında, daşında,
O zamandan alovlardan keçmişəm,
Ölməmişəm, sanki quyu başında,
Əllərindən abi-həyat içmişəm.

Ey suyundan qəlbi təmiz qələmqaş,
Cəbhədəyəm bu gün tamam üç ay var.
Uğurunda sənin əziz qələmqaş,
Əllərimlə düşmən olur tarı-mar.

Bəzən gülür qabağımda camalın,
Al iç! – deyib su verirsən yenə sən.
Özün kimi şirin imiş xəyalın,
Mehribansan, ah, nə qədər mənə sən.

Üç ay var ki, ey gözəli ellərin,
Hücumlara sözlərinçün girirəm.
O gün mənə su uzadan əllərin,
Gülümsəyən gözlərinçün girirəm.

O YENƏ SEYR EDƏCƏK

Böyük Vətən müharibəsi qəhrəmanı
Baloğlan Abbasova ithaf edirəm.

Ta qədimdən Lənkəranın bir ölməyən şöhrəti var:
Yer üzündən quşlar ona qonaq gəlir qatar-qatar.
Bu torpağın tərlanıdır mənim ölməz qəhrəmanım,
Azərbaycan iftixarı, qorxu bilməz qəhrəmanım.
Az durmayıb gur suların səhər-axşam qırağında,
Pərvazlanıb körpə quzum şahbazların sorağında.
Bir gün uçdu bu tərlanım quşlar kimi yuvasından,
Qartal kimi qanad çaldı oylağından, obasından.
Bəxtiyarlar torpağına yad basmasın ayağını,
Söyləyərək, daraqladı öz mehriban yarağını.
Bəzən onun təmiz qəlbi bir dalğalı ümman oldu,
Düşmənlərə ölüm saçan qasırğalı tufan oldu
Lənkəranın gur bağları onsuz verdi bir il barı,
Onsuz ancaq Azərbaycan heç yemədi bir nübarı.
Onsuz bir il quşlar gəlib yuva saldı, bala verdi,
Onsuz ancaq el söylədi: yaman olur bala dərdi.
O, söylədi: "Eybi yoxdur göy bağçalar dolsun bara!"
Cavab verdi ellər, dedi: "Qoy eşq olsun bu iqrara!"
O: "Yurdumun gözəl çayı yada olmaz qismət!" – dedi.
Cavab verib ellər: "Sənə, igid balam, hörmət!" – dedi.
O, bircə gün olmadı ki, bir qəsbkar öldürməsin,
Qüdrətini düşmənlərə döyüşlərdə bildirməsin.
O vuruşub bu ellərinin qoruyaraq ismətini,
O, verdikcə öz əlilə xainlərin qismətini,
Azərbaycan iftixarla söylədi ki: "Balam vardır!
Hər əməli tarixim ə bir qiymətli yadigardır!"
O qəhrəman bu sözlərə qulaq asdı etibarla.
Tüfəngini öz döşünə yenə basdı etibarla,
Qırdı, tökdü düşmənləri xəzəl olmuş yarpaq kimi,
Ana yurdu fərəhindən dalğalandı bayraq kimi.
Bu gün-sabah bahar gələr, çayır-çəmən güləcəkdir,
Yenə bizim Lənkərana quşlar uçub gələcəkdir.
Ancaq mənim qəhrəmanım o quşlara dalmayacaq.

Durnaların qatarından bir də ilham almayacaq.
Baxmayacaq nurlu göyə, lakin bircə həqiqət var;
Yurd uğrunda candan keçən, el durduqca ölməz, yaşar!
Mənim şanlı tərlanıma Lənkəranın dağlarında,
Ətir saçan portağallı, sarı limon bağlarında,
Göy üzünə bir vüqarlı mərmər heykəl qalxacaqdır,
Onda mənim qəhrəmanım əsrlərcə baxacaqdır
Uzaqlardan uçub gələn qatar-qatar durnalara,
Əzəmətlə söyləyəcək: "Salam olsun ilk bahara!"

1943

SƏHƏRİN NƏĞMƏSİ

Boşluqların içində arabir gecə yarı,
Həzin-həzin ötərək, gedən durna qatarı,
İlk şəfəqin üfüqdən yer üzünə düşməsi,
Budaqlarda quşların oyanıb ötüşməsi,
Kainatı dindirən səhərin nəğməsidir.

Bülbülə gəl-gəl deyən çəmənlərin, bağların,
Su üstündə baş-başa çatışan budaqların,
Təzə aşiqlər kimi gözəl pıçıldaşması,
Ağ suların daşların üzərindən aşması,
Qəlbə salam göndərən səhərin nəğməsidir.

Dağ kimi buludların aldığı sevimli rəng,
Ceyran qaçışmasından yaranan incə ahəng,
Anasından gen düşən bir quzunun naləsi,
Camalından duvağı atan gülün jaləsi,
Açan lalə, nəstərən səhərin nəğməsidir.

Dan yerinin anbaan ağarıb, sökülməsi,
Kələğaylı qızların dağ döşündə gülməsi,
Mənim də can bağımdan dərilmiş hər novbarım,
Eşqilə insanların çırpınıb yazdıqlarım
Ağ gündən xəbər verən səhərin nəğməsidir.

1943

NƏNƏMİN ULDUZLARI

Mən uşaqkən ulduzları seyr etməyi sevərdim,
Təfəkkürün dünyasında yol getməyi sevərdim.
Nə zaman ki, ay doğaraq yerə şölə saçardı,
Nənəm baxıb asimandan şirin söhbət açardı.
O deyərdi: "Bu ağaran – hacıların yoludur;
Yeddi qardaş, ulduzların hamısından uludur".
O deyərdi: "Ulduzların bir çoxunun adı var,
İnsanların taleyidir, göy üzündə parıldar.
Günəş kimi şölə saçan parlaq olan bu ülkər,
Padşahındır, əzəmətlə yer üzünə nur çilər".
Sonra başqa sitarəyə cəlb eləyib diqqəti,
Söyləyərdi: "Boldur onun sahibinin dövləti".
O, deyərdi: "Bu ulduz ki, sanki indi sönəcək,
Yazıq, yoxsul bir kimsənin iqbalıdır yanır tək".
Nənəm söhbət eləyərdi, göyə xeyli baxardı,
Bəzən süzüb yer üzünə bir ulduz da axardı.
Nənəm çatıb qaşlarını söyləyərdi bu zaman:
– Demək, köçüb dünyamızdan getdi yenə bir insan.
Sonra mənə "yat" deyərdi, mən yumardım gözümü,
Ulduzların dünyasında zənn edərdim özümü.
Gəzdirərdi qanadında məni zərli mələklər;
Açılardı qabağımda varlığilə fələklər...
İllər keçdi karvan kimi, çatdım boya-başa mən,
Bir gün süzdü nənəmin də ulduzu göy üzündən.
İpək ruhlu bir insanı tapşırdılar torpağa,
Ömür bənzər budağından düşən sarı yarpağa.
Nənəm getdi... Dedikləri bəzən düşür yadıma,
Yanır, demək bir ulduz da göydə mənim adıma?
Yanır, lakin bir gün o da sakit süzüb axacaq.
Bəlkə onda bir nənə də göy üzünə baxacaq,
Söyləyəcək nəvəsinə həzin-həzin o zaman:
– Demək, köçüb dünyamızdan getdi yenə bir insan.
Vay o kəsə, asimandan çəkiləndə ülkəri,
Yer üzündə yaşamayır nə işi, nə əsəri,

1944

ARZU

Mən istərəm şerimin təravəti duyulsun
Bağçaların, bağların çiçəyində, gülündə.

Mən istərəm sezilsin cəh-cəhim bahar çağı
Sevdalı bülbüllərin vəsətində, zilində.

Gəlsin əksi-sədası yazdığım nəğmələrin
Vətənin bu çağlayan gur çayında, selində.

Gecələr çıraq kimi alışsın misralarım
Kolxozçu qardaşımın aynabənd mənzilində.

Əks eləyim eşqini mehriban insanların
Sədəfli rübabımın könül açan telində.

Xatırlasın gələcək nəsillər məni daim
Xəzərin bu çıraqban, sevdalı sahilində.

Bir iftixar duyaraq, bəxtəvər dünyamızdan
Bu şövq ilə yazıram Azərbaycan dilində.

1944

SEVGİLİM

Bu dünyada sevməyənlər ölüdür,
Çox şirindir əhdi-peyman sevgilim!
Eşq insanın həyatının gülüdür,
Ətir saçar zaman-zaman, sevgilim!

Mən uğrunda vuruşlara girmişəm,
Çox dəhşətlər, çox tufanlar görmüşəm,
Eşqim üçün imtahanlar vermişəm,
Söyləmişəm keçər hicran, sevgilim!

Tərlanıyam ətir saçan düzlərin,
Aşiqiyəm təravətli sözlərin,
Xatirimdən çıxmaz qara gözlərin,
Şirin cana canım qurban, sevgilim.

1944

AĞACLARIN ŞİKAYƏTİ

Mən dolanıb yorğun-arğın
Seyr etdiyim yaşıl bağdır;
Vətən mülkü, Vətən yurdu
Yaralanmış bir torpaqdır.
Mərmi vurub ağacları
Böyrü üstə yıxmış yana;
Şax budaqlar yerə sarı
Əyilmişdir yana-yana.
Bir ağacın böyründə var
Xeyli yekə bir çarpara;
Vahiməli ağır toplar
Budaqlara vurmuş yara.
Şaxlar görüb qiyaməti,
Lakin yenə yarpaq verib;
Bağa həyat əlaməti
Mehribanım, torpaq verib
Gəz aləmi qarış-qarış,
Nəzər yetir qədəm-qədəm,
Dünya qərar tutan gündən
Pəncələşir həyat, ədəm.
Budur, baxın, seyrə varın
Bağın viran bir halı var.
Lakin sınıq ağacların
Budağında albalı var.
Daldım yaşıl budaqlara,
İpək ruhlu yarpaqlara;
Süzdüm bağrı yarıq-yarıq
Bar gətirən albalını,
Açdı mənə dərdli ağac

Viran bağın mələlını:
"Köçdü həmdəm, dost yoxaldı,
Nə bir yoldaş, nə yar qalıb;
Dünənki şad bir eyvandan
Bu gün uçuq divar qalıb;
Bir zamanlar bu eyvanda
Quşlar yuva qurardılar;
Ətrafında göyərçinlər
Uçub dövrə vurardılar.
Sarı saçlı bir gözəl də
Sığal verib tellərinə,
Vurulmuşdu gənc yaşında
Eşqin əlvan güllərinə.
Üç il var ki, bu yerlərdən
O dildarı qopardılar;
Saçlarından sürükləyib
Uzaqlara apardılar...
Cəsur oğlan, igid əsgər,
Qayıtmasa o qız geri,
İnsan deyil, quşlar belə
Tərk eyləyər bu yerləri;
Qayıtmasa o qız ilə
Aydan-aya, ildən-ilə
Bu gördüyün bağ solacaq
Çarparalar qurutmayan
Barlı bağlar xar olacaq..."
Ürəyimə dağlar çəkdi
Yaşıl bağın fəlakəti;
Alışdırdı varlığımı
Ağacların şikayəti.
Tez götürüb yarağımı,
Asta basıb ayağımı
Yerin dərdli sinəsinə,
Ağacların qəm səsinə
Tab etməyib, tərk elədim
Sığındığım sərin yeri.
İndi uzaq ölkələri
Dolanıram əldə yaraq,

Səhər-axşam edib soraq
Axtarıram o dilbəri.
Əsirələr dönür geri,
Yollar boyu gördükcə mən,
Yurda dönən dəstələrdən
Soruşuram o afəti.
Məni rahat buraxmayır
Ağacların şikayəti.

1944

QARA DAŞIN HƏSRƏTİ

Bir qara daş vardı yol qırağında
İlin qış çağında, bahar çağında
Onu gah döyərdi acı küləklər,
Açardı yanında gah da çiçəklər.
Nə dərdi, həsrəti, nə qəmi vardı,
Olduqca sadə bir görkəmi vardı...
Günlərin birində bir varlı tacir,
Əzəmətli, cavan, vüqarlı tacir,
Bu yol kənarından edirdi səfər;
Lökləyib gedirdi ağır dəvələr.
Bir dəvənin yükü çökürdü yana,
Əziyyət verirdi çuval heyvana.
Sağ tərəf ağırdı solundan bir az,
Sariban tayları etməkçün taraz
Yolun üstündəki bu daşı aldı,
Tez yüngül çuvalın gözünə saldı.
Qara daş beləcə gözləri yaşlı,
Ürəyi qüssəli, qəlbi təlaşlı,
Günlərlə yol gedib düşdü uzağa,
Görüb bilmədiyi özgə torpağa.
Orda ki, dəvələr qərar tutdular,
Yenə qara daşı yerə atdılar.
Tutuldu varlığı dərdə, möhnətə,
Qan ağlar, düşərsə hər kim qürbətə...
O zamandan keçir həftələr, aylar...

Dolur, həm boşalır karvansaraylar.
Təbiət gəlin tək əlvan geyəndə,
Quşlar Şura gəlib nəğmə deyəndə,
Qalxıb çıxır yola yüklü dəvələr,
Lakin qara daşa salmayır nəzər,
Etina etməyir heç bir sariban;
Yazıq qara daşın bağrı laxta qan,
Qəlbində yurduna dərin məhəbbət,
Baxır uzaqlara hey həsrət-həsrət;
Baxır hər səfərə gedən karvana,
Düşünür qara daş gəlib həycana:
– Görəsən kim yenə alacaq məni,
Doğma torpağıma salacaq məni?

O MƏNİM YANIMDADIR

Bu il biz ayrı düşdük, yar məndən uzaqdadır
Bəlkə gözəl Bakıda, bəlkə Qarabağdadır?!
Bəlkə cəbhələrdədir, vuruşur aslan kimi?
Hayandadır, bilmirəm; onu bir canan kimi,
Mehriban dildar təki arzulayır ürəyim,
Onun həsrətindədir arzum, hissim, diləyim.
Lakin bu gün uzaqdır məndən eşqin firqəti,
Özüm də bilməyirəm nədir bunun illəti?!
Nəyə dalsam, eyləsəm hansı bir səmtə güzər.
Gözlərimdə canlanır yalnız o nazlı dilbər.
O qız çeşmə üstünə bu gün gəlib olmaya?
İncə gülüşü sinmiş çağlayıb axan suya?
Bu ötən quşun səsi bəlkə onun səsidir,
Səbanın təravəti yarımın nəfəsidir?
Bunlar həqiqətmidir, yoxsa şirin xəyaldır?
Yoxsa məni aldadan şairanə bir haldır?
Bilməyirəm, nədənsə sevinirəm ürəkdən,
Gözəl yarı yanımda hiss edirəm bu gün mən,
Deyirəm: "Nazlı canan könül eyvanımdadır,
Yar məndən uzaq deyil, o mənim yanımdadır".

Təbriz, 1944

BÜLBÜL VƏ ŞAİR

Qəlbimdə qövr etdi yarın həsrəti,
Deyib-danışmağı, şirin söhbəti.
Onun xəyalilə gəzdim çölləri,
Baxıb seyr elədim əlvan gülləri.
Nərgiz çəmənzarda yenə xumardı,
Gözlərində yarın baxışı vardı.
Lalə bənzəyirdi qız yanağına,
Qərənfil alışan yar dodağına.
Məni cəzb elədi suyun şiddəti,
Göründü çeşmədə yarın surəti.
Elə bil gülüşü nazlı dildarın
Qoynuna sinmişdi büllur suların.
Qayıtdım, evimə gəlim dübara,
Rast gəldim budaqda bülbüli-zara,
O, məni görüncə susdu, dayandı,
Qəlbimdə qəribə şübhə oyandı.
Dil açdım bülbülə, o şeyda quşa,
Dedim ki, sənlə ötmüşəm qoşa.
Nə üçün uzaqdan görüncə məni,
Dönüb qara daşa kəsdin nəğməni?
Bülbül cavab verdi bir insan kimi,
Köksünün dəryası çağlayan kimi.
Dedi: "Ruhlandırır hər bahar çağı
Məni bir ətirli gülün yanağı.
Qonuram səfalı, yaşıl budağa,
Ötürəm ruh verib fərəhlə bağa.
Şairlərsə mənə böhtan deyirlər,
Uydurub nəğməmə fəğan deyirlər.
Özləri hicrlə gəlir fəğana,
Bizi eləyirlər ancaq bəhana.
Mən də söz vermişəm özümə bağda
Şair görən kimi susum budaqda".
Dinlədim bülbülü məhəbbətlə mən
O, şəkər saçanda şirin dilindən,
Sonra da söylədim: "A sarı bülbül,
Nəğməsi könlümün dildarı bülbül!

Sən oxu bağçada xoş avaz ilə,
Mən ötüm dünyada saz və söz ilə.
Sən oxu sevginin rəvayətindən,
Mən yazım insanın səadətindən.
Sən dediyin şair bir özgəsidir;
Onun səsası da qarğa səsidir".
Sözüm əsər etdi şeyda bülbülə,
Eşq elan elədi ətirli gülə.
Mən onu dinləyib yola düzəldim,
Qəlbim fərəh dolu evimə gəldim.

Təbriz, 1944

MƏN NƏ GƏTİRMİŞƏM

Bizim bu ellərdə gözəl qayda var:
Qardaş qardaşına sovqat aparar.
Mən də bu torpağın sənətkarıyam,
Azad bir ölkənin havadarıyam.
Onun adətinə var məhəbbətim,
Vüqarım, fərəhim, hissim, hörmətim
Qurbanı olduğum bu ellərindir!
Ellərin kamalı göydən dərindir.
Mən onun yolunda doluram yaşa,
Günəş varlığıma edir tamaşa.
İlhamlar alıram el adətindən,
Onun qürurundan, səadətindən
Ruhlanıb oxuyan azad bir quşam,
Özümə sevimli yuva qurmuşam.
Xaqaninin əziz ruhu məndədir,
Babamın türbəsi bu çəməndədir.
Burda qardaşım var, əziz bacım var
Bacıya, qardaşa ehtiyacım var.
Mən bu gün gəlmişəm onun yanına,
O məni qaldırır öz eyvanına,
Açır qapısını xoş camal ilə,
Girirəm içəri mən kamal ilə.

Təbriz, əziz diyar, möhtəşəm diyar!
Sənə dərya qədər məhəbbətim var.
Boş əllə qapından demə, girmişəm.
Soruşan olsa ki, nə gətirmişəm?
Söylə: ilham alıb el adətindən,
Məhəbbət, sədaqət gətirmişəm mən.

Təbriz, 1944

AZADLIQ EŞQİLƏ ALIŞIB YANAR

Dünən dost bağına etdim güzər mən,
Bir gözəl səhnəyə saldım nəzər mən.
Orda əsməyirdi tozlu küləklər,
Səf-səf açılmışdı güllər, çiçəklər.
Saçdıqca ətrini hər səfalı gül,
Ötürdü şaxlarda sevdalı bülbül.
Həmin bağ içində sürətlə qoşa
Gəzən kəklik gördüm, edib tamaşa,
Həsrətlə göylərə boylanırdılar,
Uça bilmirdilər, odlanırdılar.
Şama dəyib yanan pərvanə kimi,
Baxırdılar dəli-divanə kimi.
Öyrəndim onların mən qubarını,
O yazıq quşların qanadlarını
Duydum kəsmişdilər, bağrım qanadı;
Kəsilərsə uçan quşun qanadı
Dünya gözlərində bir zindan olar,
Fikri, düşüncəsi asiman olar.
Düşündürdü məni bu yanıqlı hal,
Bir ağac altında eylədim xəyal.
Yazıq insanlara qəlbən inlədim:
Bəşərin halı da belədir, dedim;
Üz verəndə ağır əsarət ona,
Hələ gülməyəndə səadət ona,
Qanadsız quş kimi daim boylanar,
Azadlıq eşqilə alışıb yanar.

QARĞA VƏ GÖYƏRÇİN

Bir səhər nə gördüm: qonub budağa
Qarğa qarıldayır, səs salır bağa.
Deyir göyərçinə: "Seyr et bülbülü!
Qızıldan qəfəsdə vəsf edir gülü.
O, nə su axtarır, nə dən axtarır,
Nə sığınmaq üçün vətən axtarır.
Nə uşaqlar sökür aşiyanını,
Nə ovçu axıdır qızıl qanını.
Ona insan oğlu şirin qənd verir,
Mehriban-mehriban hər gün dindirir.
Gəl uçub, evlərdə girək qəfəsə.
Biz də bülbül kimi verək səs-səsə".
Göyərçin səslənib dedi qarğaya:
"Əqlin, fərasətin getmişdir zaya,
Qeyd ilə yaşamaq bir quru səsdir,
Qızıldan olsa da qəfəs qəfəsdir!
Get sən onda yaşa həyatın boyu,
Çalada tapdığım bulanıq suyu
Dəyişib vermərəm şəkərə, qəndə;
Azad yaranmışam yaşıl çəməndə,
Qəfəslər küncündə nəfəs almaram,
Mən öz həyatımı qeydə salmaram".
Uçub geniş göydə qanad çalınca,
Baxdı ala qarğa onun dalınca.
Dedi: "Get, hərcayi ömür sür, yaşa,
Sən öz xeyirini düşməzsən başa".
Lakin qəfəsdəki o sarı bülbül,
Ətirli qönçənin dildarı bülbül,
Baxdı göyərçinə, lacivərd göyə,
"Əzizim, nə qədər xoşbəxtsən!" deyə.
Azadlıq həsrəti bağrını dəldi,
Doğrandı, ney kimi nəvayə gəldi.

Təbriz, 1944

SAZIMIN YERİNDƏN AS YARAĞIMI

Başına döndüyüm qaragöz pəri,
İpək paltarını gətir gəl bəri!
Çıxar əynindəki tozlu şineli,
Qoy kəmər sıxmasın o incə beli.
Mənim də sazımı götür divardan,
Dil açsın xallarım vəfalı yardan.
Olsun qismətimiz əbədi vüsal,
Bu cəbhə dostumu – tüfəngimi al!
Al dedim, muzeyə vermə, sevgilim,
Onu səliqəylə bük yenə saxla,
Divardan asmadan silahı yağla.
Belədir quruluş, belədir həyat;
İgidin altında bir yəhərli at,
Çiynində bir silah, bir saz olmalı;
Hər işi yerində taraz olmalı.
Başına döndüyüm qara gözlü yar!
Getdi möhnət dolu həsrətli çağlar.
Çıxar əynindəki tozlu şineli,
Qoy kəmər sıxmasın o incə beli.
Box şinel sadədir, deyilsə tirmə,
Saxla ehtiyatla, muzeyə vermə,
Mənim də qoruyub o, novrağımı,
Sazımın yerindən as yarağımı!

QƏLƏBƏ GÜNÜ

A dostlar, aşnalar gözünüz aydın
Oldu nəsibimiz səadət camı.
Qurulsun toy, mağar ellər boyunca
Coşsun bəstəkarın dərya ilhamı!
Gəldi gözlənilən zəfər bayramı.

Öldü yuvasında vəhşət əjdəri,
Kədər tərk eləyir doğduğum yeri;
Ağ günlər qayıdır sevinclə geri
Öldü quldurbaşı, öldü haramı,
Gəldi gözlənilən zəfər bayramı.

Hanı o qotazlı, sədəfli sazım,
Gülür əbədiyyət baharım-yazım,
Süzür üfüqlərdə ilham şahbazım,
O səslənib deyir: – sevinsin hamı!
Gəldi gözlənilən zəfər bayramı.

Var olsun rəşadət, hünər var olsun,
Üfüqdə parlayan səhər var olsun,
Atamız-dostumuz rəhbər var olsun,
Var olsun Vətənin gözəl əyyamı!
Gəldi gözlənilən zəfər bayramı.

9 may 1945

İLK ŞİKAR

Ovçunun dəftərindən

Dan yeri sökməmiş çıxıb ovlağa,
Zağlı tüfəngimi çəkib ayağa
Özümü kolların içinə vurdum,
Saatlar uzunu mərıqda durdum.
Nəhayət, rast gəlib bir şux ceyrana,
Atıb sinəsini batırdım qana.
O sıçrayıb göyə, uçuldu yerə;
Yüyürdüm yanına mən birdən-birə.
Solğun nəzərlərlə o məni süzdü,
Dərdli baxışlarla qəlbimi üzdü.
Gəldi xatirimə keçən həyatım,
Öz gənclik aləmim, öz kainatım.

Mənim də qəlbimi bir zaman belə
Bir gözəl ovladı nəzərləriylə.
Mən də o gün həmin bu ceyran kimi
Baxdım həsrət-həsrət nigaran kimi.
Sinəmdə yer salıb o gündən bəri
Amansız ovçunun yara izləri.

SƏYYADA DÖNDÜN

Ovçunun dəftərindən

Mən turac gəzirəm kollar içində,
O, bu dəm dənləyir yollar içində;
Girirəm dalınca bir ucqar bağa,
O səkir arxayın yaşıl otlağa.
Mən nəzər salıram yerə, havaya,
O qanad çalmadan girir yuvaya.
Mən ondan əl üzüb dönəndə geri,
Götürür başına səsi çölləri...
Demə ki, bir onun inadı vardır,
Bərli-bəzəklidir, qanadı vardır.
Yox, yox... O quşla var nisbətin sənin,
Onun xislətidir xislətin sənin!
Gəzdim həsrətinlə mən hilal kimi,
Sən nurlu gecəmdə bir duman oldun.
Dolandım izində mən xəyal kimi,
Sən gedib özgəyə mehriban oldun.
Mən səni hər zaman dost kimi andım,
Nədən, bilməyirəm, sən yada döndün?
Mən səni ömrümün şikarı sandım,
Sən yolum üstündə səyyada döndün.

XAQANİ

Yaxın dostum kimi sevinc yanımda,
Sakit oturmuşdum öz eyvanımda
Nazlı bir qız kimi göylər qəşəngdi,
Dilbər yanaqları xoş, lələrəngdi.
Mən onun hüsnünü seyr edən zaman,
Bir mehriban qoca, nurani insan
Gördüm, nəzakətlə evimə girdi,
Mübarək qədəmi səfa gətirdi.
Dedim: "Bağışlayın məni, kimsiniz?"
Dedi: "Səhv etməsəm tanışıq ki, biz!
Özün hörmət edib istedadıma
Əsər yazmadınmı mənim adıma?"
Dedim: "Xoş gəlmisən, əziz Xaqani,
Nə şərəfli görüş, Nizami hanı?
Buyurun oturun, haradan belə?"
Gəldi şirinzəban o bülbül dilə,
Söylədi: "Yaşımın bu ötkün çağı
Sındırdı qəlbimi İran torpağı;
Dedilər: olsan da böyük sənətkar
Odlar ölkəsinə təəllüqün var.
Fəxri, şöhrətisən Azərbaycanın,
Şirvan torpağının qanıdır qanın...
Yetər ingilisə yerini tərk et!
Sənə biganədir bizim məmləkət;
Hörmət eləmədin bir şahənşaha,
Məzarın döndüsə ziyarətgaha,
Onu biz etmədik, təbrizli etdi.
Gah aşikar etdi, gah gizli etdi..."
Ağır bir ah çəkdi şair dərindən:
"Adımı sildilər küçələrindən..."
Deyincə, söylədim: "Qoy olsun, nə qəm,
Sənin şöhrətinlə fəxr edir aləm.
İndi ki, belədir, onda bəs niyə
Bakıda yer verək biz Firdovsiyə?"
Dedi: "Onlar kimi etsən hərəkət,

Səndən inciyəcək həqiqi sənət.
Ömründə gülmədi Firdovsi bir an,
O böyük şairə nə verdi İran?
Şeir bağçasından çiçək dərdilər,
O şərbət istədi, ağu verdilər!
Əziz qonaq kimi saxla sən onu,
Şeir dünyasının qadir oğlunu.
Yaradan insana sən ehtiram et!
Cahillər eləməz şairə hörmət".
Dedim ki: "Baş üstə, sən deyən olsun.
Sözə qiymət verən bu vətən olsun.
Odlar ölkəsində vardır qiymətin.
Müqəddəs sayılır çoxdan türbətin.
Bakıda ucalar məğrur abidən,
Bu iftixar ilə ömür elə sən..."
O mənə ürəkdən razılıq etdi,
Vətən torpağını öpməyə getdi.
Onun dalısınca baxdıqca baxdım,
Fərəhimdən uçub göylərə qalxdım.
Gördüm üfüqlərdə bir qartal süzür,
O qanad çalmayır dalbadal, süzür...
Bir bala şahin də vardı yanında,
Şair bu səhnədən baxdım halıydı,
Vətənin buludsuz asimanında
Süzən bəlkə onun öz xəyalıydı...

HƏR ŞEY BAQİDİR

Deyirlər: baqidir hər şey cahandan,
Qayıdır aləmə dünyadan köçən.
Buludlar ki, gəzir göy asimanda
Çox onu görmüsən bir çay kimi sən.

Dəyişir hər zərrə öz surətini,
Bu günkü bir tikan sabah lalədir.
Dünyanın dansan da bu hikmətini,
Bu gün yaxan alov, sabah jalədir.

Demək, xəzəl olsan bir yarpaq kimi,
Dönərsən ağ daşa, gövhər olarsan.
Sənin dayağın var bu torpaq kimi,
Baharda bir şirin bəhər olarsan.

Gül kimi açarsan, qoparar əllər
Taxar öz döşünə səni gözəllər.
Nazənin qızları oxşarsan o dəm,
Deməli, yaşarsan durduqca aləm!

Mən də köçsəm əgər bir səhər çağı,
Yenə gəzəcəyəm ana torpağı.
Verərəm bülbülə o gün yerimi,
Nəğməsi eylərəm şeirlərimi.

Quşlar oxuyanda gül budağında
Dinləyər insanlar öz otağında.
Bu dünya durduqca, deməli, sağam,
Mən yenə ömr edib yaşayacağam!

1947

PƏRVANƏ VƏ ŞAM

Bizim qoca dünyanı dolaşır bu əfsanə;
Şam gözəldən gözəl qız, oğlan imiş pərvanə.
Aşiqləri mat qoyan qızın camalı varmış,
Eşqə düşən gözləri şölə çəkib yanarmış.
Bir gün şam pərvanəyə deyir: "Dildar, yaxın gəl!
Sənə xəlvət deməli sözlərim var, yaxın gəl!"
Pərvanə ehtiramla yaxınlaşır yarına,
Yetişmək istəyərkən ömrünün baharına
Birdən od tutub yanır, eşqinə qurban gedir,
Bir yerindən vurulur, min yerindən qan gedir.
Qız görür itirəcək sevimli dildarını,
O, söndürmək istəyir göz yaşilə yarını,

Ağlayır, gözlərindən yaş gəlir gilə-gilə,
Həlak olur Pərvanə, gəlmədən əsla dilə...
Şam o gündən sızlayır öz nakam aşiqinə,
İnci göz yaşlarının o gündən işığına
Pərvanələr yığılır. Qızı təskin edirlər,
Onlar da alovlanıb eşqə qurban gedirlər.
Şam ağlayır, alışır, bunu bilməyir ancaq,
O, ağladıqca hələ, çox pərvanə yanacaq.

1947

MƏNİMDİR

Mənimdir bu qızıl sünbüllü düzlər,
Mənimdir bulaqlar, göllər, dənizlər.
Vətən göylərində tərlan deyil o,
Könlüm qanadlanıb yurdunu gözlər.

Başı ağ cunalı dağlar mənimdir,
Bu şirin meyvəli bağlar mənimdir,

Mənimdir azadlıq, bir də səadət,
Mən ağ gün sürməyə etmişəm adət;
Mənim varlığımdan gözəl fəsillər
Dolanıb keçdikcə alır təravət.

Bu şərəf, bu izzət, bu şan mənimdir,
Bu şanlı, şövkətli dövran mənimdir!

Mən öz Vətənimdə, özüməm ağa,
Qəlbimi vermişəm qızıl bayrağa;
Yeri mən əkirəm, biçən də mənəm,
Sahibkar özüməm varlı torpağa.

İnci özümündür, gövhər mənimdir,
Bu fəcri al geyən səhər mənimdir!

Vermərəm cənnətə odlar yurdunu,
Mən əzəl yaşımdan sevmişəm onu.
Kim baxarsa ona kəc, bir gün belə
Şərəfsiz olacaq ömrünün sonu.

Tükənmək bilməyən qüvvət mənimdir,
Dünya məclisində hörmət mənimdir!

Mənim Vətənimdə insan azaddır,
Söz azad, saz azad, vicdan azaddır.
Gedirəm vüqarla əbədiyyətə,
Qurduğum bəxtəvər dövran azaddır.

Bu qanun, bu hüquq, bu haqq mənimdir,
Yellənən o qızıl bayraq mənimdir!

Görünən dağ deyil, öz vüqarımdır,
Çaylar sevincimdir, arzularımdır.
Asayiş deyilən o gözəl pəri
Aşiqi olduğum ilk dildarımdır.

Mənimdir o gözəl, o yar mənimdir,
Əhdi-peyman mənim, iqrar mənimdir!

Qismətim sevgidir, şirin diləkdir,
Vətənim hər fəsil güldür, çiçəkdir,
Ömrümü verdiyim qoca dünyada
Yaratmaq, yaşatmaq, gözəl əməkdir.

Bu gülzar, bu gözəl gülşən mənimdir,
Bu odlar diyarı vətən mənimdir!

Mən şərəf sayıram azad zəhməti.
Yurdumun tükənməz varı, dövləti;
Qoymadım, qoymaram düşmən aparsın
Vətən mülkündəki sonsuz nemətı.

Bu dövlət, bu sərvət, bu var mənimdir,
Gələcək mənimdir, bahar mənimdir!

Çiçəklən ey gözəl Azərbaycanım!
Bakı, sənsən mənim şövkətim, şanım,
Düşdüm ağızlara dünya boyunca
Qanımla yazdığım zəfər dastanım.

Ay mənim, gün mənim, ülkər mənimdir,
Gələcək mənimdir, zəfər mənimdir!

1947

ARAZIN ŞİKAYƏTİ

Arazla bu səhər gəldim üz-üzə
Axıb gedən zaman yaşıl bir düzə.
Dedi: "Şairlərdən şikayətim var.
Mənim çox qəribə hekayətim var".
Dedim ki: "Nə olub?" Qövr etdi dərdi,
Dedi: – El bir zaman mənə deyərdi:
"Arazım, Arazım, axan Arazım!
Sinəsi yadlara qalxan Arazım,
Çağla ki, sən mənim öz vüqarımsan,
Sevincim, fərəhim, iftixarımsan!"
Dedim ki: "Elədir".
Dedi: "Bəs niyə,
Məni yazırsınız insafsız deyə?
Bir zaman tufanlar keçdi başından,
Ayırdılar səni öz qardaşından.
Mənmi səbəbkaram?!"
Dedim: "Yox, Araz!"
Dedi: "Vətən mülki keçirəndə yaz,
Həsrət bilməyəndə Gəncə, Marağa,
Ellər düşməyəndə dərdə, fərağa,
Mən elə axırdım bu qərar ilə,
Şərəflə, izzətlə, iftixar ilə.
Əsrlər dolandı sakit, tufanlı.
Sürdü öz atını çox dəliqanlı;
Ahını vətənin duydum dərindən.

Yol verdim köksümdə Xudafərindən;
Ellərin dərdinə könül bağladım,
Sənlə bir gülüb, birgə ağladım.
Demə ki, bir suyam, üreksiz çayam;
Mən ki, başdan-başa ruham, sevdayam
Az mənə açmayıb sirrini insan,
Gizli saxlamışam onu yaşımdan.
Ayrılıq ortaya düşəndən bəri
Gəzib dolandıqca doğma elləri,
Mən də odlanmışam, mən də yanmışam
Köpürüb axmışam, dalğalanmışam".
Dedim ki: "Elədir".
Dedi: "Bəs onda,
Sənsə bir qələm çal haqqın yolunda.
De, yetər şairlər hey qana-qana
İllərdir ki, məni salır böhtana.
Məgər mənmi dedim, zülmkar yağı,
Qanlara qərq elə get Qarabağı.
Məgər mənmi dedim şahi-İrana
Tiflisi yandırıb elə virana,
Məgər mənmi dedim Rza şaha: dur,
Azəri yurduna sən də qan uddur.
Məgər mənmi dedim vəliəhdə: gəl,
Odlar ölkəsinə sən də ol ənqəl.
Mənmi istəmirəm yollar açılsın,
Zəncirli, kündəli qollar açılsın.
Birləşsin Qaradağ Qarabağ ilə,
Yenə ömür sürsün xoş növraq ilə.
Şaxtaxtı mehriban Əhərə çatsın.
Şəhərlər qovuşub şəhərə çatsın.
Alimlər Şirvandan Təbrizə gəlsin,
Böyük sənətkarlar üz üzə gəlsin;
Qatara minəndə ellər Makudan,
Səhər xəbər versin qızıl Bakıdan.
Məgər anaları ağlar görəndə,
Sinələrdə çarpaz dağlar görəndə,
Mən axıb həsrətlə inləmədimmi?
Gizli, zaman-zaman dinləmədimmi

Dehqan qardaşının ürək sözünü?
Nə olur, bir kərə dindir özünü.
Nə zaman su dedi, o yana axdım;
Əlinə bel aldın, bostana axdım.
Suyumdan canlandı bağça-bağ mənim.
Səyim, himmətimlə bu torpaq mənim
Çevrildi səfalı yaşıl cənnətə".
Dedim ki: "Elədir".
Gəldi hiddətə:
"Elədirsə, nədən bəs qana-qana,
Şairlər salırlar məni böhtana!
Qalır bir tərəfdə zülmkar, yağı,
Deyirlər sən böldün ana torpağı".
Dedim ki: "Doğrudur",
O axdı, getdi.
Qəlbimdə yanğılar buraxdı, getdi.
Xəyala qərq etdi bu halət məni,
Öldürdü, doğrusu, xəcalət məni.
Ayrıldığım zaman kədərli çaydan,
Gördüm ki, qardaşım baxır o taydan
O yenə sadiqdir öz adətinə,
Gedir şəhidlərin ziyarətinə.
Dalğın, ağır-ağır o yönəlincə
Çəkib karvanını axşam gəlincə,
Ulduzlar göylərdə alışdı, yandı,
Sanmayın o yanan bir kəhkəşandı,
Bunu qan qardaşım bilir hər zaman,
Mənim ürəyimdir üstündə yanan.

ƏTİR

Yaşıl bir yamacda ilham alırdım,
Hüsnünə xilqətin nəzər salırdım,
Birdən ayaq tutdu meh narın-narın,
Başladı nəğməsi yaşıllıqların.
Bürüdü rayihə bütün aləmi;
Dedim: "Ətir saçan dağda laləmi?

Onun ki, çəməndə tək rəngi aldır?
Huşdan eləməyi əmri-mahaldır!
Olmaya nərgizdir məni məst edən,
Qıyıb şirin cana, ömrə qəsd edən?
Gözəl nərgizin də bir hüsnü vardır;
Şəhla baxışları xumar-xumardır.
Bəs bu reyhanmıdır, qərənfilmidir?
Süsənbər, yoxsa ki, qızıl gülmüdür?" –
Qərara gəldim ki, yaxından baxım,
Öz əlimlə dərim, döşümə taxım.
Yönəlib nə gördüm: yayıb ətrini,
Gülgün camalına salıb çətrini,
Mənim öz dildarım, öz yarım gəlir,
Səbrim, təhəmmülüm, qərarım gəlir.

1948

SƏNƏTKAR ÖLMƏZ

Sabahın nikahı açılan zaman
Yumdu gözlərini gözəl bir insan.
Daha vurmayacaq bu gündən, demək
Sənətin eşqilə çarpan bir ürək...
Onun əsərində axan bulaqlar,
Sünbüllü tarlalar, meyvəli bağlar,
Səadət, azadlıq, rəşadət, hünər,
Bunlarla fəxr edən bəxtiyar bəşər
Baharla oturdu, baharla durdu.
Şərəflə, fərəhlə, vüqarla durdu
Bu günün, səhərin azad insanı,
Danışdı sənətin təmiz vicdanı...
Sabahın nikahı açılan zaman
Yumdusa gözünü gözəl bir insan
Ona yoxdur ölüm, ölən bədəndir,
Ölüm düha üçün əfsanədəndir!
Yox, sənətkar ölməz, yaradan ölməz,

Xalqın sevimlisi heç zaman ölməz!
O verdi ömrünü gözəl sənətə,
Qovuşdu eşq ilə əbədiyyətə.
Onu el qəlbində daşıyacaqdır,
Yaşamış, hər zaman yaşıyacaqdır!
Leylinin, Məcnunun ülvi eşqindən
Əsər yaradana, nə cürətlə mən
Öldü söyləyirəm, bu olan deyil!
Yox, ölən o böyük yaradan deyil!
Ellər dinlədikcə "Koroğlu"sunu,
Hər zaman yanında görəcək onu.
Gələndə evlərdən musiqi səsi,
Onun duyulacaq ilıq nəfəsi.
Yox, mən gələcəyi gözəl görürəm,
Bakının qoynunda heykəl görürəm.
Ah, onun nə canlı baxışları var,
Üzeyirdir haman böyük bəstəkar.
Ölməmiş, heç zaman sənətkar ölməz,
Xalqın sevimlisi bəstəkar ölməz!
Xalqım bu dünyada nə qədər sağdır,
Bizim Üzeyir də yaşayacaqdır.

TƏPƏ

Çıxıb otsuz bir təpənin
Dostlarımla üzərinə.
Nəzər saldım ana yurdun
Məhəbbətlə hər yerinə.

Ah, nə gözəl mənzərədir:
Sağım meşə, solum Bozdağ!
Qabağımda coşub gedir,
Əzəmətli Kür qalxaraq.

Təbiətlə bu yer, dedim,
Bir də tanış etdi məni.
Vəsf eləyim bir şeirlə
Dayandığım bu təpəni.

Seyr eləyib yola düşdüm
Əzəmətli iş yerinə.
Bir səs mənə: "Alqış, – dedi, –
İnsanların hünərinə..."

On gün ötdü, yada düşdü
Dırmandığım gözəl təpə.
Getdim onun torpağını
Xəyalımda öpə-öpə.

Gəlib gördüm təpə yoxdur,
Çox qəribə mənzərədir!
Təpə yoxdur, qabağımda
İndi ancaq gen dərədir.

Dedim mən ki, azmamışam,
İtirmədim heç o yeri.
Bu dəm gəldi xatirimə
Kainatın şah əsəri.

İnsan oğlu, gecələri
O, hünərlə gündüz edir.
Şəhər salır, boz dağları
Qüdrətilə dümdüz edir.

Bürüyərkən düzəngahı
Maşınların qadir səsi.
Dedim: İnsan qüdrətinin
Qoy var olsun təntənəsi!

1948

YOLDA

Yoxuşlardan qalxır duman,
Yeriyirik arasından.
Düzənlərdə şölə saçıb,
Qarşılayır günəş bizi.
İlk baharla yaşıl çəmən
Salamlayır ömrümüzü.
Yamaclardan ətir yayıb
Sən baxırsan yola, nərgiz!
Eşqim kimi təravətli
Bala nərgiz, bala nərgiz!
Nə var, min bir maraq ilə
Göz dikirsən uzaqlara?
O fermanın binəsidir,
Qonaq düşüb yaylaqlara.
Aşıqların xoşladığı
Dağlardakı sarı nərgiz!
Çəmənzara gəlir çoban,
Güloğlanın yarı Nərgiz.
Səhər-səhər yayıb düzə
Körpə, əmlik quzuları,
Şerim kimi təravətli
Çiçəklənib arzuları,
Əldə kitab gəlir yenə,
Elmə böyük hörməti var,
Onun azad bir sevdası,
Dövləti var, sərvəti var.
İlk baharda alqışlayır
O nəğməylə təbiəti.
Mən görürəm o dilbərin
Kamalında şeriyyəti.
Səndən artıq xoşbəxt olan
Güloğlanın öz yarıdır,
Əsl bahar o Nərgizin
Həyatının baharıdır!

GÜL DƏSTƏSİ

Qara gözlü, qara qaşlı,
Şirin dilli, gözəl pəri!
Uzaqlardan gətirmişəm
Ətir saçan bu gülləri.

Qar altından qaldıraraq
Bənövşələr öz başını,
Gəldi mənim eyvanıma
Salamlasın yoldaşını.

Nərgiz vida etdi səhər
Yaşıl Şirvan düzlərinə,
O gəldi ki, bir də baxsın
Gülümsəyən gözlərinə.

İlk bahardan təravətli
Sən, ey ömrü bahar, gözəl!
Gülür eşqin, səadətin,
Gülür həyat, gülür əməl.

Mingəçevir təbrik üçün
Çəmənlərdən gül dəribdir.
Səadətdən, gələcəkdən
Sənə sovqat göndəribdir.

Qəbul elə, o şadlanıb
Sevinəcək, güləcəkdir.
Mingəçevir yurdumuzda.
Al şəfəqli gələcəkdir!

Al sevgilim, töhfəsini,
Bahar təbrik edir səni.
Gəl, qəbul et, özün kimi
Ətir saçan gül dəstəni.

1948

TƏRANƏ

Səhərdir çıxmışam yaşıl gülzara
Bahar mənə vurğun, mən də bahara.
Uçub könlüm quşu dolanır azad,
Nəşəyə aşina dərdü-qəmə yad.
Təsadüf eylədim çobana dağda,
Dedim: "Çağırırsan yenə bayatı?"
Dedi ki: Bülbüllər baharda, bağda
Tərənnüm eyləyər şirin həyatı.
Niyə çağırmayım, nə həsrətim var!
Bu sonsuz sürülər, sonsuz ilxılar
Varlı kolxozundur, demək mənimdir,
Azadlıq, səadət, dilək mənimdir!
İnsan həyatıdır həyatım mənim,
Qulaq as, belədir bayatım mənim:
"Tərlanım düşməyir tüləkdən bu gün,
Qollarım sınmayır biləkdən bu gün.
Günlərim süd kimi ağ keçir mənim,
Yoxdur şikayətim fələkdən bu gün".
Çoban oxuduqca əks etdi dağlar,
Məni cəzb eylədi sevdalı bağlar;
Yeridim yamyaşıl xiyaban ilə,
Gördüm bağda gəlin su verir gülə.
Dedim ki: "Ay gözəl, sahibkar hanı?"
Ədəblə göstərdi mənə bağbanı.
Yanaşdım o mahir, aqil insana,
Söylədi: "Xoş gördük, buyur eyvana!"
Dedim ki: "Çox sağ ol, bu bağ kimindir?
Bu, ucsuz-bucaqsız torpaq kimindir?"
Söylədi: "Ay oğul, xammısan məgər?"
Bağın sahibidir bağ becərənlər!
Kolxozun bağıdır, demək mənimdir.
Meyvə özümündür, çiçək mənimdir.
Ətirli bağçanı bağbanla gəzdim,
Sözləri mənalı insanla gəzdim.
Məni cəzb eylədi bir toy otağı,

Hörmətlə tərk etdim bağbanı, bağı
Gördüm ki, aləmdir, gözəl mağardır;
Məclisi dolaşan aşıq da vardır.
Gətirdikcə dilə sarı simləri,
Ömrü xatırlatdı bir al səhəri.
Deyirdi: "Sənətim, dilim azaddır,
Mənim bu savadlı elim azaddır.
Bağlayıb ilhamım torpağa məni,
Nə bəy-xan, nə koxa, nə ağa məni
Qana qərq etməyir, dövran başqadır.
İndi oxuduğum dastan başqadır..."

Sübhü bu məclisdə açdım firavan,
Səhəri yoluma olurkən rəvan
Tarlada Göygözü, Qüdrəti gördüm,
Bitib tükənməyən qüdrəti gördüm;
Şanlı yurdumuzun qəhrəmanları
Gedirdi sevimli çöllərə sarı.
Onlar deyirdilər: "Doğma Vətənə
Bol pambıq verərik biz bu il yenə.
Çünki bahar bizim, çəmən bizimdir,
Bu ucsuz-bucaqsız Vətən bizimdir!"
Yayılsın ruhuma sərinlik, deyə
Yönəldim Araza, sala minməyə.
Yanaşıb mehriban, gur çaya baxdım,
Göz dikib bu taya, o taya baxdım,
Dedim: "Müqəddəssən, ey əziz Vətən!"
Bir dəstə quş keçdi göyün üzündən,
Süzdü buludlarda durna qatarı
Geniş çölə sarı, sahilə sarı.
Onların uçuşu incə şeirdi;
Şirin nəğmələri sanki deyirdi:

"Azadlıq! Dünyanın sərvəti sənsən,
Xilqətin ən böyük nemətisənsən!"
Dolandım çox yeri, hər yana baxdım,
Torpağın ağası insana baxdım...

Qarlı Savalana nəzər salınca,
Qəm kəsdi bağrımı, döndü qılınca.
Özünə çəkdisə Maku şairi,
Qayıtdı Bakıya Bakı şairi.
Şubay buruqlara birbaş yönəldim,
Geniş mədənlərin qoynuna gəldim.
Dedim: "Buruqların sahibi hanı?"
Göstərdilər Ağa Nemətullanı.
Dedim: "Salam, usta! De görək nə var?"
Dedi: "Hər günümdə bir qərinə var.
Getdi hicran çağı, dustaqdadır qəm,
İndi, bax, mən özüm qanunverənəm.
İndi bir ağayam, mədən mənimdir,
Bu ucsuz-bucaqsız Vətən mənimdir!"

Beləcə dinlədim dağda çobanı,
Buruqda ustanı, bağda bağbanı,
Bənnanı, aşığı, ulu rəhbəri,
Süzdüm ehtişamla gələn səhəri.
Dedim: "Nədir əziz bu torpaq kimi?"
Əksi-səda duydun uca dağ kimi.
"Azadlıq, səadət, hünər sənindir
Bu ucsuz-bucaqsız öz Vətənindir!"

1948

BAKI

Xəzərin sahili,
gecə yarıdır.
Həmdəmim yurdumun insanlarıdır.
Əziz gəncliyimin doğma şəhəri
Məni cəlb eləyir axşamdan bəri.
Mümkünmü şairə baxıb dalmamaq?
Mümkünmü Bakıdan ilham almamaq?
Önümdə oynaşır xırda ləpələr,

Xəzər sahilində Xəzərəm, Xəzər...
Baxıram – göylərdə alışıb yanan,
Bakının üstündə qalxıb boylanan
Ay deyil, gün deyil, qəlbim, canımdır;
Mənim könül adlı kəhkəşanımdır.
Onu qaldırmışam, qızıl Bakıya.
Gecələr sübhədək nur saçsın deyə...
Dolanıb gəzirəm axşamdan bəri,
Baxıb seyr edirəm imarətləri.
Gör nə gözəl, incə naxışları var!
Həvəslə işləmiş, mahir sənətkar
Qəlbidir, daş deyil divarda, tağda;
Onun sevincidir hər bir otaqda.
Bəzəsin yurdumu öz əlim deyə,
Qaldırsın Bakını əməlim deyə
Quşlardan daha tez qalxıb ayağa;
Dərdi zəncirləyib salan dustağa
O neft ustasıdır: gənc Ağasəfdir.
Təbiət bir tərəf, o bir tərəfdir.
Həvəslə işləmiş, mahir sənətkar
Dinləyir quyunun nəm torpağını;
Buruğun içindən müntəzəm gələn
Qəlbinin səsidir, deməsəm də mən,
Bunu balta səsi, sanma, oxucum!
O, yerin altına eləyir hücum.
Torpağın altından gələn səsidir,
Odlu ürəyinin döyünməsidir.
Bakı! Eşidirsən daim oğlunu,
Məndən də yaxşıca duyursan onu...
Bu qız mühəndisdir, adı Gövhərdir,
Fikri, düşüncəsi aydın səhərdir.
Bakıya ruh verir onun hünəri,
Əsrin çırağını onlar yandırır,
Səadət bayrağı dalğalandırır.
Bu da çilingərdir, gedir zavoda.
O, səmənbər kimi aşiqdir oda...
Fikri, düşüncəsi yeni dəzgahdır,

Bu gün düşündüyü aydın sabahdır.
Maşınlar deyildir, tez-tez işləyən
Sən özün bilirsən, deməsəm də mən
Zamanın nəbzidir vurur müttəsil.
Bakı, gözəl Bakı, gələcək nəsil
Bəxtiyar bir həyat yaşamaq üçün
O, belə fədakar çalışır bu gün.
Bu da qəhrəmandır, aslan ürəkli,
Gedir, gen sinəsi bərli-bəzəkli.
Sözüm dan yerinin nurundan aydın,
Bakı, o zaman ki, cəbbəxanaydın,
Qoruyurdu səni bu qəhrəman da.
Övlad arxa durar ağır zamanda.
O, dostluq eləyir parlaq zəfərlə,
Qardaş yaranmışdır aydın səhərlə.

Ruhumu oxşayıb gəzir sübhədək
Nəğmələr halında coşqun bir ürək,
O sənət övladı bəstəkarındır,
Ağ günü, əbədi ilk baharındır.
Ötüb Səbayelin binalarından
Deyir, sənətimə bəzəkdir insan!
Oxşayır Bakını əsərlərilə
Onun fəxr edirəm alın tərilə;
Xəzər sahili.
Gecə yarıdır.
Həmdəmim yurdumun insanlarıdır.
Əziz gəncliyimin doğma şəhəri
Məni cəlb eləyir axşamdan bəri.
Mümkünmü şairə baxıb dalmamaq?
Mümkünmü Bakıdan ilham almamaq?
Önümdə oynaşır xırda ləpələr,
Xəzər sahilində gəzir bir Xəzər...

KÜR VƏ MONİTORÇU

Coşqun çayın qırağında
Sadə, zəhmət adamları
İşləyirlər səhər çağı,
Çalışırlar gecə yarı.

Kür oynayır köhlən kimi,
Ləngər vurur yatağında,
Ehtiramla gəlir dilə
Bir işçinin qabağında:

"Sən bilirsən sözlərinə
İtaətlə baxdığımı,
Hansı yana əmr eləsən
Tez yönəlib axdığımı.

Ancaq mənə yol verməyir
Bozdağ, azca dardır yerim.
Sığışmayır bu məcraya
Mənim oynaq ləpələrim".

İnsan oğlu ehtişamla
Cavab verdi: "Məzəli Kür,
A yurdumun, iftixarı,
Yaraşığı, gözəli Kür!

Təki məndən vüsət istə,
Mən də sənə qanad verim.
Vüsət istə, sürət istə,
Canlandırım, həyat verim.

Mən, genişlik xoşlayıram,
Torpağımın yoxdur sonu.
Başa çıxmaz nə küləklər,
Nə çağlayan çaylar onu.

Sözüm yoxdur, qoy yatağın
Arzum kimi geniş olsun;
Yol açaram, Kürüm, sənə –
Yoxuş olsun, eniş olsun.

Meydanını gen elərəm,
Gəl Bozdağa baxma, Kürüm!
Sən də göstər himmətini,
Gəl mənasız axma, Kürüm!"

Kür söylədi: "Mən razıyam!"
İnsan aldı monitoru,
"Bacarırsan, Bozdağ, – dedi, –
Gəl özünü indi qoru!"

Borulardan şığıdı su,
Daş uçuldu, dağ söküldü.
Fərəhlənib əməlindən
O qəhrəman baxdı güldü.

Şair süzdü sahildəki
Bizim sadə vətəndaşı,
Az qaldı ki, fərəhindən
Buludlara dəysin başı.

1948

İRAN BAŞDAN-BAŞA ZİNDANDIR BU GÜN

Təbriz kədərlidir, axşamdan bəri
Süzür qərib-qərib həsrətkeş qəmər.
Onun işığında gəzir şəhəri,
Fikri, düşüncəsi qara kölgələr.

İpləri sabunlu dar ağacları
Dəyir nəzərlərə xiyaban boyu.

Baxışlar vərəmli, üzlər sapsarı,
Matəmə çevrilib ellərin toyu.

Qapanıb məktəblər, kitabxanalar,
Açılıb ümumi evlər yenə də;
Saçından sürülür dərdli analar,
Həyat məhv edilir bir məngənədə.

Dolanır zindanın düz qabağında
Bir dərban adlanan vəhşi canavar.
İngilis çəkməsi var ayağında,
Gəlmiş Amerikadan geydiyi paltar.

Ona söyləmişlər: "Yaxşı qan, eşit,
Demokrat, yurduna qara ləkədir".
Partlayır döşündə bir "şirü-xurşid"
Bilməyir vətəni müstəmləkədir.

Dərban ətrafına baxır bir anlıq,
Sanki duman çökür, boğur hər yanı.
Təkcə Təbrizi yox, zülmət, qaranlıq
Boğur pəncəsində bütün İranı.

O küt nəzərlərlə baxır ətrafa,
Yazıq dustaqlara bir kəfən biçir.
Bürünüb bəxti tək qara çarşaba,
Zindanın önündən bir qadın keçir.

Bəlkə o, bir dustaq nişanlısıdır?
Bəlkə də dərbanın iranlısıdır?
Qoy deyim sözümü aydın, açıq mən:
İranın rəmzidir bu dilsiz gedən.

Təbriz kədərlidir, axşamdan bəri
Süzür qərib-qərib həsrətkeş qəmər.
Onun işığında gəzir şəhəri
Fikri, düşüncəsi qara kölgələr.

Zindan,
gənc fədai,
bir sənək sudur,
Bucaqda kif atıb qup-quru çörək;
Dərban gülümsəyib deyir: "Al, budur
Mən də öz yerimi əkim deyərək
Su, torpaq istədin, sən çəkmə zəhmət,
Al, götür, payına düşdü bu nemət".

Dustağın gözündə canlanır bu dəm
Doğma bir kainat, doğma bir aləm.
Dərban dərk eləməz, dayazdır, dayaz!
Düşünür fədai, canlanır Araz,
Baxır dustaq həzin, baxır doyunca,
Görünür gözünə sərhəd boyunca
İşıqlı binalar, gözəl binalar,
Orada bəxtəvər qan qardaşı var...

Birdən zülmət çökür yenə hər yana,
Bəlkə cinayətdən utanır qəmər.
Ağır addımlarla girir zindana
İnsan adlanılan qara kölgələr.

Aparırlar onu,
sakitdir həyət;
Pozur sükunəti yanıqlı bir ah.
Biganə deyildir cəllada vəhşət...
Dan yeri sökülüb, güləndə sabah
Artıq görünməyir qara kölgələr...
Dustaqlar sayılır, yenə bir nəfər.

Yoxdur igidlərin sıralarından,
Zindan o zindandır, dərban o dərban...
Çəkdiyim bu lövhə duyan halıdır
Zavallı, İranın öz timsalıdır.
Qərbin istəyini yaşatmaq üçün
İran başdan-başa zindandır bu gün.

1948

DƏYİRMAN

Qərib-qərib süzürsən yenə geniş səhranı,
Ətalətlə hərlənən sən, ey su dəyirmanı!
Çox zaman işlətmişəm əllərimlə çarxını,
Qışda az görməmişəm o qupquru arxını.
Sənin taleyin axan lilli suya bağlıdır.
Mənim ömrüm sevincə, xoş arzuya bağlıdır.
Sən ey yol üstündəki qərib su dəyirmanı,
Ahu-naləylə keçdi əcdadımın dövranı!
İndi başqadır insan, indi başqadır zaman,
Sən ey yol üstündəki köhnə, qərib dəyirman.
Yönəlir başqa səmtə maşınlar indi yüklə,
İşləyir dəyirmanım çünki elektriklə.
Gecələr də işıqlar bəzəyir otağımı,
Ağaclarda lampalar nurlandırır bağımı.
Yetər həmdəmim oldun, mehmanın oldum, yetər.
Üstünə gələn izdə bundan belə ot bitər.
Qəmlənmə sözlərimdən, mən qəsdinə durmaram,
Qanadını sındırıb özünü uçurmaram;
Yenə də əvvəlki tək istəyirsən dayan, dur!
Quşlarla bərabər yat, quzularla oyan, dur!
Günəş qoşun çəkəndə günorta otaqlara,
Yatar sərin kölgədə heç olmasa mal-qara.

1949

SAMUX MEŞƏSİNDƏ

Maşınlarla keçirik biz Samux meşəsindən,
Burda qulaq tutulur motorların səsindən.
Mühəndis deyir belə:
– Bir il sonra bu dərə
Çevriləcəkdir gölə,
Keçdiyimiz bu yerə
Təzə məcrasilə biz ötürən zaman Kürü,
Su altında qalacaq ağaclar, qayalıqlar.

Haman göldə arxayın süzüb tökəcək kürü,
Yurdumuzun neməti gözəl qızıl balıqlar.
İndi bu seyr etdiyin,
Sinəsində getdiyin
Meşədə gələn fəsil
Süzüb gəmi gəzəcək;
Yanaqları qırmızı,
Öcək kəndinin qızı
Bu aləmi gəzəcək
Tarladan qayıdanda
Sərin axşam çağları,
Nəğmə deyəcək ona
Suların dodaqları.
Qulaq asdım dostumun könül açan sözünə,
Daldım vətən mülkünün meşəsinə, düzünə;
Xəyal məni qopardı,
Uzaqlara apardı.
(Şirin xəyal şairin arabir həmdəmidir)
Sandım ki, maşın deyil, mindiyimiz gəmidir.
Sandım ki, yanımdadır yanaqları qırmızı,
Öcək kəndinin qızı.
Suların üzərindən meh əsir sərin-sərin,
Üzlərini oxşayır azad sərnişinlərin.
Ürəyimiz fərəhli
Sevimli yurdumuz tək.
Sonsuz nəşəmiz kimi
Kür də axır sevincək;
Axır xeyli mehriban,
Uzaqlara çağlayır,
Çölləri qucaqlayır.
Gün dəydikcə parlayır
Gümüş bir kəmər kimi,
Axır dərin, mənalı
Şirin nəğmələr kimi.

1949

KÜR SALINDI KƏMƏNDƏ

Ey beş il bundan qabaq gördüyüm güləz üzlü,
Şirin söhbətli, sözlü
Moskvalı rus qızı!
Bu dövrana bağladıq biz ki, iqbalımızı.
Mən səni beş il qabaq,
O zaman ki, bu torpaq
Yanırdı od içində
Gördüm dağdan keçəndə.
Onda yoxlayırdınız
Yerin təbiətini
Mühəndis bacımla sən.
Qəlbimə surətini
O gün nəqş elədim mən.
Xəbər verdikcə dağın durumundan, gilindən
Duyduq ağ günlərini sevimli yurdumuzun
Bir cüt mehriban qızın
Həmin bu təhlilindən...
Haradasan bu günlər xəbərsizəm, bilmirəm,
Deməyirəm ki, sənsiz kədərliyəm, gülmürəm;
Nə sən dərdli Əslisən, nə mən Kərəməm bu gün.
Nə mən Məcnunam, nə sən qaraca qız – Leylisən,
Bizim həyatımızdan çox uzaqdır qəm bu gün;
Nə mən səndən narazı, nə də sən gileylisən.
Səni gördüyüm gündən
Xoşladım sənətini;
Qəlbimdə bayraq kimi
Qaldırdım hörmətini...
Rus qızı! Başa çatdı aparılan kəşfiyyat.
Dağların qucağından deyirlər açdın qanad,
Mingəçevirdən köçüb yəqin uzağa getdin,
Hara getdinsə yenə doğma torpağa getdin.
Bəlkə indi Volqanın,
Donun sahilindəsən,
Kuybışevdə, bəlkə də sən türkmən elindəsən?

Beş bahar indi var ki,
Tamam beş il olar ki,
Sıxmamışam əlini.
Mingəçevirdə ancaq
Görürəm əməlini...
A mehriban rus qızı! Kür salındı yatağa,
Can verəcək torpağa.
Artıq o əcdadımın gördüyü cəllad deyil;
İnsanlara yad deyil.
Sahili sement, qaya,
Alınmışdı ortaya,
Kür sakit axıb gedir.
Alışıb ürəyimdə
İzlər buraxıb gedir.
Dayanmışam Boz dağın əzəmətlə yanında,
Deyirəm ki, xalqımın fərəhli zamanında
Ona ilk şad xəbəri verim şerimlə mən də,
Yazım ki, ünvanını bilmədiyim rus qızı,
Gözlərin aydın olsun, Kür salındı kəmərdə.

XALÇAÇI QIZ

Bizim təbrizli qızlar,
Nəzərdən gizli qızlar,
Böyük bir karxanada
Nə müddətdir xanada
Xalı toxuyurdular.
Vurub ilmə-ilməyə,
Saatlar ötsün deyə
Nəğmə oxuyurdular.
Toxucu qızlar hələ
Sevilməyib əməlli,
Hələ nəğmədən alır
Ürəkləri təsəlli.

Nəğmə:

Oğlan gəlir ovlaqdan,
Qoy sovuşsun uzaqdan.
Yoxsa qara gözləri
Öpər səni yanaqdan.

Yanağında iz qalar,
Qeybət olar, söz olar.
Yad oğlunun öpdüyü
Bir gözəli kim alar?!
Oğlan gəlir bulaqdan,
Qoy sovuşsun uzaqdan,
Qızlar, nə çıxar deyin
Ürək yaralamaqdan?

Bizim eldə sevilər
Ürəyi süsən qızlar.
Xoşlanılmaz hər yana
Yel kimi əsən qızlar.

Qoy bivəfa qızların
Sevgisi külək olsun,
İşlə əlim, butalar
Al-əlvan çiçək olsun...

* * *

Sən də elə bu zaman
Öz kiçik otağında
Bir aləm yaradırdın
Xananın qabağında.

Xəyalən dağlar aşıb,
Gəzirdin çəmən-çəmən.
Axtarırdın solmayan
Tər bənövşə, yasəmən.

Süzüb bağlar barını,
Heyvasını, narını,
Al-yaşıla qatırdın
Narıncını, sarını.

Qar örtəndə hər yanı,
Sən gəzməyib obanı,
Naxışlara verirdin
Gözlərindən qaranı.
Nə arzular, əməllər
Gəlib keçdi başından!
Ah, vurdun ilmələri
Bəzən də göz yaşından.

Sən beləcə işləyib,
Xoş butalar yaratdın.
Eşqin ilməyə döndü,
Canlı gülzar yaratdın.

Görənlər mənzərəni
İlk baharı unutdu;
Pəncərənə qondu quş,
Çəmənzarı unutdu.

Aylar keçdi bu sayaq,
Gecələr qaldın oyaq,
Toxudun öz xalını.
Təbrizin mahalını
İşlədikcə əlinlə,
Fəxr etdin əməlinlə...
Bir gün İran əfsəri,
O əfsər ki, hər yeri
Canavar tək dalayır,
O əfsər ki, yurdunu,
Görənlər bilir bunu,
Viran qoyur, talayır,
Gəldi sənin evinə

Yanında iki sərbaz,
Həris-həris xalına
Nəzər yetirdi bir az.
Bu oldu ilk sualı:
– "Qız! Kimindir bu xalı
Gözəl naxışları var
Ən bahalı xalılar
Yanında bir cecimdir;
Bunun sahibi kimdir?"
Tez qalxaraq ayağa,
Dilə gəldin: "Ay ağa!
Burulmayıb bu xalı,
Deyil ucuz, bahalı.
Bu mənim nişanlıma
Ən əziz cehizimdir".
– Qız! Nişanlın de kimdi
– Bir sadə bağbandır o,
– Nə böyük insandır o;
Sözlərimi sırğa tək
Qulağından as, apar!
Ona bir həsir ayır,
Köhnə bir palaz apar.
Bu düşər bağbanların
Payına, qismətinə.
Sahib olmaz xanların
Gədalar nemətinə...
Zorla gözəl xalını
Əllərindən aldılar,
Sevdanı, məhəbbəti
Ayaqlara saldılar.

"Al!" deyə kefli əfsər
Üstünə qıran atdı –
Xəlvət qamarlayaraq
Sərbaz məqsədə çatdı...
Yaxşı ki, uydurmayıb
Əfsər min bir bahana,

Nişanlını o gecə
Saldırmadı zindana.
Yaxşı ki, asmadılar
O gün yarını dardan.
Nələr gözləmək olmaz
Zalım şahzadalardan!..
Sənin cehiz xalını
Tehrana apardılar.
Elə bil ki, qəlbini
Yerindən qopardılar.
Deyirdin: "Salınacaq
Xalım yar otağına".
Döşədilər bəs onu
Kimlərin ayağına?!
Qoy deyim, əziz bacım!
Ürəyi təmiz bacım!
Onu, Məhəmməd Rza
Bağışladı aşnası
Yadölkəli bir qıza.
Xalın uzağa getdi,
Təbrizin mahalından
Özgə torpağa getdi...
Dörd bir yanı dumanlı
London adlı diyarda
Bir ingilis xanımı
O gündən balolarda
Onu tərif eləyir:
"Şah mənə vermiş" deyir.
A mənim əziz bacım,
Sevgisi təmiz bacım!
Deyirdin: "Salınacaq
Xalım yar otağına",
Ancaq onu sərdilər
Lordların ayağına.
Qəm yemə, əziz bacım!
Ürəyi təmiz bacım!
Bilirəm ki, İranda

Sənətkarlıq çətindir.
Sənin zülüm, həqarət
Dövrandan qismətindir.
Hafizin vətənində
Zorlanırsa da sənət,
Boğulmayacaq yenə
Azadlıqla, məhəbbət.
Odur ki, əziz bacım,
Çalış, yenə sən toxu.
Əli qanlı cəllada
Bu dəfə kəfən toxu!

BƏNNANIN ARZUSU

Bənna qoyduqca evin daş üstünə daşını,
Hay verir çağrışına cavan, qoca əmələ.
Şirin iş vaxtı bəzən o qaldırır başını,
Ehtiramla göz dikir meydandakı heykələ.
Günlər keçir, imarət ucalır yavaş-yavaş
Həmin heykəllə durur bizim usta üz-üzə;
Nəğmə deyir arabir, daş üstünə qoyub daş,
Arzuları çevrilir bir işıqlı gündüzə.
Həftələr keçir belə, yenə qalxır imarət,
Səhər tezdən quş kimi qonub uca divara
Məhəbbətlə işləyir göstərdikcə məharət;
O çatdırmaq istəyir divarı göy çinara.
Ucadır çinar ancaq, dik başına baxanda
Az qalır ki, adamın papağı düşsün yerə;
Yuxarı mərtəbəyə o hər dəfə çıxanda
Qanadlanır dəyincə gözü təzə şəhərə...
Aylar keçir, ucalır bizim ağ daşlı bina,
Usta durur üz-üzə göy çinarla bu dəfə.
Quşlar qonur ağacın qalın budaqlarına,
Buludlar üzərindən axır cənub tərəfə.
İl keçir, əzəmətli imarət çatır başa,
Böyük bir sevinc ilə suvayıb son daşları

Bənna yuxarı qatdan baxıb edir tamaşa
Aşağıda, çinarda nəğmə deyən quşları.
Seyr edir... Ürəyində bu zəhmətkeş insanın
Gözlərindən duyuram, sevimli arzusu var.
O, istəyir ki, təzə tikəcəyi binanın
Dolansın üst qatından aşağıda buludlar.

NƏĞMƏLƏR

Hidrostansiya... Parlaq işıqlar
Buradan ətrafa yayılacaqdır.
Onun şöləsindən sevdalı quşlar
Səhər nuru sanıb ayılacaqdır.

Bir qız nəğmə deyir işləyən zaman,
Ona fərəh verir azad sənəti;
Bizim dünyamızda əməkçi insan
Dustaq eləmişdir qəmi, həsrəti.

Hələ stansiya çatmayıb başa,
Girirəm mən onun bir şöbəsinə.
Çalışan qızlara edib tamaşa,
Zəhmətin barına baxıram yenə.

Qızlar calaşdırır təzə xətləri,
Buradan basacaq işıq kəndləri.
Mən salam deyirəm, cavab verirlər.
Doğur ürəyimdə bir aydın səhər.
– Kimdi məlahətlə oxuyan?
– Bu qız!
O:
– Kiri! – söyləyir.
– Utanmayınız!
Gözəl səsiniz var. (Daha dinməyir.

Kim deyir ürəkdən o sevinməyir?)
– Deyin işləriniz necədir?
– Niyə,
Pis deyil, aprelə bizdən hədiyyə
Kürün qırağından işıq olacaq.
– Var olun, a qızlar, buna varam, bax!..
Çıxıram bayıra həmin şöbədən,
Astanadan azca ayrılmamış mən,
Qız yenə qaldırır zərif səsini.
Duyuram əməyin təranəsini.
Elə bil ki, deyir: "Zəhmət nəğmədir,
Onun mənasını yaxşı düşün bir".
Bozdağa qalxıram "Moskviç"də mən,
İtir stansiya nəzərlərimdən.
Məskənim olduqca təzə iş yeri,
Gəlir qulağıma nəğmə səsləri.
Bu, azad əməyin şeriyyətidir.
İnsanın əbədi məhəbbətidir.
Gəzirəm kəndbəkənd, şəhərbəşəhər
Gəlir qulağıma yeni nəğmələr...

1950

Azad bir insanındır, nə fərqi var kimindir.
Yatır eyvanda körpə, qədim asma beşikdə
Yoldaş bahar dayanır ondan ötrü keşikdə.
Şair kimi süzürəm körpəni, ilk baharı,
Bəlkə həmin uşaqdır sabahın sənətkarı!..

BALIQÇI

Dəniz qırağında var yastı daxma...
Gəl, ona məhrəm ol, biganə baxma!
Dəniz qırağında bir təknə vardır,
Həmdəmi çox zaman göy dalğalardır.
Həmin bu təknədə bir baxtı qara
Suların qoynuna çıxır şikara.
Xeyli əmək çəkir az səmər görür,
O nələr yaşayır, o nələr görür!
Neçə yol dənizdə düşdü tufana,
Neçə yol əl üzdü ondan zamana.
Neçə yol suları o yarıb gəldi,
Ölümün ağzından qurtarıb gəldi.
Haman söylədiyim yoxsul balıqçı,
Ehtiyac əlində o qul balıqçı
Gecədən sulara yenə tor atdı,
Bircə qızıl balıq çəkib çıxartdı.
Sevinib dedi ki, bunu satmaram,
Yemək allam, edər uşaqlarım şam.
O qızıl balığı alıb yönəldi,
Sevinib dedi ki, bunu sataram.
Qapıya çatmamış o yoxsul insan,
Tez kəndin məmuru çatdı dalından.
Bir balığa baxdı, bir onu süzdü,
Çılğın dalğaların oğlunu süzdü:
– Mənim sözlərimə şahid xalıqdır,
Bu lap şaha layıq qızıl balıqdır.

Mən də qızıl balıq yesəm hər zaman,
Məmur yox, şah belə çıxar yadımdan.
– Xeyr, bağışlayın, elə deyildir.
– Çapaq da görmədik səndən bir ildir.
– Mən sizə hər fəsil pay ayırmışam.
– Bəs indi?
– İndimi?!
– Bəli, bu axşam!
Biz də əl tutarıq gələndə yeri
Bu qızıl balığı gəl ötür bəri.
– Al, – dedi – balıqçı, məmur tez aldı;
Yenə də körpələr evdə ac qaldı.
Məmur vəzinləyib balığı, dərhal,
Yönəldi evinə eləyib xəyal.
"Ağama bir xidmət göstərim deyə,
Aparım balığı şəhridariyə.
Çıxarmaz böyüklər yaddan xidməti,
Gətirər hər zaman hörmət, hörməti..."
Qalxdı fərəhindən göyün qatına,
Yönəldi şəhərə, mindi atına.
Ağanın evinə yetişən kimi,
Sıçrayıb atından o düşən kimi
"Şəhridari üçün bəxşişdir..." deyə
Uzatdı balığı bir xidmətçiyə.
Alıb qız balığı dərhal apardı.
Yazıq balıqçının qəmli bağrını
Kəsdi: bilmədi ki, bıçaqla yardı
Bixəbərdir, necə duysun ağrını?
Şəhridari bu gün nahar çağında
Dostunu edirdi qonaq bağında.
Vardı umacağı ağanın ondan,
Bu qonaq gəlmişdi Vaşinqtondan.
O da, məmur kimi, yaltaqlanaraq
Xidmət göstərirdi. Bu ali qonaq
Sancıb yaxasına qar kimi dəsmal
Yeməyə başladı iştahla dərhal...
Ətir yayırdısa xuruşlar bağa,

Çox ləzzət vermişdi balıq qonağa.
Boşqaba yığmışdı sümük bir yığın.
Gətirə bilsəydi qızıl balığın
Yoxsul sahibini o nəzərinə,
Görsəydi qeyzini, balıq yerinə –
Deməyirəm başqa xuruş dadardı,
Yanılıb qorxudan sümük udardı.

1950

XARRAT

Təzə bina tikdirib Təbrizdə ərbab yenə...
Bu ev tənələr vurur şəhərin evlərinə.
Bir sənət əsəridir tavanları, tağları,
Gəzir dülgər, seyr edir möhtəşəm otaqları.
Düşünür: "Ərbab salıb qardaşımı al qana,
Onun alın təriylə tikdirdi bir kaşana.
Mən bəzək vurmalıyam imarətə əlimlə,
İftixar etməliyəm şadlanıb əməlimlə.
Pəncərə pərçimləyib, döşəmə salmalıyam,
Ömrümü bada verib belə qocalmalıyam.
Nə eləyim?!
Nə çarə
Adım xarratdır mənim,
Zəmanədən qismətim belə həyatdır mənim!
Döyüb yerə möhtəkir burda öz ayağını,
Əridəcək bacımın ürəyinin yağını:
Yuyulmuş paltarını görməyəndə qar kimi,
Qəzəbli olacaqdır dumanlı dağlar kimi.
"Ay nanəcib verdiyim borc hanı, sələm hanı?"
Deyib ağladacaqlar ağ birçəkli anamı.
İllərin dərdi, qəmi üstümə ələnəndə,
Dolanıb həyət-həyət acından dilənəndə
"Get, görünmə ərbabın səhər-səhər gözünə!"
Deyərək bu qapını örtəcəklər üzümə.

Həmin bu pəncərədən, bəli, o zaman, o gün
Örtüyü salacaqlar məni görməmək üçün.
Bunu duymayırammı, həyat pəncərəsindən,
Mənim ana yurdumun dağından, dərəsindən
Qatar-qatar uzağa aparılır nemətim;
Ayaqlanır şərəfim, bəs yoxmudur qeyrətim?!
Ərbablar düşmənimdir, son verməli qarətə!" –
Deyib vida elədi xarrat bu imarətə.
Od eləyib məhəmmədrzaların yerinə,
Getdi pəncərə açsın Təbrizin səhərinə.

1950

BARIŞMAYIRSAN

Təbriz...
Hava qaralır,
qaz lampalar alışır.
Kimi öz yuvasına çəkilməyə çalışır,
Kimi "Şirü-xurşidə" keçib gedir xumara:
Kimi ümumxanaya, kimi gedir qumara.
Yoxsullarsa evinə qəlbi pərişan gedir,
Getdikcə yazıqların ürəyindən qan gedir.
Təbriz...
Günəş çəkilmiş,
axşam çağıdır yenə,
"Şirü-xurşid" ətrafa ətir dağıdır yenə.
Ağ süfrələr üstünə düzülmüş piyalələr,
Elə bil ki, açılmış qərənfillər, lalələr.
Abico, şampan, araq, hər çeşid nazü-nemət...
Ürəyində qəzəb, kin baxırsan həsrət-həsrət.
Bu xuruşlar, yeməklər dehqanındır, bilirsən.
İçilən şərab deyil, al qanındır, bilirsən
Xanəndə qız oxuyur tarzənlər tar çalır,
Bəlkə də sənətkarın ağır dərdi var, çalır.
Ağalar mey nuş edir, danışır, gülüşürlər,
Bəlkə yazıq İranı yenidən bölüşürlər.

Bəlkə də eləyirlər yenə şirin ticarət,
Yox, yox, onlar eləyir sənin haqqını qarət!
Sənsə durub qapıda qaloş, palto alırsan,
Qarşılayıb gələni dalğın yola salırsan.
Keflənib gedənləri... neyləyəsən, nə çarə?!
Karxanadan atdılar bu il səni kənarə!..
Çox dolanıb gəzmisən, körpələrin ac qalıb,
Girmisən bu xidmətə axır, naəlac qalıb,
Gəlsinlər aşxanaya ağalar, əcnəbilər,
Onlar sənin dərdini nə anlayar, nə bilər?
Zahirən dolanırsan mülayim, ehtiyatla,
Fəqət barışmayırsan bilirəm bu həyatla.
Bu gün palto asırsan, deyib ürək sözünü
Sabah bu ağaların asacaqsan özünü!

CAVAB

Nə üçün bilməyirəm məndən üz döndərmisən?
Unutsunmu deyirsən könlüm keçən günləri?!
Rəfiqənlə bu səhər sifariş göndərmisən:
"Yazdığım məktubları, əksimi qaytar geri".

Deyirsən ki: "Mən yoxam səndən ötrü həyatda,
Biz əməkdaşıq artıq iş vaxtı, iş zamanı".
Sən şöbə rəhbərimsən mənim istehsalatda,
Bəs ordakı zabitən, polad iradən hanı?

Nədir səhvim, taqsırım, gəl açıq söhbət elə!
Əgər günahkaramsa, nə olar, töhmət elə!
Sən ki, deyilsən keçən zamanın qız uşağı,
Burax, burax, əzizim, bu yaramaz şıltağı.

Məktuba qalsa hərgah, əksinə qalsa əgər,
O bir parça kağızdır, bu da sadəcə surət.
Ürəklərdə olmasa eşqin odundan əsər,
Nə şəkil, nə də məktub yaratmaz bir məhəbbət.

Deyirsən məktubunu, əksini verim geri.
Neyləyim deməyirsən şirin keçən dəmləri:
Təbəssümlər, mehriban baxışlar, uzun gecə
Sahil gəzintiləri, payız fəsli gəlincə
Bağda keçirdiyimiz saatları neyləyim?
Əziz günlərimizlə necə rəftar eləyim?
Deyirsən məktubunu, əksini verim geri,
Neyləyim deməyirsən şirin xatirələri?
Deyirsən ki, qaytarım məktubla, surətini,
Neyləyim – deməyirsən şirin məhəbbətini.

1950

POL ROBSONA MƏKTUB

Mən görməmişdim səni uşaqlıq zamanında
Ağların pəncəsində ömrün dara düşəndə.
Cavanlıq illərində olmasam da yanında
Mehriban dostlar kimi əl verdik görüşəndə.

Moskvada keçən il etdilər tanış bizi
Aleksandr Puşkinin təntənə gecəsində.
Mübariz insanların duydum iradəsini
Sənin əzəmət dolu o mərdanə səsində.

Moskvada – əməllər, arzular şəhərində,
Mənim zənci qardaşım, beş-on gün şad oxudun.
Sülhün istinadgahı o bahar şəhərində
Böhtandan, iftiradan, qəmdən azad oxudun.

Bir gün qayıtdın geri, ümmanlardan uzağa,
Döndüm Azərbaycana, mən də odlar elinə.
Sən geri qayıdanda o bəlalı torpağa,
Yenə qıfıl vurdular ağ adamlar dilinə.

Eşitmişəm yamandır bu günlər vəziyyətin;
Acından ölməməkçün öz evini satırsan.

Əsarətə salınmış eşqin, duyğun, sənətin,
Göyərçin gülüşlərin uçmuşdur dodağından.

Bilirəm, Amerikada bu gün yamandır halın,
Həyat nəğmələrini qandallayırlar sənin.
Əmr edib qanlı polis – cəlladı istiqbalın,
Atdığı addımları hətta sayırlar sənin.

Keçdin hansı döngədən, hansı binaya girdin,
Neçə yol qəmlənmisən, neçə dəfə gülmüsən,
Kimlərə mehribansan, kimlərdən üz çevirdin,
Kiminlə son loxmanı məhəbbətlə bölmüsən, –
Xəfiyyələr dəftərə qeyd eləyir xəlvəti,
Cinayət hərisləri sevirlər bu "xidməti".
Sən, xəstə bir zəncinin daxmasına gəlməmiş
Polisə bildirirlər telefonla yerini.
Ağalar xəyalında asır qeyz ilə dardan
Səadətə çağıran döyüş nəğmələrini.

Tutdururlar gülləyə sənin odlu sözünü,
İyirmi addım kənar "azadlıq heykəli"ndən.
Bəlkə sabah zindana salacaqlar özünü,
Bəlkə sabah yırtıcı bir xainin əlindən
Sən də zərbə alarsan əziz Tolyatti kimi.
Deyirsən ki: "Nə vardır şanlı, şərəfli olsun
Meydanda həlak olan əsgər həyatı kimi".

Deyirsən ki: "Bilirəm vurdular Tokudanı,
Qanına qərq elədi Juleni xain əllər;
Sülhün əsgərlərinin tökülsə də al qanı
Boğulmayacaq azad düşüncələr, əməllər".

Tanıyıram mən səni, sülhün dönməz saldatı!
Sarsıtmaz iradəni ağ evin zindanları.
Sən görmək istəyirsən azad bu kainatı,
Tükənməz bir eşq ilə sevirsən insanları.

1950

NAZİM HİKMƏT AZADDIRMI

Deyirlər, azad olmuş zindandan Nazim Hikmət,
Deyirlər, ağuşunu açmış ona təbiət.
Deyirlər ki, qolları qandalaqlı deyildir,
Üzünə dəmir qapı daha bağlı deyildir.
Düzdür, onu qaranlıq kameradan aldılar,
Lakin daha qorxulu bir zindana saldılar.
Barmaqlığın dalında dustaq tək dolanmayır,
Şair azadlıq deyə məgər daha yanmayır?
Ona deyirlər ki, sən müti ol yalçın kimi,
Parlaq xəncərə dönmə, kəsərsiz ol qın kimi.
Deyirlər, Koreyada batsa da bir ordumuz,
Deyirlər, yad ellərə satılsa da yurdumuz,
Küçələrdə ölsə də hər gün İzmir acları,
Gözlərini dəlsə də qanlı dar ağacları,
Görmə bunu, gəl burax azad fikirləşməyi;
Gözünə zinət olsun Açessonun çeşməyi.
Sən şairsən, deyirlər, gözəlləri tərif et,
Qəmlənmə, yaman günə qalırsa da məmləkət!
Yaz ulduzlu gecədən, Adaların gülündən,
Nəyinə gərəkdir el qıfıllanmış dilindən?
Gələcək ağ günləri çağırma əl eləyib,
Azadlığı özünə şanlı əməl eləyib
Yurdunu iqbalını qucaqlama, deyirlər,
Türkiyənin halına sən ağlama, deyirlər.
Yarıb suları keçsin Bosforun boğazından
Amerika gəmisi gündə üç yol azından.
Sən bunu görmə əsla, seçmə ağdan qaranı;
Nə borcundur, satırıq yadlara Ankaranı?
Paslı zəncir kəssə də türklərin əllərini,
Fikir vermə, yaz ancaq Turan əməllərini;
Şairsən, gözəllərin yaz gözündən, qaşından,
Nələr gəlib keçəcək Türkiyənin başından –
Maraqlanma...
Duyuram, yazıq dostum, halını.
Xəlvəti öldürənlər Sabahəddin Alini

Sənə düşünmə deyir, sənə görmə deyirlər.
Şerinlə öz yurduna çələng hörmə deyirlər...
Əldən-ələ satılır Türkiyənin oymağı,
Sənə yasaq edirlər öz xalqını duymağı.
Bu gündə görməməkçün əziz Anadolunu,
Bəlkə başqa bir elə salardın öz yolunu.
Bu da mümkün deyildir! Bəhanə çoxdur, əlbət,
Deyirlər boynunda var sənin əsgəri xidmət;
Yalandır, əllərinə verərlərmi avtomat,
Dəyişsin deyə bir gün nifrət etdiyin həyat,
Çıxsın deyə ağ günə gözəl ana Türkiyən
Yaylımdan keçirərsən bütün ağaları sən.
Deyirlər azad olmuş zindandan Nazim Hikmət,
Nə dəhşətdir bilsəniz azadlıqda əsarət?!

AYRANSATAN

İsti bir yaz günüdür, od yağır göydən yerə,
Toz qalxır, yeridikcə avtobuslar şəhərə.
Tehran.
Bazar.
Gəzdirir əlində hərə bir şey:
Biri odun şələsi, biri quzu, biri ney,
Biri Kaşan xalısı açıb yerdə satmağa,
Hərə yağlı dil tökür müştəri aldatmağa,
Göstərir gilabdanı, darağı, bürünc tası,
Şəkil satan divardan asıb həzrət Abbası.
Silindirli bir oğlan fal açdırır rəmmala,
Həsrətlə bəzzaz baxır işə getməyən mala.
Biri sələb var deyir, birisi iskəncəbi;
Satan bol, azdır alan, çoxunun boşdur cibi...

Səhəngi qoyub yerə
Hörmətlə keçənlərə:
"Ay sərindir sərvəri,
Qəlbi yanan gəl bəri!"

Deyir bir ayran satan;
Bəlalar çəkən insan
Əlində boş piyala
Birdən gedir xəyala.

Onu çəkib aparır ailə dərdi-səri;
Gözlərində canlanır zavallı körpələri.
Böyük arzular kimi fikirləşir o bunu:
Yaxınlarda verərəm kuzəçinin borcunu.
Hər gün axşam düşəndə,
Gedərəm evə mən də
Pendirlə, ağ çörəklə.
Əlində boş piyalə
Möhnət dolu ürəklə
Çağırır: "Ay sərvəri,
Qəlbi yanan gəl bəri!"
Bu dəm yanaşır ona
Amerika əfsəri.

O deyəsən, hallıdır: "Doldur, ver ayran – deyir.
Yanır cəhənnəm kimi xaraba İran!" – deyir...
Sənəkdən piyaləyə ayrançı ayran süzür,
Əfsəri bir anlığa dərindən baxıb süzür.
Gözlərində canlanır dəhşətli güllələran:
Abadan mədənləri, işsiz qalan fəhlələr,
Qolları, ayaqları zəncirli dustaq İran,
Hər tərəfdə hökm edən, kefli, çılğın gəlmələr,
Tələbə tətilləri, öldürülən qardaşı,
Ağbirçək anasının kəsilməyən göz yaşı...
Deyir: hər udumuna bir qızıl versə belə,
Xeyr, hətta bir gilə
Əsla ona satmaram;
Əlimdən ayran içsə rahat yuxu yatmaram!
Namərd kimi gəzmərəm mən öz məmləkətimdə.
Ürəyində söyləyir: "Mənim bu nemətim də
gəlmələrin deyildir"
Cavab verir əfsərə.

– Ayran sənin deyildir.
Sanki iç yurdum deyə – axıdıb tökür yerə.
Deyir bu güllə kimi zabitin gicgahına.
O, tez açıb koburu əl atır silahına.
Yarağın dəstəsiylə vurub qırır sənəyi,
Susuzluqdan, qəzəbdən alovlanır ürəyi.
Düşünür, yerə bir gün çiynindən atdı riqşa
Elə bu sayaq məni, ömrümüz gedir qışa,
Oyanır müstəmləkə,
Həqir baxdığım ölkə.
Çıxır Amerikanın bazarları əlindən...
Qurduğumuz kainat sökülür təməlindən!..
Ayran hopub torpağa, yaranmışdır bir ləkə,
Səpələnib ətrafa sənəyin qırıqları;
Ürək qırıqlarıdır deyərdim ona bəlkə –
Qopsaydı ayrançının boğuq hıçqırıqları.
Öyünərək ürəkdən, qəti hərəkətiylə
Baxır gedən zabitə dəryaca nifrətilə.

Baxırdı dərin dərin
Bir insan vüqarilə.
Bu yadelli əfsərin
Sənək qırıqlarilə

Boğazınızı bilsəniz nə kəsərdi bir anda!..
Dövlət satqın... ağadır Amerika İranda...
Əfsər yönəlib gedir yelə düşən tük kimi,
Ajan təzim eyləyir, qara bir kötük kimi,
Qımıldanmadan baxır, dayanıb öz yerində;
Ayrançının canlanır körpələr nəzərində,
Elə bil ki, deyirlər: "Biz, ac deyilik, ata!
Daha möhkəm bağlanır ayransatan həyata!.."

Körpələri acsa da,
Ona qapı açsa da.
Məlul, məhzun övrəti,
Nədənsə bu gün əsla
Yoxdu qəmi, həsrəti.

Amerika əfsəri yırtıcıdır, kənəkdir,
Sərxoşun sındırdığı sadəcə bir sənəkdir!
O torpağa axıtdı kuzənin ayranını,
Ancaq tökür ağası İranın al qanını.
Ölkələrin əlindən alıb öz qismətini,
Dağıdır insanların bəxtinin şərbətini!
Ağalar sındırmayır bazarda sənəkləri
Arzuları puç edir, qırırlar ürəkləri!

Bakı, 1951

YEDDİ ZƏNCİ

Ucqar zənci məhləsi,
Yenə gecə yarıdır.
Gedir qızğın axtarış
Polis adamlarıdır
Yenə hər yana baxsan;
Yenə ölüm, nahaq qan...
Gəzirlər qapıları qəzəblə qıra-qıra,
Əllərində dəyənək, dillərində iftira.
Axtarırlar qeyz ilə yeddi cavan zəncini,
Yeddi bahar oğlunu, mübarizə gəncini.
Qaralar təhqir edib guya bir ağ qadını,
Namuslu adamları salıb şərə, böhtana,
Boğazlayıb onların eşqini, muradını,
Qollarını bağlayıb aparırlar zindana...
Qanunsuz, məhkəməsiz dustaq edirlər bir il.
Yeddilər kimdir, açıq söyləmək mümkün deyil.
Deyə bilməzdilər ki, qorxuludur yeddilər,
Bizə onlar zidd gedir hər yanda axşam, səhər.
Deyə bilməzdilər ki, dəydimi ayaqları
bu gənclərin limana,
İşçilər gəmiyə yox, tökür dərin ümmana
Ölkələrə hərb üçün yollanan yaraqları.
Heç gələrmi merlərin bu həqiqət dilinə:

– Zənci ağ gün istəyir vətəninə, elinə;
Deyə bilməzdilər ki, keçirmək istəməyir
Onlar qılıncı qına.
Deyə bilməzlər, xeyr
Ki, azadlıq istəyir qaralar öz xalqına.
Döyüşlərə çağırmış bu yeddi mərd saldatı
Zəncilərin iqbalı, zəncilərin həyatı...
Deyə bilməzlər əsla, oyanır yatmış qara,
Düşmən çıxır dollara.
Onlara ilham verir sülhün şanlı bayrağı.

"Qara zorlayıb ağı"
Bu iftira, bu adla,
Bu böhtan, bu fəsadla
Yeddi namuslu gənci
Atıb daş qəfəslərə,
Saldılar yaman şərə.
Bir il dustaq etdilər;
Bir il igid yeddilər

Döyüldü, qol çəkmədi uydurulmuş yalana,
Barmaqlığın dalında ömür sürdü mərdana,
Qabarıb qançır oldu şallaqdan bədənləri,
Kameradan ayaqla sorğuya gedənləri.

Batsın deyə bu vəhşət
Gecə yarısı xəlvət

Girib qoltuqlarına gətirdilər geriyə.
Onlar inildəmədi ol yeriyə-yeriyə.
Mərdana qarşılayıb yalan sorğu-sualı,
Söylədilər: güləcək zəncilərin iqbalı!
Yeddi zənci,
yeddi dost,
yeddi məslək yoldaşı,
Yeddi həqiqət sevən,
arzu, dilək yoldaşı;

Yeddi həyat aşiqi,
yeddi mübariz cavan
Azadlığın yolunda keçdi şirin canından.
Birisinin ağardı anasının saçları,
Özünü gur sularda boğdu birinin yarı.
Birisinin kor oldu bacısı ağlamaqdan,
Birisinin gəlini geri döndü otaqdan.
Birisinin atası yaraq aldı əlinə,
Birisi qardaşının and içdi əməlinə.
Birisinin qadını mübariz əsgər oldu,
Sülhə imza toplayan insanlara qoşuldu.
Kədər boğazlamadı o günlər bir xalanı,
Dedi: "Bacım, aldılar əlindən tək balanı,
Daha ölməsin deyə övladı yoxsulların,
Ağ günə çıxsın deyə nəsli qara qulların",
O, səadət yolunda addımlayır vüqarla,
Böyük bir iftixarla,
Birisinin qardaşı atdı səhər dəzgahı,
"Azadlıq heykəli"nin qabağında açdı o,

Əsarətdə sabahı.
Əlində qanlı köynək
Yeddi yüz ana gəldi;
Yeddi yüz min ağ, qara
Coşub meydana gəldi.
Sinələrində şüar
Nümayişə başladı
Virginyalı bacılar.

Hörmətlə xatırlayıb həmin bu yeddiləri
O gün hücuma keçdi könüllü Çin əsgəri.
Vyetnamda partlayıb yeddi cəllad maşını,
Yad elədi igidlər öz yeddi qardaşını.
Yeddilərin o səhər
Koreya şahinləri tutmadı matəmini.
İntiqam olsun deyə vətənpərvər igidlər
Amerikadan üzən təzə hərbi gəmini

Batırdı gur sularda.
Məğrur heykələ döndü yeddilər duyğularda...
Zəhmətkeşdi yeddilər...
Yeddi nəfər sənətkar,
Yeddi həyat çeşməsi,
yeddi yaz,
yeddi bahar...
Deyirlər ki, birinin gözəl sənəti varmış,
Çarpayı hazırlayıb özü yerdə yatarmış.
Mahir ustaymış biri, belə deyirlər onun
Mebelləri hər zaman olmuş Vaşinqtonun,
Riçmontun evlərinin yaraşığı, zinəti,
Özünün olmamışdır bircə sadə masası,
Ömrünün kitabına yazıb dərdi, möhnəti
Belə həyat veribdir ona "qanun əsası..."
Yeddi usta,
yeddi can,
sevən,
sevilən könül.
Dünən quran yeddi əl,
bu gün yeddi ovuc kül!..
Qoca tarix! İtirdin ancaq yeddi gəncimi?
Qanunsuz öldürülən tək bu yeddi zəncimi?

Elə bu növ, bu sayaq
On beş il bundan qabaq
Ömrün bahar çağında,
Nyu-Yorkun qucağında
Tərk elədi bir səhər
Zəncilər məhləsindən
Dünyanı səkkiz nəfər.

Hanı Sakko, Vansetti?
Neçə adsız qəhrəman?
Neçə döngədə axmış zülmət gecələrdə qan?
Merlərin bu yeddi gənc yeni cinayətidir.
Yırtıcılıq onların irsi bir adətidir.

Onlar hayana getsə,
Həbəşistandan keçib, Ərəbistana getsə,
Fəlakətlər törədir yalnız qanlı əlləri,
Boğuldu Afinada azadlıq əməlləri,
Madriddə şər qazandı
Hansı elə onların pəncələri uzandı,
Fahişəlik, xəyanət, aclıq, ölüm və çuma
Orda keçir hücuma.
Haqq istəyən əlləri cəlladlar salır qana;
Döndərmək istəyirlər yer üzünü zindana.

Yeddi gənc,
yeddi zənci,
yeddi həyat aşiqi
Bir də görməyəcəklər səhərlər gün işığı –
Yeddi usta,
yeddi can,
sevən,
sevilən könül.
Dünən quran yeddi əl,
bu gün yeddi ovuc kül,
Siz ey vəhşi ağalar! Çox sürməyəcək bu hal,
Axır nəfəsindədir öləcəkdir kapital!
İnsanlar haqsızlığa gərərək bir gün sinə
Qırılsın deyə zəncir, uçulsun deyə zindan
Oturdacaqlar sizi ölümün kürsüsünə,
Ya da ki, asacaqlar uca dar ağacından!

1951

TONQAL BAŞINDA

Yan, tonqalım, ətrafa alovlanıb işıq sal,
Gözəl şüarımızdır birlik, internasyonal.
Boynumuzda qalstuk alov kimi rəngi al.
Dövrəndə söhbət açıb dəstəmizin rəhbəri,
Salam söyləyir bizə ağ günlərin səhəri.

Bürüyür xoş nəğməmiz dərələri, dağları,
Bizik bu zəmanənin bəxtəvər uşaqları.
Düşərgədən işıqlat sən də yaşıl bağları.
Dövrəndə söhbət açıb dəstəmizin rəhbəri,
Salam söyləyir bizə ağ günlərin səhəri.

Yan, tonqalım, işığın çatsın uzaq ellərə,
Qızıl bir günəş kimi şəfəq saç könüllərə.
Zəfər bayrağımız tək adın düşsün dillərə;
Dövrəndə söhbət açıb dəstəmizin rəhbəri,
Salam söyləyir bizə ağ günlərin səhəri.

Cavan keşikçiləri sülhün yandırmış səni,
İşıqlar məskənidir azadlığın Vətəni.
Sevirik, yurdumuzu bu sevimli şöləni,
Dövrəndə söhbət açıb dəstəmizin rəhbəri,
Salam söyləyir bizə ağ günlərin səhəri.

1952

MƏN NİYƏ BAXDIM

Biz qol-qola kinoya, tamaşaya getmədik,
Nə şirin sözlərini, nə tənəni eşitdim.
Bircə yol belə olsun görüş təyin etmədik,
Nə sən məni dinlədin, nə mən səni eşitdim.

Üzbəüz gələn zaman ilk dəfə səhər-səhər
Mən sənə baxdım oğrun, sən mənə saldın nəzər.
Bəlkə də baxışların soruşdu niyə baxdım?
Qoy deyim, sevimli qız,
Sənin üzündə yalnız:
Gözəlliyə, bahara, şirin gəncliyə baxdım.

1954

SƏNİ DÜŞÜNÜRƏM

Yaylaq şeri

Səni düşünürəm, sevimli dilbər,
Daha gözəlləşir gözümdə yaylaq.
Quşlar şirin-şirin söhbət edirlər,
Dodağı nəğməli axır şən bulaq.

Rəng alıb, rəng verir güllər, çiçəklər,
Ətrini duyuram mən hər birində.
Gözəl surətini aydın üfüqlər
Göstərir sevimli şəfəqlərində.

Səni düşünürəm mən, ancaq səni,
Gözlərim dikilib uzun yollara.
Səni axtarıram gəzib gülşəni,
İntizar səbrimi çəkmişdir dara.

Sənsə gəlməyirsən. Nə çiçək, nə gül,
Dodağı nəğməli nə büllur bulaq.
Qəlbimi açmayır. Kövrəlir könül,
Səni düşünürəm tək, səni ancaq.

1954

QARA RƏNG VƏ QARA GÖZLƏR

Bizim ellər sevməmiş əzəl gündən qaranı,
Vurmuşlar bu rəng ilə həmişəlik aranı.
Cavanlar qırmızını, yaşılı, ağı, sevmiş,
Könül verib sevimli, laləyanağı sevmiş.

"Qara – matəm rəngidir" belə demişlər hamı,
Qara örpəkli gördüm qoca vaxtı anamı.
Çoxlarında bu rəngə hüsn-rəğbət görmədim,
Düzü, mən də könlümü heç qaraya vermədim.

Lakin o gün keçəndə önümdən narın-narın,
Ah, nə gözəl göründü şəvə kimi saçların!
Qapqara gözlərində nə qədər də həyat var!
Sönükdür qabağında ən işıqlı ulduzlar.

İndi mənə xoş gəlir qara, zil qara yalnız,
İndi mənim önümdən keçib gedəndə, ay qız,
Baxışında eləyib təsadüf gündüzlərə,
Canım qurban, deyirəm bu zil qara gözlərə.

GƏL, GÖZÜMÜN İŞIĞI

Demişdin: "gələrəm, yar düşən zaman qaranlıq",
Quşlar öz yuvasına döndü, niyə gəlmədin?
Özündən qabaq gəlib həsrətin, nigaranlıq,
Al şəfəqlər üfüqdə söndü, niyə gəlmədin?

"Qaranlıq düşən zaman gələrəm", ey gözəl qız!
Görüş təyin eləmə bu şərt ilə gəl daha.
İşə düşdü bu gündən yeni stansiyamız,
Kəndimizin gecəsi döndü nurlu sabaha.

Gəl qoşa seyr eləyək bu çıraqban gecəni.
Gəl ki, qüssə gəlməsin, sevindir bu aşiqi!
Sənsiz necə xoşlayım, a mehriban, gecəni,
Gəl, qəlbimin taqəti, gəl, gözümün işığı!

Lampalar ziya saçır, ətraf işıqlandı, gəl!
Yoluna nur səpməyə ürəyim də yandı, gəl!

DEYƏ BİLMİRƏM

Deyirəm ki, səni gördüyüm zaman
Üstünə gül-çiçək səpəcəyəm mən.
Deyirəm ki, səni görəndə, canan,
Söz açaram təmiz məhəbbətimdən.

Sən, bahar çağında yaşıl çəməndə,
Ətir saçan zaman qızıl gül kimi,
Coşmaq istəyirəm fərəhlə mən də
Baharın aşiqi şən bülbül kimi.

Elə ki, qarşımda görürəm səni,
Tutuluram yaman, niyə, bilmirəm?!
Nədənsə bu sadə bircə kəlməni –
Sevirəm sözünü deyə bilmirəm.

BAĞDA ALMA DƏRƏN QIZ

Sən ey kolxoz bağında
Təzə meyvə dərən qız.
Səbətlərə doldurub
Şəhərə göndərən qız!

Torpaq günəşdən artıq
Həyatı səndən alır.
Tər meyvəli ağaclar
Şəfqətinlə ucalır.

Axı bircə dənəsən
Şən qızların içində.
Ay gözə tez görünər
Ulduzların içində.

Heyran olmuşam sənə,
Əllərin nə itirdir!
Elə bil ki, sürətin
İldırım sürətidir.

Qızlarla bar dərəndə
Səhər kolxoz bağından,
Üzülüb yerə düşdü
Bir alma saplağından.

Onu tez götürüb sən
Ağ önlüyünlə sildin.
Zəhmətinin barıdır,
Belə qədrini bildin.

Mən də baxıb söylədim:
Qəlbim alma olaydı,
Onu, öz əllərilə
Mehribanca alaydı,

Budaqlara qayğısı
Uzun ömür verən qız.
Baxdıqca doymadığım
Bağda alma dərən qız.

BİR HƏQİQƏT OLAYDI

İpək parça əlində,
Yerin göy budaq altı;
Oturub işləyirsən,
Arabir dodaqaltı
İncə nəğmə deyirsən
Sən ləzzət alan zaman
Əlvan naxışlarından,
Mən də zövq alıb sənin
Xumar baxışlarından,
Qapınızdan keçirəm;
O gözəldə həyatın
Sevincini içirəm.
Gözlərin nə aladır!
Gözlərin piyaladır,
Sadə qız!
Azadə qız!

Kaş bizim bağça-bağda
Parçanı toxuyaydın.
Yerin göy budaq altı,
Arabir dodaqaltı
Quş kimi oxuyaydın.
Sən mənə yar deyəndə
Mən sənə can deyərdim.
"Nə var, anam gəlini,
A mehriban!" deyərdim.
Aramızda belə bir
Sevgi, hörmət olaydı;
Kaş ki, bu arzularım
Bir həqiqət olaydı!

1954

SEVİŞMƏYƏN DƏ VARMI

Görəsən bu dünyada qəlbi dalğalanmayan,
Məhəbbətlə yanmayan,
Bir cavan tapılarmı?
Sevişməyən də varmı?..
İki həyat aşiqi, iki dost, iki yoldaş
Şirin söhbət eləyib gedirlər yavaş-yavaş.
Mühəndis Günəş deyir
Yoldaşına xeyli şad:
– Həyat eşqin, ay Polad
Dərindir Xəzər kimi.
Coşursan hər sahədə
Mavi ləpələr kimi.
İşdə-gücdə qabaqsan;
Cavab verir Polad ki:
– Bəlkə sözündə haqsan...
– Birinci yer tutursan üzməkdə sən hər dəfə.
Nişana atan zaman sərrast dəyir hədəfə...
Belə söhbət edəndə iki yoldaş mehriban
Gəlib keçir onların bir sadə qız yanından.
Ötür salamlaşaraq, incə gülümsəyərək.

Ötür səhər yeli tək.
Qız bu iki cavandan azca aralanmamış
Polad çevrilib dala,
Baxır gedən marala.
Görəsən bu dünyada qəlbi dalğalanmamış
Bir cavan tapılarmı?
Sevişməyən də varmı?..
Mühəndis yoldaşının Günəş baxıb üzünə
Davam edir sözünə:
– Bir dəfə dedilərmi, ay Polad, çox dalasan!
Elə bir sahə varmı ki, sən geri qalasan?
Polad bir ah çəkərək, əziz Günəş, var, dedi,
Açıb gizli sirrini yoldaşına söylədi:
– Dostum, eşqə düşəli
Mən sevgi dünyasında geri qalıram, bəli.
Bax, o gedən qızla heç dil tapa bilməyirəm.
Görünür az sevirəm, ya ki, sevilməyirəm.
Ya da ki, çox sevirəm, eşqimiz şiddətlidir,
Ya mən acıdiləm çox, ya da qız hiddətlidir.
Deyirəm: xoşdur səhər,
Deyir o dərhal: məgər
Mümkünmüdür unutmaq şən gecənin hüsnünü?
Deyirəm: sevimlidir qarlı, gözəl qış günü,
Deyir: qışın öz yeri, baharın öz yeri var,
Gözəl görünməyirmi gül açanda ağaclar?
Əslində bu da düzdür, etiraf edirəm mən.
Sözümüz çaş-baş gəlir bilməyirəm bəs nədən?
Ah, nə deyim, bəlkə də, belə olur məhəbbət?!
Deyib qəlbində riqqət
Döndü həmən geriyə gördü baxır qərarsız
Yanlarından gedən qız.
Dostundan ayrılaraq onun yanına getdi,
Bizim bu sevgililər qoşa nəzərdən itdi...
Görəsən bu dünyada qəlbi dalğalanmayan,
Məhəbbətlə yanmayan
Bir cavan tapılarmı?
Sevişməyən də varmı?

1954

AY QARABUĞDAYI QIZ

Mən bir kənd müəllimi,
Sən də bir kolxozçu qız.
Günəş kimi nur saçır
İqbalımız, baxtımız.

Bu gün səhər düşündüm,
Gedib dərin xəyala:
Nə xəncərdir qaşların,
Nə gözlərin piyala.

Nə duruşundan gözəl
Tərlana oxşayırsan,
Nə də ki, yerişindən
Ceyrana oxşayırsan.

Soruşsalar niyə bəs
Mən sənə vurulmuşam.
Eşqin asimanında
Qanad çalan bir quşam?

Deyim ki, şux sevgilim
İpəklərdən incədir?
Şəkər kimi, bal kimi,
Qənd kimi şirincədir.

Yox, səni oxşatmayım
Nə şəkərə, nə bala.
Nə tərlana, turaca,
Nə ceyrana, marala.

Sən bahar həyatımda
Çiçəklənən əməlsən.
Sadəcə varlığınla
Gözəllərdən gözəlsən.

Günəş batan zamanlar
Çıxıram yol üstünə.

Səni gördüyüm anlar
Dünya verilir mənə.

Bizim pambıq çölləri
Yavıqdır xeyli kəndə.
Mənə uzaq görünür
Yolunu gözləyəndə.

Eşqə düşən könlümü
Eləmisən qərarsız,
Mən səni çox sevirəm,
Ay qarabuğdayı qız!

VƏTƏN TORPAQLARINDA

Maşın-maşın dalınca taxta ev gətirirlər.
Əlinə baltasını quş kimi, xarrat alır.
Dəstə-dəstə adamlar qızğın işə girirlər,
Sevinib qara torpaq ilk dəfə həyat alır.

Traktorlar işləyir, gülür torpağın üzü;
Bu gün doğubdur deyir həyatımın gündüzü.

Kimisi yer şumlayır, kimisi ev ucaldır,
Qarşılayırlar belə əzizimiz baharı.
Deyirlər: "Ana torpaq, oyan, başını qaldır,
Biz gərək canlandıraq boş qalan səhraları".

Axşam...
Quşlar elə ki, yuvalarına döndü,
Onlara da, elə bil, yer qəribə göründü.
Eşitdilər ilk dəfə burda insan səsini,
Onun səadət adlı ən gözəl nəğməsini.
Gecə gəldi...

Ulduzlar yenə məclis qurunca,
Ay, üz-üzə durunca
İlk evlərin nurilə, süzdükcə süzdü mat-mat,
O da bu səhralarda sezdi yeni bir həyat.
Ay batdı...
Dan söküldü. Aləm nura boyandı.
Sanki torpaq ilk dəfə yuxusundan oyandı.
Nəğmə deyib çağladı elə bil gedən sular,
Elə bil axmamışdı bir yol belə şən sular.
Göy otlar bu gün daha yaşıllanmışdı sanki,
İnsanın qayğısını duymuşdu çox güman ki,
Gülürdü daş-kəsək də,
Biz desək, deməsək də.
Meh sığal çəkən zaman aqronomun telinə,
Bir ovuc torpaq aldı o, fərəhlə əlinə.
Baxdı, güldü müqəddəs diyarı gözlərində,
Güldü bu xam torpağın baharı gözlərində.
Dedi: neçə əsrdir görən bu torpaq yatır,
Burda baş qaldırmamış neçə yaşıl bağ yatır?
Neçə pambıq çölləri, bərəkətli zəmi var,
Bu xam çöllərin hələ bu gündən aləmi var.
Canlandı ovucunda torpaq bir səhra kimi,
Taxıllar dalğalandı gözündə dərya kimi.
Fikir verib, sünbüllər gördü yaxşı dolubdur,
Qızıl kimi hər dəni birə on beş olubdur
Torpaq əlində getdi sevinib iş yerinə,
Getdi vətən adından vətənin çöllərinə...

1954

BULUDLAR

Ağ buludlar,
dağ buludlar,
Ay qalaq-qalaq buludlar,
Bir an uzaq getməyiniz.
Füzulinin sözü vardır,

Bağdadı tərk etməyiniz.
Deyirlər ki, ta əzəldən
Tükənməzdir qüdrətiniz;
Azadsınız asimanda,
Gəzir dildə şöhrətiniz.
Yox, mən sizə bənzətmərəm
Əsla şair xəyalımı?
Daşıyıram öz qəlbimdə
Dağdan ağır məlalımı.
Siz tufana tabe olub
Qorxursunuz, hürkürsünüz.
Başınızda göy gurlasa
Göz yaşları tökürsünüz.
Mənsə min yol rast gəlmişəm
Qasırğalı tufanlara.
Baş əymədim şimşəklərdən
Qorxunc olan sultanlara.
Xeyli qadir yaratmışdır
Guya çərxi-fələk sizi;
İstədiyi səmtə qovur,
Mən görürəm, külək sizi,
Yox, yox, azad deyilsiniz,
Zərbə vurur ruzgar sizə.
Mən göylərin qucağında
Ad verirəm qubar sizə.
Mən həsrətəm azadlığa.
Ancaq bilin, səhv etmərəm,
Ay buludlar, mən özümü
Əsla sizə bənzətmərəm.

HEÇ DƏ HƏSƏD APARMIRAM

Durnalar, ay durnalar!
Salıb haray durnalar,
Ötüb həzin, keçirsiniz,
Bu göl xoş gəlməyəndə,

O çeşmədən içirsiniz.
Dilənsə də əlimdə saz,
Qan içənlər duymayırlar.
Tənə vurur hər yaramaz,
Öz xoşuma qoymayırlar.
Vəsf etdikcə gözəlləri
Küfr deyə lənətlənir
Füzulinin qəzəlləri.
Durnalar, həzin durnalar,
Dolanın, gəzin, durnalar!
Mən də quşlar yatağıyam,
Çəmənzaram, gül bağıyam,
Ötən şeyda bülbülüm var,
Ətir saçan tər gülüm var.
Var turacım, torağayım,
Amansızdır, lakin həyat,
Bilinməyir haqq-sayım.
Yaralıdır, axır qanı,
Ovçu vurdu turacımı,
Ancaq yenə insanlarda
Mən görürəm əlacımı.
Dünyanın var əzab dolu
Enişləri, yoxuşları.
Şeirlərim həyatımın
Pərvazlanan bu quşları
Əminəm ki, uzun zaman
Göydə qanad açacaqdır;
Siz uçmayan mənzillərə
Şerlərim uçacaqdır.
Füzuliyəm, a durnalar,
Ah-nalə qoparmıram.
Uçursunuz, uçun, sizə
Heç də həsəd aparmıram.

1960

LİVAN BAĞINDA

Ağaclar müxtəlifdir,
  barlı,
      barsız olurlar.
İnsanlarçın yararlı,
  karlı,
      karsız olurlar.
Vaxt olur həkim kimi qardan paltar geyir bağ,
Zaman gəlir ağaclar açır təptəzə yarpaq.
  Fəsillərin vaxtı var.
Hərənin öz qanunu, öz hökmü, öz taxtı var.
  Lakin ömrümdə bir il,
  Bir il deyil, bir fəsil
  Güman elədim ki, mən
  Görürəm iki fəsli
  Bir fəsildə birləşən.
Uzaq məmləkətlərin birində duydum bunu.
Sandım ki, pozulubdur təbiətin qanunu;
Çıxmışdım səyahətə bir bağ gördüm Livanda.
  Elə bil ki, dumanda
Ulduzlu, nur saçırdı sarı portağalları,
Fanuslar bəzəyirdi şaxələri, dalları.
Ağacların bildirki bəhəri dərilməyib,
Satılmağa bazara tamam göndərilməyib,
Payızı da, qışı da budaqlarda yatıbdır,
Gəlib bir də çiçəkli ilk bahara çatıbdır.
Göz işlədikcə şaxlar, görürəm ki, barlıdır.
Bəs niyə ağacların üstü belə qarlıdır?
  Heç görmüsənmi bağa
  Bahar vaxtı qar yağa?
Bu nə sayaq, qəribə, müəmmalı bir işdir,
Axı belə möcüzə heç vaxt görünməmişdir?
Yaxınlaşıb görürəm çiçəkdir bu, qar deyil,
Yox, ağaclar qar altda yatan ağaclar deyil.
Sual verdim bağbana, mənə elədi hörmət,
Dedi: "Əsla deyil bu nə möcüzə, nə hikmət.

Bağçılar bu tədbiri çox sərfəli sayırlar.
Çürüyüb zay olmasın, xarab olmasın deyə
Uzun zaman meyvəni ağacda saxlayırlar.
Zövq-səfa çəkməyə siz gəlib sərinliyə,
Baxırsınız ağacda çiçəyə də, bara da,
Baxırsınız, deməli, payıza, bahara da..."
Belə söhbət edərkən
Bir qız uşağı gördüm barının yanında mən.
Baxırdı gözlərini zilləyərək şaxlara.
Bunu qüsur tutmayaq, gəliniz uşaqlara,
İstədim ki, soruşam: "O sənin balanmıdır?
Bir portağal ucundan bağrı laxta qanmıdır?
Niyə girməyir bağa?
Yoxsa qoymayır ağa?
Bir portağal dərərsə yoxsa qilü-qal olar?
Bu bir portağal dönüb min bir portağal olar?
Səbəb olar kəsərlər balaca maaşını?
Tənələr yağdırarlar, ağrıdarlar başını?.."
Yox, yox, sual vermədim,
Portağal da dərmədim
Verməyə qızcığaza.
Döndüm qərib ölkədə
Simi qırılmış saza.
Oldum halı pərişan...
Livanda tərk elədim axşam üstü o bağı,
Lakin nəzərlərimdən çəkilmədi bir zaman
Barının yanındakı o solğun qız uşağı...

Livan, 1960

BAĞDAD GECƏLƏRİ

Nurlu, işıqlı olur
Bağdadın gecələri.
Çox yaraşıqlı olur
Bağdadın gecələri.

Qaranlıq çökən zaman
Alverçilər yatırlar.
Səhər, neylon, şal, ipək,
Bir də vicdan satırlar.

İnsanın uzaqlara
Gedir burada ağlı.
Elə bil Harun Rəşid
Oturub öz taxtında;
"Min bir gecə" nağılı
Danışır ərəb qızı,
Bu nağıla bağlıdır
Onun tale ulduzu.
Danışır o, şad deyil...
Yox, doğru yazmayıram,
Bağdad o Bağdad deyil.
Həqiqətə gəlincə,
Elə bu sakit gecə
Mədh edərkən azançı
Minarədən Allahı,
Qurban gedir gülləyə
Bir mərd ərəb fəllahı.
Məcnun köçür, vaveyla
Qoparır evdə Leyla...
Fəğanlı, ahlı olur...
Bağdadın gecələri
Bəzən günahlı olur.
Bağdadın gecələri.

Bağdadda gənclər edir
Ulduzlara tamaşa.
Bəlkə onlar bu gecə
Xurmalıqda baş-başa
Verib, doğma İraqın
Şəhərindən danışır.
Bu aylı gecələrin
Səhərindən danışır?!

Danışır çilçıraqlı
Bağdad gecələrindən,
Ərəblərin həqiqi
Azad gecələrindən...

Bağdad, aprel, 1960

ƏRƏB QIZI

Ərəb qızı, eşitmişdim
Zaman-zaman söhbətini,
Nazlı afət, görməmişdim
Ancaq gözəl surətini.

Sən keçəndə ceyran kimi
Mümkünmüdür dayanmamaq?
Seyr etməmək qamətini.
Sevinclərə boyanmamaq?

Nə insafsız olmuş qədim
İnsanlar, ay ərəb qızı?
Sənə heyran ikən günəş.
Ulduzlar, ay, ərəb qızı.

Çürütdülər həyatını
Dörd divarın arasında.
Yuva saldı gizli həsrət
Gözlərinin qarasında.

Cəfa çəkdin zaman-zaman
Ah, nə qədər ağ etdilər.
Qız doğanda yer üzünə
Səni daşqalaq etdilər.

Heykəltəraş yonmalıykən
Qranitdən heykəlini,
Azadlıqdan elədilər
Məhrum ərəb gözəlini.

Getdi o çağ, getdi o dəm,
Ərəb qızı, indi sənə
Heyran olur bütün aləm.

Dayan, baxım camalına;
Üz döndərib yan durma, gəl,
Qahirənin qonağını
Atəşlərə yandırma, gəl.

Azər oğlu alovludur,
Sən də salma od canına.
Bu qaydadır hörmət elər
Ev sahibi mehmanına.

Ərəb qızı, axma desən
Bir sözünlə Nil dayanar.
Səndən alıb şöləsini
Çilçıraqlar eldə yanar.

Bəsrə, 1960

GƏL ÖTMƏ ETİNASIZ

O bir varlı balası,
Mən isə fəllah oğlu.
Hər ikimiz sevirik
Səni, gizli deyil bu.

Hamı bilir ki, onun
Varı, dövləti vardır;
Vicdanı, eşqi ancaq
Dinar, yenə dinardır.

Bazar kasad olanda
Unudacaq o səni.
Puldur dini, Allahı,
Satar pula vətəni.

Düşün dediklərimi
Gəzərkən xurmalığı.
Yaşamaz əgər sudan
Çıxarsalar balığı.

Sənsiz bircə anım da
Olmayacaq, gözəl qız!
İnsaf elə yanımdan
Gəl ötmə etinasız.

Mən evə səndən ötrü
Halal çörək gətirrəm.
Alovlu saf məhəbbət,
Təmiz ürək gətirrəm.

Əgər vətən yolunda
Töksələr al qanımı.
Bayraq kimi saxlaram
Ləkəsiz vicdanımı.

Sən ki, yoxsul qızısan
Uyma vara, dövlətə.
Məhəbbəti dəyişmə
Bər-bəzəyə, zinətə.

Gəzərkən göy çəməni
Hasar bilmə sən məni.
Şanamsa, gəl balım ol.
Bəxtim ol, iqbalım ol.

Səhrayam, üstümdən öt
Axan sərin su kimi.
Göləmsə qoynuma en
Sona kimi, qu kimi.

Çəməməmsə gəl mənim
Gül açan baharım ol.
Binayamsa – dirəyim,
Sütunum, divarım ol.

Əgər göysən – ulduzun,
Ayın, günəşin olum.
Ocaqsansa – yox sözüm,
Sönməz atəşin olum.

Mən eşqdən salmışam
Ürəyimdə bağ sənə.
Sürətli Dəcləsənsə,
Olaram yataq sənə.

Əgər vüqarlı dağsan,
Torpağın, daşın olum.
Eşq həyatın naxşıdır
Hər şeydən bu yaxşıdır:

Həyat yoldaşın olum.
Mədinə! Sevimli qız!
İnsaf elə, yanımdan
Gəl ötmə etinasız.

1960

FATİMƏNİN TALEYİ

Fatiməni böyütdü
Min əziyyətlə fəllah,
Həmyerlilər deyirdi:
"Kefi kök vaxtı Allah
Yaratmışdır bu qızı,
Heyif hələ doğmayıb
Əsl tale ulduzu".
Atası çox kasıbdı,
Bir ovuc torpağı yox,
Əziyyətlər çəkərək,
Özgəyə yer əkərək
Dolanırdı birtəhər.
Mərakeşdə bu sayaq

Ömür sürür ərəblər.
Qız, arxaydı ataya;
O, zəif əllərilə
Yer şumlayırdı bəzən
Özgənin kəllərilə.
Qulağında sırğası –
Anasının öyüdü;
Namusla ömür sürüb,
Qız günbəgün böyüdü.
Varlı bir ərəb oğlu
Dedi bir gün fəllaha:
"Fatiməni alıram,
Bundan belə bir daha
Günlərini sürmə sən
Əziyyətin içində;
Dolanarsan fərəhlə
Var-dövlətin içində".
Fəllah inandı ona,
Baxdı göyün üzünə;
– Şükür – dedi –ilahi,
Balam çıxır ağ günə.
Qız belə getsə ərə,
Doğrudan da o düşdü
Görmədiyi günlərə.
Lakin bir ay keçməmiş
İqbal döndü, dəyişdi.
Qız bilmədi heç əsla
Bu nə qəza, nə işdi...
Qovdular Fatiməni
Dedilər: "Qulluqçu da
Bu ev saxlamaz səni".
Döndü daxmalarına
Qız pərişan-pərişan.
Çevrilib yuxu oldu
O toy-düyün, o nişan.
Oğlansa getdi yenə
Bir qız da aldatmağa,
Dil töküb evlənməyə,

Sonra yenə atmağa...
Fəllah qəm içdi bir də
Əsrin peymanəsindən,
Lənətlərlə söz açdı
Dönük zəmanəsindən.

Tanjer, 17 fevral 1960

FÜZULİ

Füzuli! Həyatın qürbətdə keçdi,
Ömrün məşəqqətdə, möhnətdə keçdi.
Yaşamış olsan da ərəb elində
İncilər yaratdın azər dilində.
Qədrini bilmədi sultanlar sənin,
Əsdi üzərindən tufanlar sənin.
Əymədin şahlara məğrur başını,
Yarın qiblə sayıb qələm qaşını
"Ən güclü hökmdar gözəldir" dedin.
"Gözəlsiz bağçalar xəzəldir" dedin.
Bir sənəm gülüşü, xumar baxışı,
Bir nazlı dildarın sakit axışı
Döndərdi təbini coşqun Fərata.
Sən ümid bəslədin gözəl həyata.
Özün yaşasan da ağ günə həsrət,
Dedin ki, var olsun həyat, məhəbbət.
Şirindir aləmdə vəsli-yar dedin,
Bəxtiyar yaşasın insanlar dedin.
Olmadın qulamı heç bir şahlığın,
Çünki aşiqiydin xeyirxahlığın.
Zərbələr endirib riyakarlığa,
Minbir alqış dedin təmiz varlığa.
Fəqət payın oldu kədər, qəm, fəraq.
Torpaq gətirmişəm, bir ovuc torpaq,
Qəbrinin üstünə tökürəm onu,
Torpaq əzizləyər sadiq oğlunu.

Söyləmə ümidim getdimi bada?
Nəsibim nə üçün fəğandır, ahdır.
Füzuli! Məzarın qoca dünyada
Əsrlərdən bəri ziyarətgahdır...

Karbəla, 1960

PƏNCƏRƏNİN QABAĞINDA

Ərəb qızı, ərəb qızı,
Bağdadın qönçələb qızı!
Söylə görüm nədən belə
Şən gözlərin qapqaradır?
Xilqət səni yaradanda
Bilirdimi nə yaradır?
İnsanmısan?
Mələkmisən?
Tərlanmısan?
Çiçəkmisən?
Sən könüllər sarayında
Ən incə bir diləkmisən?!
Öyrənmisən kimdən belə
Oğrun-oğrun baxmağı sən?
Sular kimi sakit axıb,
Alov kimi yaxmağı sən?
Mən ərəbcə bilməyirəm,
Sən də mənim lisanımı.
Öldürməksə qəsdin əgər,
Nə deyirəm, al canımı.
Yox, görürəm, hiss edirəm
Sən bir şəfqət qaynağısan.
Duruşunla, baxışınla
İlk məhəbbət bulağısan.
Sənə Fərat deyəcəkdim,
Baxdım coşqun Fərat sənsən.
Həyat sözü dilə gəldi,

Gördüm əsl həyat sənsən.
Bahar demək istəyəndə
Aşiqindir bahar gördüm.
Nəğmə deyir camalından
Cəh-cəh vuran quşlar gördüm.
Sən onların dinləyirsən
Saatlarla nəğməsini.
Görünür ki, çox sevirsən
Şən quşların xoş səsini.
Bu səbəbdən istəyirəm
Mən də ötən bir quş olum.
Bağça-bağda səhər axşam
Göy budağa qonmuş olum.
Cəh-cəh vurum bülbül kimi
Səhər-axşam gül bağında.
Azadlıqdan nəğmə ötüm
Pəncərənin qabağında...

DURNALAR

Durnalar, qatar-qatar
Yurdumu tərk edəndə,
Ərəb torpaqlarına
Bizdən qonaq gedəndə
Hansı gölün suyundan
İstəyirsiniz için!
Qış fəslində yurdunuz
Bəsrə, ya Bağdad olsun:
Ancaq ki, Füzulinin
Qəbri üstündən keçin;
Qoy o nakam şairin
Ruhu bir az şad olsun.
Söyləyin: "Biz gəlmişik
Xəzərin sahilindən,
Həsrətini çəkdiyin
Azərbaycan elindən".
Deyin ki, çox andığın

Fərağilə od tutub,
Çıraq kimi yandığın
Azərbaycan bircə gün
Heç sənsiz olmayıbdır.
Axı dahi adamlar
Vətənsiz olmayıbdır.
Durnalar, qatar-qatar,
Bağrım başı od tutar,
Bir an yerə salsanız
Əgər mənim ricamı.
Ən uca qarlı dağlar
Sizdən ötrü ucamı?
Yox, ötün ümmanları,
Arxada çöllər qoyun,
Aparın töhfəsini
Hər şadlığın, hər toyun
Bəsrə, Bağdad elinə.
O şair ki, dərdini
Açdı sabah yelinə –
Ona salam aparın
Doğma kəndi Boyatdan.
Ona müjdə yetirin
Bizim bu şən həyatdan.
Uçun Bağdad elinə,
Yolunuzdan qalmayın,
Mənim də xahişimi
Ancaq yerə salmayın!

Bakı, 1960

VİRAN QALDI OTAĞI

Qız oğlana söylədi:
"Sənə gələrəm, əgər
Salsan öz əllərinlə mənə portağal bağı".
Oğlan dedi:
"Baş üstə" Əhd-peyman etdilər.

Dedi
Əsgər
Bilmədi öz işini yaxşı görüb hiylə, şər.
Söylədi:
– Yadlar səhər bağıma uğradılar.
Körpə ağaclarımı sındırıb, doğradılar.
–Yalan, ilqarın hanı?
– Mən yalançı deyiləm!
– Qırdın əhd-peymanı!
–Yox, əsla, yox, gəlmələr,
– Kimə gərək saxtalıq, hədərdir bu kəlmələr.
– Xainsən, yetirmədin əhdimizi yerinə,
Görünmə Ayişənin bir daha gözlərinə.
Vicdan sevgi düşməni deyib çıxıb getdi qız,
Göz yaşları içində Əsgəri tərk etdi qız...

Oğlan donub yerində sal bir daş kimi qaldı.
Gün batdı, qaş qaraldı.
Yad əllərilə oldu sevgi bağçası viran,
Taxta çıxdı rəzalət, yenə oldu hökmran...
Bir səs gəldi elə bil: "Dur haqqını tələb et!"
Hərəkət etdi Əsgər, üz tutub uzaqlara.
Ağır-ağır gedərkən oğlanı uddu zülmət.
Bilən tapılmadı heç yönəldi Əsgər hara!
O getdi, arxasında viranə bağı qaldı,
İçində yellər əsən tənha otağı qaldı...

1961

SANKİ HEÇ NƏ OLMAYIB

Heç nə baş verməyibdir sanki bu gün Livanda,
Sakitlikdir limanda.
Bu dünyada var ağ gün, var qara gün yaşayan.
Bəxti kəm insanların biridir yükdaşıyan
Beyrutlu qara fəhlə.
Xəstə yatır əyalı,
Pərişandır xəyalı.

Tay deyil, aparırdı dalında qəm dağları,
Sökülüb, uçulurdu can mülkünün tağları.
O, birinci gündü ki,
Fikirləşdi bir anlıq görəsən bu indiki
Apardığım dopdolu yeşiklərdən çoxmudur?
Dünyada taydan savay başqa bir şey yoxmudur?
Gəmilər gedir hara?
Yüklər kimin malıdır?
Kimlər satır?
Alanlar görəsən haralıdır?
Qəribə yazılar var tayların üzərində...
Dünya bir yükə döndü fəhlənin nəzərində.
O, sonra düşündü ki, maaş günüdür bu gün
Gedərəm arvad üçün
Alaram dərman-dava,
Fəqət güman etməyin o yoxsul deyən oldu:
Fələk istəyən oldu...
Çıxmışdı arxasınca azğın fəlakət ova.
O qalxırdı gəmiyə ağır bir tay dalında.
Düşüncələr yoldaşı,
Bir dəyişiklik oldu bu zaman əhvalında.
Hərləndi xeyli başı.
Ona elə gəldi ki, ağlayır uşaqları.
Yumub xəstə qadını əbədilik gözünü.
Deməli, öldü qarı
O itirdi özünü.
Tay dalından sürüşdü,
Dərhal dənizə düşdü.
Heç nə baş verməmişdi elə bil ki, Livanda,
Heç bir şey olmamışdı, sakitlikdi limanda.
Kontora çağırdılar azca keçməmiş onu,
Dedilər izləyirsən azğınların yolunu,
Üzərinə o qədər qüsur, günah yıxdılar.
Verib haqq-hesabını onu qovdular, işdən
Ağır zərbələr yedi bu fəhlə də gərdişdən...
İş yenə qaydadadır... Liman sakit, liman lal.
Yenə də xəstəsinə ala bilməyib dava,

O nə banan, nə metal, nə xrom, nə portağal
Daşımayacaq artıq,
Gedir yorğun, baş açıq.
Möhnət ağır tay kimi oturub arxasında...
Aralanır körpüdən gəmi içi dopdolu.
Uzaq sahillər yolu.
Yox, özü bir gəmidir o, qəmlər dəryasında
Gedir xeyli ümidsiz, gedir qəlbi gümanda
Heç nə baş verməyibdir elə bil ki, limanda.
O, bilmirəm nə sayaq ömr edib yaşayacaq!
Bilirəm ki, bir zaman müsibət daşıyacaq.
Bilirəm dalındakı belə taydır, bu yükdür
Onun dərdi böyükdür.
Fəlakətlər mülkünün qapısının layları
Açılmışdır üzünə, dalında qəm tayları,
Ağır-ağır gedir o, yenə ürəyi qanda...
Heç nə baş verməyibdir elə bil ki, limanda...

1961

RESTORANDA

– Dayan, girmə içəri!
Gəlmə restoranıma, tez ol qayıt, dön geri.
– Niyə?
– Rəngin qaradır.
– Mən ərəbəm.
– Əzizim, rəğbətim ağlaradır.
Ancaq elə sanma ki, ərəblərlə qanlıyam,
Mən də bu torpaqdanam, özüm də livanlıyam.
– Eləysə bəs ərəbə bu kin, bu ikrah nədir?
– Yox təqsirim bu işdə, günahkar zəmanədir.
Neyləyim ki, taleyin xeyli ayaqyalındır,
Rəngin qara, sallanan dodaqların qalındır?
Xaricilər nə bilsin ki, sən ərəb gəncisən,
Ağlar bağıracaqlar ki, qarasan, zəncisən.
Deyəcəklər buraya ayaq basıbdır nədən?

Serlərə, misterlərə nə söyləyim onda mən?
Bax, sahildə görürsən varlı gəlmə ağları,
Onlara nəğmə deyir suların dodaqları.
Çimirlər, gülüşürlər.
Dəstə-dəstə suların qucağına düşürlər.
Sərələnib qumlara bir az dincələcəklər,
Sonra bura yeməyə, içməyə gələcəklər.
Səni görmüş olsalar, onda mənimki bitdi,
Qazancımın açarı düşüb qumlarda itdi.
Artıq yeməkxanama bircə əcnəbi girməz,
Ağalar bu salona bircə xanım gətirməz.
Çıx get!
– Axı mən acam, suzundan da yanıram.
– Heç nə edə bilmərəm.
– Anlayıram, qanıram.
Baş əy bu adətinə,
Qazanc sövq edir səni vicdan ticarətinə.
Səndə yox ərəb qanı.
– Oğul, höcət nə gərək, tərk et yeməkxananı.
Cibində xeyli dinar ərəb oğlu qaldı ac.
Çıxıb getdi naillac.
Keçdi bir park yanından, o park gəlmələrindi,
Təntənəli saraydan musiqi səsi dindi,
Yüksəldi pərdə-pərdə,
Ağlarındı o yer də.
Var xəstəxanaları, xüsusi məktəbləri,
Götürməzlər oraya heç sayaq ərəbləri.
Bax, sahil nə genişdir.
Göydən yerə od yağır.
Fəqət çimə bilməsən ağların arasında,
Yuyun sən ömrün boyu bircə qəm dəryasında...
Yollandı ağır-ağır,
Onun dərdi böyükdü yurdunun dağlarından
Sırğa kimi asıldı sözlər qulaqlarından:
– "Dayan, girmə içəri!
– Gəlmə restoranıma, tez ol qayıt, dön geri".
– Niyə?
– Rəngi qaradır.

Rəğbətim ağlaradır.
Üzülərkən acından, yollandı Mədinəyə[1],

Çəkib ayaqlarını o gərək aparaydı.
Özü ərəbdi, rəngi zənci kimi qaraydı...

1961

UÇURUN DAXMALARI

Bakını gözəlləşdirən, əzəmətli
binalar tikən ustalara ithaf edirəm.

Uçurmağı, sökməyi lənətləmiş babalar,
Daş üstə daş qoymağı sevmiş ellər, obalar.
Xoşlamış kənd yerinə büllur bulaq çəkməyi,
Yol üstündə qatarla körpə ağac əkməyi.
"Əkiblər bar yemişik – əkək nəsillər yesin,
Ağac kölgəliyində yolçular sərinləsin.
Ev dağıtmaq yamandır,
Ev uçurma, amandır!
Ağır günaha batma,
Fəlakətlər yaratma!" –
Belə olmuş sözləri.
Saf niyyətdən doymamış
Ürəkləri, gözləri.
Bəs bu gün cərgə-cərgə sökülərkən binalar,
Niyə sevinir, gülür gənc atalar, analar?
Bu çox təbii haldır,
Bu özgə cah-cəlaldır.
Hələ qədim zamanlar yarananda araba
Belə deyənlər olmuş: "Gözün aydın, ay baba!"
İki günə çatıblar Şamaxıdan Bakıya,
Zümzümə eləyiblər, ağrılar duya-duya.
Zaman gedib qabağa, fayton da, qazalaq da

[1] Şəhərin ərəblərə aid olan köhnə hissəsinə işarədir.

Qalıb xeyli uzaqda.
Bir gün də neft çıxaran dəmir jalonka çıxdı,
Bakının qucağına cüt atlı konka çıxdı.
Adamların sevinci sahil nədir bilmədi,
Əcdadımın mindiyi araba sevilmədi.
İşlədi ildən-ilə
İnsanların zəkası
Çatdı uzaq mənzilə.
Zaman keçdi, Bakıda görünəndə tramvay,
Şadlıq mərasiminə qonaq gəldi Günəş, Ay.
Bir gün də bəyənmədik, sevmədik bu sürəti,
İnkişafı xoşlayır insanın təbiəti.
"Zamanın arabası" yaxşı ad verdik ona,
Trolleybuslar bizi aldı qəşəng qoynuna.
Deməyirəm mən hələ,
Alıb sərnişinləri,
Dönüb əsən ağ yelə
Bircə günə bir aylıq
Uzun, ağır yolları
Quş kimi süzüb keçir –
Elektrik qatarı.
Baxıb səma tərəfə,
Ayırmayıb bu dəfə
Sizləri əsla yerdən;
Başlamayım söhbətə
Nəhəng təyyarələrdən;
Çox kənara qaçmayım,
Raketadan maraqlı,
Dərin söhbət açmayım.
Kim bilir, sabah insan nələr icad edəcək!
Gələcək nəsilləri daha da şəd edəcək.
Çıxaracaq cərgədən
Aya uçan raketi,
İnanıram buna mən.
Biz qururuq bəxtəvər azadlıq dünyasını,
Sözlər belə dəyişir öz köhnə mənasını.
Bəli, köhnə evləri kökündən uçururuq,

Yenisini tikirik, təzəsini qururuq.
Saraylar ucaldırıq daxmaların yerində
Ağ günlərin bu evlər üzür şəfəqlərində.
Yox, bu, ev yıxmaq deyil, kaşanə qurmaqdı bu,
Bu "uçurmaq" yurdumun simasını dəyişir –
Yaxşı uçurmaqdı bu!
Sökün kiçik damları!
Siz ey azad yurdumun yaradan adamları!
Zəmanənin çox gözəl şeridir zəhmətiniz,
Hələ verilməyibdir sizin şeriyyətiniz.
Çox sürətlə uçurdun, yıxın köhnə evləri,
Göydələndən seyr edim hər açılan səhəri.
Mən bu əməlinizi xeyirxahlıq sayıram.
Sizin əllərinizlə gələcək ağ günləri
Mən də qucaqlayıram.

1963

EY HƏKİM

Sən əlac eləyirsən gözlərimə, ey həkim!
Nə olar bir qulaq as sözlərimə, ey həkim!
Heç zaman, bir kimsəyə belə yalvarmadım mən,
Deyirlər Mələkxanım gedir daha əlimdən.
Onsuz bu dünya mənə qatı zülmət gecədir.
Burax gedim, baş çəkim, görüm halı necədir?
Onsuz mənə, ey həkim, əlac, şəfa nə gərək.
Dünyanı tərk eləyib gedəsidirsə Mələk,
İtiriəmsə əgər o səmimi xilqəti
Görməyimin qalmayır daha bir məziyyəti.
Qoy kor olum, qalım qoy dünya üzünə həsrət.
Gərək deyildir onsuz mənə bir naz-nemət.
Öz dərdimi yadımdan çıxarmışam, ey həkim!
Qoy həyat loğmanına gedim bir yol baş çəkim...

20 May 1964

ZƏFƏR TƏRANƏSİ

Qabaqcıl pambıqçılarımıza ithaf edirəm.

Qalxdıqca pərdə-pərdə
Gülüşünüz göylərə,
Yayıldıqca hər yerə
Quşlar qonub köbərdə,
Ötməyib, sizi dinlər;
A qızlar, a gəlinlər
Yenə zəfər çaldınız,
Şərəfli ad aldınız.

Siz ey tarlalar boyu
Çalışan qızlarımız!
Ürəkləri sevgidən
Alışan qızlarımız!
Dastan yaratmasam da
Mən şərəfli əməkdən,
Əl çəkməyirəm ancaq
Sizə nəğmə deməkdən.
Bahar olsun, qış olsun
Vurğunsunuz zəhmətə.
İftixarla deyirəm:
Layiqsiniz hörmətə.
Pambığınız dağ kimi,
Həvəsiniz, eşqiniz
Çağlayan bulaq kimi
A qızlar, a gəlinlər
Verin yenə səs-səsə.
Mən heyranam sizdəki
Bu eşqə, bu həvəsə.
Dinləmişəm, şeirdir
Sözünüz, söhbətiniz.
Yurdumuzu ucaldır
Sizin də zəhmətiniz...

Ey hələ coşmadığım,
Gücündən, hünərindən
Dastanlar qoşmadığım
Alnı açıq cavanlar!
Şərəfli qəhrəmanlar!
Qoy çapsın tarlalarda
Yenə polad atınız!
Şairə ilham verir,
Ruh verir həyatınız.
Bu gün el bayramıdır,
Məclisləri dolaşan
Fərəh, şadlıq camıdır.
Sən görmək istəyirəm
Yer üzündə hamını.
Təbrik edim şeirlə
Sevimli bayramını.
Ey sadə qəhrəmanlar,
Hünəriniz var olsun!
Ağ günlərə yol açan
Zəfəriniz var olsun!

1964

MƏNİM TƏNTƏNƏM

Çapıb həyat eşqinin
Yel gedişli atında,
Uçuram ulduzlara
Fərəhin qanadında.
Sevincimdən bu sonsuz
Kainatı qucuram,
Nurlu kəhkəşanların
Aləminə uçuram.
Gedirəm asimandan
Qonaq dəvət eləyim.
Uzaq səyyarələrdə
Açıq söhbət eləyim

Şanımdan, şöhrətimdən,
İnsanlıq şərəfimlə
Dərya məhəbbətimdən,
Minillik səltənətdən.
Bir gündə yıxdıq çarı.
Çoxdan əlimizdədir
Səadətin açarı,
Ağ günlər sevdasilə
Sakit həyat qurmuşam.
Nişan alıb gözündən
Düşmənləri vurmuşam.
Səsim bəşəriyyətin
Fərəh dolu səsidir.
Bu təntənəm bəxtiyar
İnsan təntənəsidir.
Firavanlıq istəyim,
Arzum gülür mənim də.
Əbədiyyət baharı
Gül açmış vətənimdə.
Qonaq gəlir süfrəmə
İnsanlar yığın-yığın
Arxasıyam əzəldən
Dostluğun, qardaşlığın.
Əlimdə ağ günlərin
Bəxtiyarlıq camıdır.
Başladığım təntənə
İstiqlal bayramıdır.
Bayramıdır şadlığın,
Əbədi azadlığın.
Əsarətin qırılmaz
Zəncirini qırmışıq.
Azadlıq bayrağını
Göylərə qaldırmışıq.
Məhrumiyyət canitək
Qaçdı məmləkətindən.
Dünya danışır indi
Mənim ləyaqətimdən;

Əbədi şüarımdır
İnsana hörmət mənim.
Yer üzünün fəxridir
Qurduğum dövlət mənim.

Çapıb həyat eşqinin
Yel gedişli atında,
Uçuram ulduzlara
Fərəhin qanadında...

1964

SAĞ OL, NEFTÇİ QARDAŞIM

Dünən zəng vurdum sizə
Təbrik etməkdən ötrü qarşıdan gələn ili.
Dedilər bir saat var yola düşdün dənizə.
Alnını oxşayarkən Xəzərin sərin yeli,
Bildim ki, hara getdin,
Qara daşlara getdin.
Deməli dostlarla sən təzə ilə girmədin.
Ziyafət məclisində vaxtını keçirmədin.
Sağlıq demədin əsla.
Piyalə qaldırmayıb,
Oynamağa sevdiyin havanı çaldırmayıb
Dənizə düşdün yola.
Yox, sən, oynaq sularla gəlib üz-üzə durdun.
Buruq otağın oldu.
Gözəl məclis də qurdun;
Şəfəqli Ay, ulduzlar əziz qonağın oldu.
Mənsə öz məclisimdə dostları cəzb elədim,
Sənin adınla bağlı qısa bir sağlıq dedim.
Çünki sən çox arzunu yerinə yetirmisən,
Bəli, vaxtı gələndə
Vətən bilir ki sən də
Təzə ilin bizimçin əlinlə gətirmisən.

Şerim buruqda çatsın sənə teleqram kimi
Əllərini sıxıram şərəfli adam kimi.
Adın çəkilən zaman göylərə dəyir başım,
Sağ ol, neftçi qardaşım!

1964

MƏHƏBBƏTİN VARSA

Bəyəndiyin yola sən yönəl etiqadla get,
Xətər gəlməz adına,
Çatarsan muradına,
Varsa tutduğun yola ürəyində məhəbbət.
Baxça-bağ sal, ağacək.
Şitillərə qayğı çək.
Bir gün əyib onların bəhərli şaxlarını,
Dərərsən iftixarla meyvəsini, barını.
Səninki olar yəqin sevinc, fərəh, səadət –
Varsa tutduğun yola ürəyində məhəbbət.

Şaxtaçı ol, çoban ol.
Mətanətli, dözümlü, dəyanətli insan ol.
Balıqçı ol, inadla suları yara-yara
Sinə gər dalğalara.
Qabağında quzuya çevrilər tufan belə.
Aslanı ram edərsən, şir olar maral kimi.
Çətinliklərdən əsla çəkinmə bir an belə,
Sən bu mavi göylərə qanadlan qartal kimi;
Əyilər qabağında zaman-zaman təbiət –
Varsa tutduğun yola ürəyində məhəbbət.

Özünə sənət etsən uca dağlar yarmağı,
Dəniz mədənlərindən qara neft çıxarmağı,
Dedim, deyirəm yenə
Çıxaracaq ağ günə
Əlbət səni bu sənət –

Varsa tutduğun yola ürəyində məhəbbət.
Ümmanlarda tufana, dağa borana düşsən,
Bir gün üzbəüz gəlib ildırımla döyüşsən,
Zəfər çalarsan yəqin, qalib çıxarsan əlbət –
Varsa tutduğun yola ürəyində məhəbbət.

Məhəbbətsiz bir könül sınmış quru budaqdır;
Varsa eşqin, əməlin könlün vüqarlı dağdır,
Özün de, nəyə gərək
Etiqadsız, əməlsiz, məhəbbətsiz bir ürək.
Şərəflənər əlinlə bağlandığın hər sənət –
Varsa tutduğun yola ürəyində məhəbbət...

1964

XƏYALLAR ALƏMİNDƏ

Oturub göyərtədə cavan mühəndis yenə,
Papiros çəkib, baxır Xəzərin sinəsinə.
Neçin o şən oğlanın ağzı, dili bağlıdır?
Qoşulmayır nədən bəs yaxın yoldaşlarına?
Səma bombozdur, hava bir qədər sazaqlıdır.
Düşüb yola motorlu qayıq Neft daşlarına.
Xəyallar qanadında alıb aparır onu,
Dəniz buruqlarının gənc mühəndis oğlunu,
Gah çatılır qaşları, gah gülür dodaqları,
Gah yaxını görməyir, gah süzür uzaqları,
Nə olubdur görəsən?
Qoy deyim, can evinə onun yol tapmışam mən.
Sanma ki, cavan oğlan xeyli adlı-sanlıdır,
Lakin öz aləmi var. Bu gün həyəcanlıdır.
Gül açan əməlləri geyinmişdir al-xara.
Təzə buruq verəcək bu səhər istismara.
Sabah üzük taxacaq yarının barmağına,
Bir ay sonra bu cavan neftçinin otağına
Ona könlünü vermiş qonşu qızı gələcək,
Eyvanından *mehriban gülüşlər yüksələcək.*

Düşünür bunları o, baxır dənizə, qaşa,
Zənn etməyin yorulur.
Bəzən insan verəndə düşüncəylə baş-başa
Dünya onunku olur...
Qarşıda Neft Daşları.
Qayıq sürətlə gedir
Çatılmışdır qaşları.
Mənim gənc mühəndisim xəyallar içindədir.
Gələcək həyatını düşünüb bu gün yenə,
Papiros çəkib, baxır Xəzərin sinəsinə...

1964

ADDIMLA CƏBHƏYƏ

Addımla cəbhəyə,
Düşmənə vermə heç aman.
Zərbə vur faşizmə,
Aslan ürəkli qəhrəman.
Əmr edir yurdumuz
Qoymasın ordumuz
Dünyada bir nəfər
Yağıdan əsər!
Qəti davada,
Yerdə, suda, havada
Sal faşist cəlladları oda.
Əmr edir yurdumuz:
Qoymasın ordumuz
Dünyada bir nəfər
Yağıdan əsər!
Yerdə dön aslana,
Göydə alıcı tərlana.
Sənsən arxam qolum.
Vətən deyir: əhsən, oğlum!..
Əmr edir yurdumuz:
Qoymasın ordumuz
Dünyada bir nəfər

Yağıdan əsər!
Müharibə öz atını yəhərləyib minməyəcək.
Top atılır... fişəng yanır.
Sarı, yaşıl, al-qırmızı
İşıq saçır, qəşəng yanır;
Xəbər verir insanların sevdasından
Arzu, əməl dünyasından...

1964

DOLU DÜŞMƏSİN BAĞA

Yenə çaxır ildırım, yenə yağış tökülür,
Elə bil ki, asiman parçalanıb, tökülür.
Dayanıb çardaq altda baxır bayaqdan bəri,
Maraqla gənc aqronom, seyr eləyir göyləri.
Yağış yağır şırhaşır, tökülür çəmənlərə,
Torpaq içir doymayır, içir düzən, dağ, dərə.
Nəzər salıb aqronom, seyr edir buludları,
Deyir süzülən yağış yenə öz əllərilə,
Görünməz əllərilə
Yuyur yaşıl otları
Süzülür şaftalıdan, alma, nar ağacından
Qara gözlü qızların axıb şəvə saçından,
Yanaqlarından öpür,
Oxşayıb üzlərini, dodaqlarından öpür.
Aləmi var baharın, payızın, sərt qışın da,
Dili vardır küləyin, yağan hər yağışın da.
Qulaq assan dərindən bilərsən ki, nə deyir.
Quş kimi nəğmə deyir,
Ötür bayaqdan bəri.
Qovuşur bir-birinə bulanıq dağ selləri.
Sonra yağış dayanır, kəsilir, verir ara,
Bir qədər keçməyir ki, yenə çaxır ildırım.
Əks eləyir dağlara.
Göylərin üzərində açır işıqdan şırım,
Elə bil vuruşmadır, yüz yerdən top atılır.

Aqronomun qaşları qəzəbindən çatılır.
Göy gurlayır, gurlayır
Bircə anın içində sükutu oğurlayır.
Aqronomun bu zaman dolu düşür yanına,
Qəm çökür könül adlı işıqlı eyvanına,
Deyir ki, sən ey dolu,
İstəyirsən kəsilsin bu il meyvənin yolu.
Ay paxıl, mərdimazar, ziyanəvərlik etmə.
Atını çox səyirtmə.
Zəng çalır gecikmədən ki, məntəqə top atsın,
Sarsıdaraq sıxlaşan buludları dağıtsın.
Sərhəd keçən ordutək qaçıb getsin uzağa
Dolu düşməsin bağa.

1965

DƏNİZ NEFTÇİLƏRİ

Nə göydə günəş yanır,
Nə üfüqlər qızarır.
Ayazlı bir səhərdir,
Səma, dəniz bozarır.
Suların qucağında üzür motorlu gəmi,
Onun da var aləmi.
Aralanıb körpüdən gedir Neft daşlarına.
Dəniz buruqlarında sadə yoldaşlarına
Mənim neftçi dostlarım kömək, arxa gedirlər.
Yurdumuzu hünərlə çilçıraqban edirlər.
Rəşadətlə torpağın inadlı qatlarından,
Dəniz buruqlarından çıxarırlar yanacaq
Hərarət bəxş edirlər bizə həyatlarından.
Evimizdə qaralıb sönüb gedər od, ocaq
Onlar belə etməsə,
Buruqlara getməsə.
Qorxu nə bilməyirlər qalsalar belə darda.
Gedirlər bürkülərdə, kəsici şaxtalarda.
İllər olur, dənizlə ülfəti kəsməyirlər.

Quşbaşı qar yağanda titrəyib əsməyirlər.
Misə dönür üzləri.
Tək Xəzəri yox, onlar üzər çox dənizləri,
Bakını tərk edər ki,
Uzaqlara gedər ki,
Fabriklərlə zavodlar yanacaqsız qalmasın.
Həyat büsatımızdan hərarət azalmasın.
Təqdim etsin barını bərəkətli zəmilər,
Göydə raketlərimiz, dənizlərdə gəmilər
Qət eləsin arxayın yenə öz yollarını.
Arzu, Əməl, Səadət,
Dolasın qollarını
Boynumuza əməlli.
Sıxıb əllərimizi zəfərlər ikiəlli
Dost olmaq üçün bizə
Neftçilər zaman-zaman çıxır mavi dənizə...

1965

QARDAŞLIQ AĞACI

Gəlib Tacikistana ehtiram ilə bir gün,
Sədrəddin Aynimizin qəbrinə baş çəkmişəm.
Düşənbədə sülh üçün başlayanda toy-düyün,
Azərbaycan adından körpə ağac əkmişəm.

İndi o yaşıl ağac dostluq xiyabanında
Qalxıb uca göylərə, xeyli qol-budaqlıdır.
Ömrümün çox bəxtəvər, firavan zamanında
Könlüm deyib-gülməyə, sevinməyə bağlıdır.

Gəzirəm ölkələri, elləri diyar-diyar,
Gəzməyə həvəsim var.
İlhamın qanadında göylərə yüksələndə,
Düşənbəyə gələndə
O yam-yaşıl ağaca iftixarla baxıram,
Qanadlanıb fərəhdən asimana qalxıram,
Yox, bu ağac deyildir ürəyimi dindirən,

Məni çox sevindirən.
Könlüm yaşıllıqlara çoxdan aşiqdir mənim.
Baxdıqca torpağıma,
Düzənimə, dağıma
Uçuram, heç uçuram, Pamir olur məskənim.
O, sərinlik gətirir xeyirxah insanlara.
Vüqarla sinə gərir sərt əsən tufanlara,
O qardaşlıq ağacı kölgə salır hər yerə
Çağırır insanları toylara, düyünlərə.
Biz həmən bu ağacın altında toplanmışıq,
Eşqilə ağ günlərin məşəl kimi yanmışıq.
Həmən şanlı ağacın altında dönə-dönə
Nəğmələr oxumuşuq oxuyuruq, bax, yenə.
Böyük bir etiqadla könül verərək bizə
İnsanlar axın-axın qoşulur nəğməmizə.
Məqsədimiz bəxtiyar, işıqlı bir gələcək
Bizim həyat nəğməmiz hələ çox yüksələcək...

1965

TOP ATILIR

Top atılır, fişəng yanır;
Sarı, yaşıl, al-qırmızı
İşıq saçır, qəşəng yanır.
Xəbər verir insanların sevdasından,
Arzu, əməl dünyasından.
Səadətdən xəbər verib, könülləri sevindirir,
Ağ günlərdən söhbət açıb insanları o dindirir.
Bir zamanlar top səsləri
Sarsıdardı göyü, yeri.
Şəhərləri uçurardı, kül elərdi zəmiləri,
Bol sünbüllər biçilməmiş.
Körpüləri dağıdardı üzərindən keçilməmiş,
Dənizlərdə batırardı, məhv edərdi gəmiləri.
Mərmi düşüb alov saldı neçə-neçə xanimana,

Tək balası qucağında gözlərini yumdu ana.
Nişanlısı döyüşlərdə ölən qızlar kor oldular,
Mərmi düşdü, göy çəmənlər insan üçün gor oldular.
Cavanların, qocaların qıçı getdi, qolu getdi,
Öldü insan övladları, qəlbi arzu dolu getdi.
Top atılır, xəbər verir: qanlı günlər uzaqdadır,
İndi zəfər nəğmələri milyon-milyon dodaqdadır.
Car çəkilir: insan oğlu əbədilik geyinsin al.
Gülür sevgi, gülür əməl, gülür dilək, arzu, amal.
Fişəng bizə xəbər verir toplar daha dinməyəcək.

QUBA BAĞLARINDA

Qubanın bağları çiçək-çiçəkdir,
Sevinci bağbanın ümmana bənzər.
Ağaclar bol meyvə gətirəcəkdir,
Baxdıqca doymuram, salıram nəzər.

Bahar heyran edir yenə insanı,
Şaxlarda gül deyil, şeriyyətdi bu.
Sanki çıxıb yola çiçək karvanı,
Əsla xəyal deyil, həqiqətdi bu.

Hər ağac elə bil ağ xalatlı qız,
Təcrübə dərsinə gəlmişdir yenə.
Sabahın həkimi hər səbatlı qız
Baxır ilk baharın əməllərinə.

O, toy paltarını geymiş gəlindir,
Xoş gəlir günlərin həftəsi, ayı.
But ər çiçəklərsə öz əməlindir,
Çoxu ağ açılır, azı çəhrayı.

Güllü ağacların arasında mən
Gördüm həyalı bir dağlar qızını.
Onun gözlərinin qarasında mən
Sevdim bir cavanın bəxt ildızını.

Ey Quba bağları, Quba bağları,
Sizdə təbiətin nadir rəngi var.
Siz ey el bağları, oba bağları,
Sizdə şeriyyətin xoş ahəngi var.

Əgər soruşsalar məndən ki, nədir
Bu göz işlədikcə ağarır ağ-ağ?
Deyərəm şeirdir, incə nəğmədir
Duyan eşidəcək, görən duyacaq...

İÇİN ANA YURDUMUN ƏTİRLİ ŞƏRBƏTİNDƏN

Dostlar! İçin yurdumun ətirli şərbətindən,
Bu adət babalardan bizə miras qalıbdır.
Möhtəşəm Nizaminin ölməyən sənətindən
Mənim həmən şərbətim öz şəhdini alıbdır.

Ona ətrindən verən dağlarımın gülüdür,
Füzulinin, Vaqifin şirin, şəkər dilidir.
Yaranmışdır bu şərbət azər məhəbbətindən,
Bizim böyük Üzeyrin yurdunun nemətindən.

Qız qalası, Bakının əzəmətli şahini
Sizə təqdim eləyir həmən bu sürahini.
Çobanlar ki, nəğməsi dağ başlarından gəlir,
Neftçilər ki, şöhrəti Neft daşlarından gəlir.

Deyirlər nuş eləyin, qardaşlar, için-için,
Doğma yurdunuz kimi odlar yurdundan keçin!
Yaranmışdır bu şərbət azər məhəbbətindən,
Dostlar! İçin yurdumun mənalı şərbətindən.

O da mənim bəxtəvər vətənimin tamıdır,
Eşqimizdən alıbdır öz ətrini bu şərbət.
Dostluğun, qardaşlığın məna dolu camıdır,
Dostlar! İçin, var olsun mehribanlıq, məhəbbət...

QIZ QALASI

Səni qaldıran zaman vüqarını ucaldıb
Dünyalar qədər qədim millətim, Qız qalası!
Yenilməz bayraq kimi hər tərəfi gəzibdir
Mənim şərəfim, şanım, şöhrətim, Qız qalası.

Əsərlərin üstündə məğrur qanad çalmısan,
Sən bu əzəmətinlə şahinmi, qartalmısan?
O gündən ki, vüqarla göylərə ucalmısan
Dillərdə dastan olub sənətim, Qız qalası!

Sən mənim zəhmətimsən, tükənməz hünərimsən,
Fəxr edirəm eşqimsən, təmiz alın tərimsən.
Şah əsərlər içində mənim şah əsərimsən,
Əks olur varlığında qüdrətim, Qız qalası!

Ucal mavi göylərə Xəzərin sahilində
Hüsnünə şeir yazım Azərbaycan dilində.
Azad ömür yaşasın hər millət öz elində,
Gül açsın mənim dəxi niyyətim, Qız qalası...

YURDUMUN

Çiçəkləri ətri-ənbər qoxuyan,
Al günəşli cənnəti var yurdumun;
Bülbülləri cəh-cəh vurub oxuyan
Bir səfalı xilqəti var yurdumun.

Şərq elinə işıq saçan məşəldir,
Gözəlləri mələklərdən gözəldir,
Eşqi sönməz bir müqəddəs əməldir,
Çox mənalı söhbəti var yurdumun.

Ağ cunadan yaşmaq tutur dağları,
Gəlin kimi al geyinir bağları,
Ağızlarda gəzir, qədim çağları,
Qəhrəmanlıq şöhrəti var yurdumun.

Gen dünyaya ətir dadan bal verən,
Qatar-qatar, karvan-karvan mal verən,
İpək verən, tirmə verən, şal verən
Aşıb-daşan dövləti var yurdumun.

Göz üstündə əzizləyir qonağı,
Düşmən gəlsə alov saçar torpağı,
Namərd üçün zəhər olur bulağı,
Dost içəndə şərbəti var yurdumun.

Ceyran otlar, maral gəzər düzündə,
Sədaqət var söhbətində, sözündə,
Əzəl gündən ocağında, közündə
Tükənməyən nemәti var yurdumun.

Min yol düşüb dastanlara azından,
Quşlar ötüb baharından, yazından,
Doymaq olmaz söhbətindən, sazından,
Xeyli qədim sənəti var yurdumun.

Sənətkarlar ondan alır pərvazı,
Qoynundadır Nizaminin avazı,
Cavanşiri, Koroğlusu, Eyvazı,
Yenilməyən qüdrəti var yurdumun.

İLİSU

Dağların qoynunda xeyli zamandır
Nazlı gəlin kimi yatır İlisu.
Üfüqlər hüsnünə aparır həsəd,
Gül-çiçək ətrinə batır İlisu.

Üzünü bir dəfə görən bənd olur,
Dost üçün hər zaman suyu qənd olur,
Meşələr qoynuna gərdənbənd olur,
Asimana kəmənd atır İlisu.

Gözəllikdə onun tapılmaz tayı,
Hüsnünə mat qoyur ulduzu, ayı.
Səadət olalı iqbaldan payı
Qəşəngcə böyüyür, artır İlisu.

Həyat nəğməsini bulaqlar deyir,
Ana laylasını şiş dağlar deyir,
Rahim kimi əziz qonaqlar deyir:
Şirin muradına çatır İlisu...

BAKI

Dolaşır dünyanı şərəfin, şöhrətin,
Tükənmək bilməyir yeraltı sərvətin.
Dostluğun ən gözəl mənası səndədir.
Sarsılmaz qardaşlıq dünyası səndədir.

Buruqlar sırayla uzanır Xəzərdə,
Elə bil meşələr canlanır nəzərdə.
Sevimli binalar, küçələr səndədir,
İşıqlı səhərlər, gecələr səndədir.
Ey mənim mehriban şadxəbər şəhərim,
Səadət yolçusu bəxtəvər şəhərim.

Yamyaşıl parkların al-əlvan çiçəkdir,
Şöhrətin əməkdir, zinətin əməkdir.
Fərəhlə boy atıb qanadlan hünərlə,
Açırsan səhəri gündə bir zəfərlə.

Ey mənim mehriban şadxəbər şəhərim,
Səadət yolçusu bəxtəvər şəhərim.

Can Bakı! Nə qədər qəşəngsən, gözəlsən,
Şərq üçün əbədi sönməyən məşəlsən.

Ey mənim mehriban, şadxəbər şəhərim,
Ağ günlər yolçusu bəxtəvər şəhərim.

BİZİM YURDUN

Əzəl gündən şöhrət almış
Al qumaşı bizim yurdun;
Sultanlara əyilmədi
Məğrur başı bizim yurdun.

Sevimlidir yaylaqları,
Buz kimidir bulaqları,
Səfalıdır göy bağları,
Dağı, daşı bizim yurdun.

Gözəlləri ceyran olur,
Görən baxır, heyran olur,
Ağızlarda dastan olur
Qələmqaşı bizim yurdun!

Tərlanı var – şahbazı var,
Ruha yatan şahnazı var,
Koroğlusu, Eyvazı var.
Bil ey naşı, bizim yurdun.

BAKI CAVANLAŞIR

Gözəl Bakı cavanlaşır, keçdikcə illər;
Asfalt olur gen küçələr, meydan açılır.
Gəlir həyat səhnəsinə təzə nəsillər,
İstedadın qabağında imkan açılır.

Əziz, doğma Bakım gülür laləzar kimi,
Dahilərin bağçalarda qalxır heykəli.
Bu yerdə də rövnəqlənir ilk bahar kimi
Bizim böyük xalqımızın eşqi, əməli.

Kiçik evlər nişanədir keçmiş zamandan
Uçurulur, qoy qalmasın daşı-daş üstə.

Xariqələr xoşlayıram – söyləyir – zaman,
Mənim Bakım cavab verir: "Oldu, baş üstə!"

Gün gələr ki, qapılardan axar su keçər,
Onda qalmaz göy ağaclar bu qədər qısa.
Dar döngələr fayton üçün deyil eybəcər,
Yaraşmayır "Pobeda"ya, trolleybusa.

Gen küçələr yaradılır, ağac salınır,
Bir həftənin müddətində təzə bağ düşür;
Qalibiyyət qazanılır, zəfər çalınır,
Mənim qara saçlarıma, lakin ağ düşür.

Olsun, könül məskənidir eşqin, vüsətin,
Kim deyir ki, rübabını o çalmayacaq?
Bakı, Bakı, yolçususan əbədiyyətin,
Səndən ilham alan şair qocalmayacaq!

ELƏR

Xalq havası

Vətən oğlu öz canını
El uğrunda qurban elər,
Aşıq coşar məclislərdə,
Bu şöhrəti dastan elər.

Gəlmə düşman, gəlmə düşman!
Məndən sənə olmaz aman.
Hər daşımda var bir aslan,
O qalxanda tufan elər.

Çox güvənmə gəl özünə,
Mil salaram cüt gözünə,
Bir damcı qan əvəzinə
Qoç Koroğlum min qan elər.

SƏNƏT XƏZİNƏDARI

Qiymət verib haqqı-saya
Baxdın günə, baxdın aya.
Bel bağladın gen dünyaya,
Başqa əməl puçdur dedin.
Dil vermədin biinsafa,
Dedin yaram çıxar safa;
Dost yolunda çəkib cəfa
Huşdan olan qoçdur dedin.
Gəzməsən də Hindistanı,
Yaratmısan el dastanı,
Ala gözlü yar Nəstanı
Sən, yaratdın bir gül kimi.
Aftandili yaxdı sızı,
Güldü axır bəxt ulduzu.
Qələmində ərəb qızı
Dilə gəldi bülbül kimi
Sən, fələklə qanlı yağı,
Gəzdin solu, gəzdin sağı.
Gülsün gərək ay qabağı
Dostun, nazlı yarın dedin.
Bir şərəfdir hər insana,
Qəsd eləyib şirin cana,
Dost yolunda qana-qana
Qoysa ömür, varın dedin.
Sən yetirdin əhdi başa,
Könül verdin qələmqaşa,
Sərt qayaya, soyuq daşa
Yarın döndü, yaman döndü.
Ömür güşdü sirli ağa,
Bülbül kimi şax budağa
Qonub, dərdi dedin dağa;
Dağ dolandı, duman döndü.
Gül açılar xəndan olar,
Aşiq yarsız candan olar.
Dedin dünya zindan olar
Ala gözlüm şən olmasan.

Hicr əlindən haray dedin,
İlə döndü hər ay, dedin.
Nazlı yarım, saray, dedin
Nəyə lazım, sən olmasan.

İNSAN QƏLBİ

İnsan qəlbi kaşanədir,
Pəncərəsi, tavanı qar.
İnsan qəlbi imarətdir,
Aynabəndi, eyvanı var.

Bu eyvanın qapıları
Saf duyğuya açıq olur.
O binaya zaman-zaman
Əməl adlı işıq dolur.

Söz açmışam bu nəğmədə
Yaxşı insan ürəyindən.
O insan ki, yer üzünə
Nur saçılır diləyindən.

Əridir öz həyatını
Səndən ötrü gilə-gilə.
Qəlbi onun qapalıdır
Böhtanlara, fitnə-felə.

Orda yoxdur bir guşə də
Yaltaqlığa, yamanlığa.
Orda nəğmə əsgər kimi
Keşik çəkir insanlığa.

Bu otağın pəncərəsi
Açıq olur al səhərə.
Hərb allahı o binada
Hökm etməmiş bircə kərə.

İnsan qəlbi kaşanədir,
Pəncərəsi, tavanı var.
Orda üçlük məclis qurub
Tar-qavalı kamanı var...

GÖY SÖYÜD GÖYƏRİR Kİ...

Göy söyüd ondan ötrü
Şaxlarını gərməyir,
Arxaların üzərində
Boy atıb göyərməyir
Ki, səhər, axşam çağı –
Narın yağış, sərin meh
Olsun əziz qonağı.
Doymayır göy söyüd də
Aşiqin söhbətindən,
Bahar fəslində artıq
İnsan məhəbbətindən,
İnsan hərarətindən
Qüvvət alır, güc alır,
Göy üzünə ucalır.
Bəli, o göyərir ki,
Sənə kölgə verir ki,
Eşitsin söhbətini;
O bilir dəyişməzsən
Bircə gün olsun da sən
Təmiz məhəbbətini
Dünyanın sərvətinə,
Bahar təravətinə.
Kölgəsində yer verir,
Səni eləyir qonaq
Ki mənalı sözünə
O dəxi assın qulaq...

TƏYYARƏDƏ

Böyütmüş olsa da bu cahan bizi
Bəzən cəzb eləyir asiman bizi.
Gözəl xəyalların qanadlarında
Süzürük göylərin üst qatlarında.

Yenə yüksəlirik uca göylərə,
Vida eləyirik anamız yerə.
Hələ uzaqdadır bulud dağları,
Görünür sevimli Bakı bağları.
Elə bil ki, Xəzər bir ovuc sudur.
Göy çəməndə yatan körpə quzudur.
Qalxa bilmədiyim yüksək təpələr
Məndən aşağıda, alçaqlardadır.
Qafqazın dağları yumruğa bənzər!
Yenə zirvələri qalın qardadır.
Uçur təyyarəmiz daha yüksəyə,
İndi buludlardan ucadayıq biz.
Bu sakit aləmi seyr edək deyə
Uçuruq səmanın sərinliyində,
Dikilir boşluğa nəzərlərimiz,
Varsa da göylərin öz şeriyyəti.
Uçuruq boşluğun dərinliyində,
Qəlbimizdə yerin eşqi, həsrəti...

MAYAK OLAYDIM

Dəniz kənarındakı təpə üzərindəyəm,
Qayaların yosunlu, otlu bir yerindəyəm.
Əgər Ayvazovski olsaydım mən, çox güman
Dəniz şəkli çəkərdim durduğum qayalıqdan.
Şairəm, özüm də ki, işığın aşiqiyəm,
Azəri torpağının mən də bir işığıyam.
Gecədir, mayak yanır.
Nuru su üzərində sütun kimi uzanır.

İşıq saçır, yox olur zülmətdə birdən-birə,
İllərdir yol göstərir bu sayaq gəmilərə.
Qaranlığın içindən baxıb nəzər salıram.
Düşünürəm, dalıram;
Deyirəm şeirlərim alışıb yanmasaydı,
Könüllər şöləsində əgər nurlanmasaydı.
Söyləməzdim mən əsla vüqarlı dağ olaydım.
İstərdim işıq verən,
Gəmilərə dumanda, çiskində yol göstərən
Bu təpə üstündəki yanan mayak olaydım.

YAŞAMAQ EŞQİ

Bağda bir qonşumuz, xəstə qarı var,
Yaşı, səhv etməsəm, doxsan beş olar.
Yaxın adamları seçə bilməyir,
İstidə, nə yaman soyuqdur deyir,
Soyuqda, nə olub, niyə hər yeri
Bağladınız yenə? Pəncərələri
Açın hava gəlsin, qış ha deyildir,
O, belə yaşayır bir neçə ildir.
Oturdu, bir saat gedir xəyala
Ki, necə, nə sayaq dursun yerindən.
Söhbət zamanları Gülqəndab xala
Razılıq eləyir nəvələrindən.
Onlar bu qarının əlindən tutur.
Əgər su axtarsa deyirlər otur
Nənə, gətirərik indi sərin su.
Mən də çox sevirəm onu doğrusu.
Gəlmək istəyirdi qarı bir dəfə
Günorta çağları bizim tərəfə.
Bundan xəbər tutub, yeriyərək mən
Ona hörmət edib tutdum əlindən.
Axı çox qocadır Gülqəndab xala.
Osa, baxıb mənə, dedi: ay bala
Görən gələrəmmi gələn il bağa?

Kim bilir gələrəm bir də, ya qismət?..
Nə qədər bağlıdır insan torpağa?!
Onun bu eşqinə elədim heyrət,
Bir günə ümidi olmayan qarı
Arzulayır görə gələn baharı.
Ondakı həvəsə qibtə elədim,
Dalıb xəyallara, düşünüb dedim:
İnsan! Ömr eləsən yüz min il yəqin,
Tükənməz yenə də yaşamaq eşqin.

OĞLAN GÜNƏŞƏ DÖNDÜ

Nə müddətdi ki, oğlan sevirdi qonşu qızı,
Dünyalardan tuturdu üstün həmən bu qızı.
Açа bilmirdi, lakin ona məhəbbətini,
Könlündə gəzdirirdi qəmini, həsrətini.
Qorxurdu, axı birdən qız hirslənər, inciyər.
Onda qəzəb sözünü açıqdan-açıq deyər.
Üz-üzə gəldi bir gün cavanlar bağçabağda.
Oturdular yanaşı, gəzmədilər uzaqda.
Oturdular mehriban səmimi insan kimi.
Tökdü qız ortalığa söz adlı sərvətini,
İstədi ki, çəkilsin həsrət bir duman kimi,
Xəbər verdi utancaq oğlana rəğbətini.
Oğlan heyran qalaraq bu cürətli əmələ
Çevrildi daş heykələ.
Sonra özünə gəldi, düşündü yavaş-yavaş,
Asta-asta söylədi: "Yer üzərində, ey kaş
Baxtı belə gətirsin bütün sevişənlərin.
Belə gəlsin iqbalı sevənlərin həmişə".
Üzləri oxşayanda əsən meh sərin-sərin
Oğlan döndü ilk dəfə alışan bir günəşə...

DOSTUN İSTƏYİ

Bir dost dedi dünən mənə:
Şair ümman olum – deyir.
Günəşə gah istər dönə,
Gah tar, kaman olum deyir.
Bəzən deyir: diləyirəm
Əzəmətli dağa dönüm.
İnsanların ləpirləri
Üstümdə qalsın iz kimi.
Qara neftim qatlarımda
Tükənməsin dəniz kimi.
Nura dönüm, bəşər üçün
Şəfəq saçım, işıq verim.
İnsan evi olsun yenə
Əzəl yerim, axır yerim.
Mən istərəm torpaq olum,
Həqiqətə dönüm yenə,
Əfsanədən uzaq olum.
Yaşadarsa bizi ancaq
Yenə torpaq yaşadacaq...

SƏN, BU NİSYANDAN ÇƏKİN

Deyirlər mənə, Rahim,
Məqsədə yetməyirsən.
Moskvaya nə qışda,
Nə yazda getməyirsən.
Bu jurnal, o qəzetdə
Əsərin olmayır çap.
Bunun sirrini bildir.
Şair üçün hər kitab
Sevinc, fərəh deyildir?
Axı yaxşı görürsən
Belə edir çoxları.
Çağırlar şan-şöhrətə,

Vara dönür yoxları.
Bəli fikirləşmişəm,
Danlamıram özümü.
Ucuz şöhrət tutmayıb
Mənim əsla gözümü.
Şamaxıdan kənara
Sabir tez-tez çıxdımı?
Onun səfər yolları
Üzünə açıqdımı?
Söylə hansı naşirin
Qılığına girdi o,
Şan-şöhrət mehrabına
Özünü yetirdi o,
Şeir yollar qət edib
Gərək özü dolaşsın.
Özü ölkələr gəzib
Ürəklərə yol aşsın.
Atəşi yoxsa əgər
De necə yandıracaq?
Onu ox kimi atsan
Zaman dayandıracaq.
Şeri çıraqla gəzib
Oxucu tapsın gərək.
Şair, yox, söz atını
Səyirdib çapsın gərək.
Uzaq mənzil deyilsə
Sözün fikri, niyyəti.
Bu sayaq, əsərlərin
Yoxdur əbədiyyəti.
Söz gərək ümman üzüb
Aşıb dağ, keçib dərə
Ecazlarilə gündə
Yol açsın ölkələrə.
Əsər övlad sayılır;
Dünyaya gətirəndə,
Ona həyat verəndə
Güvən öz qüdrətinə

Aşiqdir insan oğlu
Əsl söz qüdrətinə.
Ehtirassız, alovsuz
Əsərdən əsər olmaz.
Soyuq sözdə, yaxşı bil,
Güc olmaz, kəsər olmaz.
Ona raket ad verib
İstəsən göylərə at,
Tez geriyə dönəcək.
Gün sürmədən bir saat,
Yerə düşüb sönəcək.
Əzizim, şeir əgər
Sevilməsə elində,
Zaman unutduracaq
Onu nisyan selində.
Sən bu nisyandan çəkdin,
Bunu düşün bir qədər.
Az deyil şairindən
Qabaq ölən əsərlər...

TURAC, KOLLUQ, BAĞ

Tikanlı kolları qoparır maşın,
Dostum bu tədbirə baxır bir anlıq;
Süzür görkəmini torpağın, daşın;
Çökür gözlərinə qatı qaranlıq.

Turacın kim deyir yanar halına?
Sürürdü ömrünü kollar içində.
Çıxırdı insanın istiqbalına,
Səhər, axşam çağı yollar içində.

Səsindən zövq alır düzən, dağ, dərə,
Xeyli sevimlidir qırqovul, turac.
Bəzən əllərimlə qarlı çöllərə
Düyü də səpmişəm, qalmasınlar ac.

Mıxlanıb yerində dostum dayandı,
Baxdı çıxarılan qara kollara.
Körpə turacların halına yandı,
Ürəkdən acıdı qırqovullara.

Daldı xəyallara, çatdı qaşını,
Sürücü fikrini duydu elə bil.
Saxladı qarşıda nəhəng maşını,
Zamana, söylədi, sən deyən deyil.

Salınan meşələr mil-mil uzanır,
Yatır gəlin kimi göllərimiz də.
Yaratmaq eşqilə ürəklər yanır
Gecəli-gündüzlü çöllərimizdə.

Kolların yerində göyərər tənək,
Qərq olursan qəmə, bu nə deməkdir?
Bizə kolluq deyil, yaşıl biçənək,
Meşə zolaqları, bağlar gərəkdir.

Turacın halına belə yanma gəl,
Onun yurdu olar bağlar, göy meşə.
Elin büsatından aralanma gəl,
Boylansın əməlin nurlu günəşə.

Turacı kolluqda yesə tülkülər
Bu hal təbiətə, söylə, xeyirmi?
Bizim fərələrlə o, axşam, səhər
Qışda həyətlərdə dənləməyirmi?

Otlasın talada qaragöz əlik,
Təbiət insana versin barını;
Ötür yamaclarda xınalı kəklik
Səfalı çöllərin nəğmələrini.

Mən də xoşlayıram, sevirəm mən də
Bağ salaq, olmasın ucu-bucağı.
Ağaclar içində, kefi gələndə
Öpsün turaclar da anam torpağı.

Sevinc ürəklərdə işıq yandırar,
Büsat zamanıdır, köklə tarını.
Dəyişən təbiət mənalandırar
Gözəl quşların da mahnılarını.

Deyib girdi işə vermədən ara,
Tikanlı kolları qopardı yenə.
Mənim xəyalımı təzə bağlara
Körpə meşələrə apardı yenə...

QOCALIQ QANSIZ OLUR

Bax, o gözündə çeşmək, əlində qalın əsa,
Beli bir qədər bükük,
İllərin ağırlığı çiyinlərində bir yük,
Asta-asta harasa
Gedən möhtərəm qoca,
Sükuta həmdəm qoca
Bir zamanlar alışdı mehrabında sənətin,
Şərəfli bir yolçusu oldu əbədiyyətin.
Ağızlarda dolaşdı, gəzdi şanı, şöhrəti,
El içində çoxaldı günü-gündən hörməti.
Sənətin aşiqləri üstünə ətək-ətək
Səpdi əlvan gül-çiçək.
Bəs nə üçün indi o, hər şeyə biganədir?
Bunun illəti nədir?
Nə vaxtdır gözlərində hər şey donub buz olub,
Elə bil ki, əzəldən dünya uğursuz olub.
Almış onu qoynuna biganəlik dünyası,
Gözlərində qalmayıb şan-şöhrətin mənası.
Yollanır ağır-ağır,
Dərdi-səri yoxsa da gözlərindən qəm yağır.
Gedir, elə bil deyir qocalıq qansız olur,
O çox amansız olur, o, çox amansız olur...

İNSAN VƏ ÖLÜM

Həkim dedi ümid yoxdur, gedəcək
Xəstə dedi həyat davam edəcək.
Dərin sükut çökdü evə bir anlıq.
İşıq doğsa, qaçıb gedər qaranlıq.
Dirsəkləndi o, balınca bir qədər,
Dodağında gül açanda gülüşlər
Gözlərinin qapaqları yumuldu,
İnci saçan dodaqları yumuldu.
İlk bahara aşiq olan o insan
Karvanını belə çəkdi dünyadan.
Köçdü, bu dəm qonşuluqda bir uşaq
Ağlayaraq gəldi dünya üzünə.
Vəhmələndi ölüm, yaman qorxaraq.
Həmən körpə yüz göründü gözünə.
Nəzər saldı yer üzündən köçənə,
Nəzər saldı badəsini içənə.
Söylədi ki, aparmamış mən bunu,
Bir körpə də gəldi yenə cahana.
Kəsərəmmi adamların sonunu,
Mən bu sayaq bataramımı insana.
Səs eşitdi: ölüm, təksən, çoxuq biz,
Yaşamışdır, yaşayacaq nəslimiz.
İnsan gedib həmişəlik yuxuya,
Əbədiyyət dünyasında gülürdü.
Həmən səsdən düşüb yaman qorxuya,
Sarsılaraq, ölüm özü ölürdü...

KÖÇƏRİ QUŞLAR

Quşlar, köçəri quşlar!
Niyə tərk edirsiniz
Bizim bu yeri, quşlar?!
Qalxaraq asimana,
Uçursunuz hayana?

Quşlar, köçəri quşlar,
Şimalda yağırsa qar,
Cənubumuz ilıqdır.
Bəs, bu nə ayrılıqdır?
Qoynu istidir yerin,
Tək eşqilə göylərin
Murada yetməyiniz.
Təkcə göyün qoynunda
Həvəslə ötməyiniz.
İnsanlar yeri sevir,
Bəzək olub torpağa,
Geniş göyləri sevir.
Siz dəxi onlar kimi,
Təmiz insanlar kimi
Sevin bir yeri, quşlar!
Yurdsuz, köçəri quşlar!..

APARIR

Alim Şamonun əziz xatirəsinə ithaf edirəm.

Əsir zəhərli yel çiçəyə, gülə;
Nərgizi, laləni ruzgar aparır.
Əcəl oylağıma çıxmışdır ova,
Yuvamı dağıdır, şikar aparır.

Soldu, xəzəl oldu ətirli gülüm;
Dağ üstən dağ görüb bəlalı könlüm.
Haray, a dostlarım, bu namərd ölüm
Ömür çəmənimdən bahar aparır.

Yoxdur olacağa dünyada çara,
Azmı ürəklərə vurulur yara?
Süleyman, bərk dayan, şaxta bağlara
Gələndə çox zaman nə var aparır.

GƏMİLƏR

Gəmilər! Zaman-zaman üzdünüz gur sularda,
Sizinlə qanad açdı sevimli arzular da.

Sizinlə seyrə çıxdı mehriban sevişənlər,
Göyərtənizdən gözəl yaylaqlara düşənlər.

Üstünüzdə qar kimi qağayılar göründü.
Ulduzlar dövrənizdə gecələr pula döndü.

Biriniz benzin dolu yeridi Həştərxana,
Biriniz qənd apardı Ənzəliyə, Zəncana.

Təpənizdən neçə qış dolu vurdu, tökdü qar,
Aşdı göyərtənizdən qoşun çəkən dalğalar.

Süzdünüz əzəmətlə, gəzdiniz iftixarla,
Limanlara gəldiniz ehtişamla, vüqarla.

Yaşınızı bilmirəm, xeyli qanad çaldınız,
Namusla ömr eləyib, şərəflə qocaldınız.

Dediniz: "Artıq bizi Xəzərdən çıxararlar,
Ocaqda yandırmağa taxtamızı yararlar.

Ötüşdü coşqun illər, düşdük əldən, ayaqdan,
Dumanların içindən yol göstərən mayakdan.

Gecələr üstümüzə düşməyəcəkdir işıq;
Əcəl hökmünü vermiş, son çağımızdır artıq"

Lakin belə olmadı, həmdəmsiniz dənizə,
Neftçilər tədbir töküb həyat verdilər sizə.

Dəniz mədənlərində bir ailə qurdunuz,
Sularda, buruqların keşiyində durdunuz.

Əyləşən gündən saya
Tufanlara döş gərib oldunuz mətin qaya.

İndi qucağınızdan gecələr işıq gəlir,
Yenə göyərtənizdən insan səsi yüksəlir.

Yenə qucağınızda həyat əsəri vardır,
Gəmilər! Həmdəminiz yenə mavi sulardır.

ÖZÜM SORUŞACAĞAM

Sən məni çox güman ki, yadına salmayırsan,
Mənsə unutmayıram səni bircə an belə.
Üzbəüz gələn zaman vecinə almayırsan,
Mən səni axtarıram baxıb hər yoldan belə.

Sən ötürsən yanımdan dağların çeşməsi tək.
Mən alova çevrilən qırmızı köz oluram.
Sən yollanıb gedirsən fikir də verməyərək
Bütün varlığımla mən baxmağa göz oluram.

Mən səni xoşlayıram ən gözəl şeir kimi,
Görürəm camalını, mənə görünməsən də.
Arabir dayanıram, səni dinləyir kimi
Xəyalınla söhbətə girirəm, dinməsən də.

Sən bəlkə çox mehriban, şirindilli gözəlsən,
Əzizlərin şirnini içəli bir həftə var.
Bunu bilmədiyimdən günah işləyərək mən
Deyirəm ki, qaydadır, gözəllər məğrur olar.

Subaysan, insafa gəl, bizimlə bir din, danış.
Nişanlısansa əgər, xoşbəxt ol, budur sözüm.
Sabah da rast gələrsəm cürətlə olub tanış
Səndən bu sualları soruşacağam özüm...

XİYABANLAR İÇİNDƏ

Bir dost soruşdu məndən: "Nə üçün tək gəzirsən?
Olmuya ki, bağçada birinə müntəzirsən?"
Dedim: tək deyiləm, yox, xiyabanda, qol-qola
Dolaşıram baharla. Dedi: uğurlar ola...
Göstərdi bahar mənə ayılan təbiəti,
Dedim: belə oyanır gəncliyin məhəbbəti.
Bahar dedi: zərifdir tumurcuqlar gör necə.
Söylədim: gəlinlərin incə gülüşü kimi.
Dedi: o güllərə bax, qar kimi nə ağarır!
Dedim: mərmər sinəli qızların döşü kimi.
Bahar dedi: budaqlar gör necə açır çiçək.
Dedim: yetkin qızların incə yanaqları tək.
Dedi: ah, nə gözəldir torpağın oyanması!
Dedim: bəli, ən incə, şirin əməllər kimi.
Nə mahir nəğməkardır axar sular – söylədi?
Dedim: seyrana çıxmış yosma gözəllər kimi.
Dedi: səhər gözünü xumar-xumar açır, bax!
Dedim: yarım yuxudan şirin oyanan kimi.
Dedi: günəş nə yanır! Dedim: mənim qəlbimdə
Saf məhəbbət, sədaqət od tutub yanan kimi...
Bahar ilə qol-qola şən insanlar içində,
Belə söhbət elədik xiyabanlar içində.

ÜZÜM YIĞAN QIZ

Səhər-səhər tənəkdən təzə üzüm dərmisən,
Doldurub yeşiklərə, Bakıya göndərmisən.
A mehriban sadə qız,
Sevimli, azadə qız!
Sən bağda,
Mən şəhərdə –
Göz açdıq kainata işıqlı bir səhərdə.
Sən bağa,

Mən dənizə
Ürəkdən bağlanmışıq.
Bir sevdanın yolunda məşəl kimi yanmışıq.
Mən səni bir yaz çağı
Görmüşəm olan zaman məskənim üzüm bağ
O şəhli salxımları yetirən əllərindir.
Şəfəq dolu gilələr sanki, əməllərindir.
Ey incə gülüşləri şəkər kimi dadlı qız,
Arzuları, sevinci quş kimi qanadlı qız.
Nə olar ki, bir səhər qapımızdan girəydin,
Uzadıb o kəhrəba üzümündən verəydin,
Qapqara gilələri zil qara gözün kimi,
Şirinliyi beçə bal, xeyr yox, özün kimi
Təravətli, ətirli salxımlar uzadaydın,
Bir qıça mən yeyəydim, bir qıça sən dadayd
Nə olar bu işıqlı,
Bu geniş, yaraşıqlı
Evimizdə, ay gözəl, həmişəlik qalaydın,
Ürəyimdə sevgidən bir təzə bağ salaydın...

GƏLSİN

Qurduğum məclisə istəyim budur:
Kimdə varsa vəfa, sədaqət, gəlsin.
Dəyanət, etibar, mərdlik sevənəm,
Kimdə varsa belə bir sifət, gəlsin.

Başqa aləmi var kamanın, neyin,
Nə var könül açan söz kimi, deyin!
Bülbül tək ötməyə Xalaoğlu Hüseyn,
Sazı dindirməyə Ədalət gəlsin.

Rahim el yanına gəldi Qazağa,
Deməyin Bakıdan düşdü uzağa,
Canım sadağadır doğma torpağa,
Məclisimə əhli-məhəbbət gəlsin.

MƏHƏBBƏTİN GƏTİRDİ

Sadə qız, bir ay olar xam torpağa gəlmişik,
Yuxusundan çölləri oyatmağa gəlmişik.

Mən traktor sürənəm,
Sən də işıq çəkənsən.
A gözəl, həyat qızı
Üzügülər və şənsən.

O gün qoşa çıxarkən təbiətin seyrinə
Şirin söhbət elədik... Üzünü tutub mənə
Dedin ki: "Çox sevirəm bu qara torpaqları.
Gəldim ilk otaqları
Çıraqban eləməkçün tel çəkim, işıq verim.
Təzə aləm yaranır, mən də hünər göstərim.
Gəncliyin qabağında, dedin yollar açıqdır.
Ancaq hələ burada hər tərəf alaçıqdır.
Yoxdur geniş küçəli, uca evlərdən əsər
Hər şey tamam yenidən yaradılır... Müxtəsər".

Bir də görüm o yerdən,
Əzəmətli-şəhərdən
Səni xam torpaqlara
Nə həvəsdir gətirən?..
Ay qız, cavabım budur:
Bizi qanadlandıran
Bir eşq, bir arzudur.

Sən həvəslə işıq çək birinci otaqlara,
Mən də yoldaşlarımla can verim torpaqlara.
Görürsən, dalğalanır sünbüllər dəniz-dəniz,
Görürsən, adam boyu hər yan qarğıdalıdır.
Sülhsevər ölkələrlə dostluq eləyirik biz,
Yurdumuzu qumaşa bəzəyən öz malıdır.

Belə xoşbəxt zamanda,
Bu fərəhli dövranda

Məni, xam torpaqlara, a dilimin nəğməsi
Arzuların çağrışı xeyli mətin gətirdi.
Yeni həyat qurmağın, yaratmağın həvəsi,
Bir də ki, sənin şirin məhəbbətin gətirdi".

OLACAQ

A yoldaşlar, yeddiillik baharda
Bar gətirən təzə bağlar olacaq;
Səadətin sarayını tikirik,
Asimana qalxan tağlar olacaq.

Yaranacaq neçə-neçə gölümüz,
Gəlin kimi al geyəcək çölümüz.
Sərvətini verəcəkdir dərə, düz
"Təslim oldum" deyən dağlar olacaq.

Çoxalacaq yurdumuzun neməti.
Dolanacaq ölkələri şöhrəti.
Qoy var olsun yeddibahar dövləti,
Sayəsində gözəl çağlar olacaq...

DÖNÜR

Hüsnün kəbəsidir hilal qaşların,
Aşiqlər qapında zəvvarə dönür.
Qanuni belədir bu kainatın:
Hilalın başına sitarə dönür.

Mən ki, çin oturdum, sözü çin dedim,
Cahana gəlmişəm sənincin dedim,
Şəhla gözlərinə göyərçin dedim,
Onlarsa çalmağa şahmara dönür.

Bəlkə imtahandır, bu bir sınaqdır,
Qoy olsun hazıram mən ki, havaqdır.

Hər insan dünyaya beş gün qonaqdır,
Torpaqdan yaranan qubara dönür.

Uymaram köçəri zövqü-səfayə,
Dözərəm eşq üçün hər bir cəfayə,
Rahimәm, sadiqəm əhdə, vəfayə,
Sözüm ağızlarda şüarə dönür.

GÖZƏLLİYƏ DAİR

Deyirsən, şair daha kifayətdir, yazma gəl
Gözəllərin qaşından, od xalından, gözündən.
Burax sən deyən olsun, mən razıyam, çox gözəl,
Eşqi doğru dərk edək ancaq şair sözündən.

Kim zövq alar gözəldən, o, kamallı olmasa,
Şerimə həyat verən ləkəbilməz ürəkdir.
Yaxşı bilirəm ki, qız qara xallı olmasa,
Yenə bir oğlan onu ürəkdən sevəcəkdir.

Qoy mövzum olmasın nə qaş, nə göz, nə yanaq!
Yazmaram, sənlə də gəl belə bir şərt qoyaq:
Yanından ceyran kimi bir şux gözəl keçəndə
Zilləyib gözlərini ona gəl baxma sən də!

Mən gözəlin yazmıram zahiri surətini,
Şerimin ruhunda gör insan məhəbbətini.

GÖRÜŞ

BİRİNCİ GECƏ

Pəncərədən boylanır ay,
Təbiətə işıq saçır.
Səndən əvvəl ürəyimi
Sənsizliyin əli açır.

Ay sapsarı bir toyuqdur,
Ulduzlar da cücələri.
Ah nə qəşəng, nə gözəldir
Bizim bahar gecələri.

Çinar altı, arx kənarı...
Axar sular nəğmə deyir.
Sevimlidir aləm yenə
Yer şeirdir, səma şeir.

Ay gözəllik timsalıtək
Gəzir göyü süzə-süzə.
Hüsnün ona tənə vurar
Niyə çıxmayırsan üzə?

Bulud yoxdur göy üzündə,
Topa-topa, alay-alay.
Gəzir yenə boşluqları,
Mənim kimi tənhadı ay.

Gəzir xeyli sakitanə,
Şəfəqdəndir göyün donu.
Bir səs gəlir qulağıma;
"Gözətləmə artıq onu".

Ay dolanar az keçməmiş,
İtər yenə ilim-ilim.
Söylə, çoxmu həsrətini
Çəkəcəyəm, a sevgilim?

Söykənmişəm gövdəsinə
Əzəmətli göy çinarın;
Bir səs deyir: "Gəlməyəcək
Özündəsə ixtiyarın.

İqtidarın varsa əgər
Dönük çıxan yarı unut;
Güman elə sevdasını
Əsdi külək, ötdü bulud".

İKİNCİ GECƏ

Enib gölə yuyunur
Gözəllər tək yenə ay,
Görünməyirsən niyə?
Dodağı nəğməli çay
Yenə baş alıb gedir;
Çıxmırsan çəmənliyə,
De bunun sirri nədir?

Yel əsib göy çinarın
Saçlarını darayır,
Divarlarda rəqs edir
Yenə əvvəlki tək ay.
Gözüm səni arayır;
Dodağı nəğməli çay
Görməyir surətini,
Düşünür illətini,
Deyir: "Axıb gedərkən
Axı kimə deyim mən –
O qaragöz dilbərin
Zülmünü, zillətini?"

ÜÇÜNCÜ GECƏ

Üçüncü gün gəlib yenə
Çıxdım həmən arx üstünə.
İncik düşüb neçə atım,
Belə edə bilməyirəm?
Sənsizliyin yollarında
Məgər gedə bilməyirəm?
Gözləyirəm, gözləyirəm
Nə güclüdür yar həsrəti,
Gözləyirəm yenə səni
Bayraq edib sədaqəti.
Sən gəlirsən üzün bənzər

Şaxta vurmuş solğun gülə.
Sonra sözə başlayırsan
Asta-asta gəlib dilə:
"Üç gün yatdım qızdırmada
Bəs niyə salmadın yada?
Əsla xəbər də tutmadın.
Nə əcəb ki, buradasan,
Həmişəlik unutmadın.
Üç gün yandım ocaq kimi.
Döndüm oda başdan-başa!..."
Nə söyləyim indi ona
Öz yerimdə döndüm daşa!
"Unut onu, gəlməyəcək,
O qədrini bilməyəcək.
Yetər artıq tərk et, unut.
Sevdasını güman elə:
Əsdi külək, ötdü bulud..."
Düşünmüşəm görün necə?!
Arx kənarı, sakit gecə
Sanki mənə tənə vurur.
Qabağımda osa durur
Çox mehriban əvvəlkitək.
Ay dolanır boşluqlarda,
Sevgilimə göz tikərək...

YOXDUR BU DÜNYADA MƏNDƏN BƏXTƏVƏR

Eşitsin kainat verirəm xəbər:
Yoxdur bu dünyada məndən bəxtəvər.
Nəsibim şadlıqla sevincdir ancaq,
Ömrümə çox bahar qismət olacaq.
Başımın üstündə göy asiman var,
Yanımda sevgilim, bir də cahan var.
İtirsəm dünyanı bir səhər, nə qəm,
Sən varsan, deməli fikir etmərəm.

Əgər bir gün səni itirmiş olsam
Hər şey mənim üçün məhv olar tamam.
Sevgi çəmənini duman, qar alar,
Həyat gözlərimdə sönər, qaralar.
Çünki sənlə mən kama çatmışam.
Sevinc ulduzuna kəmənd atmışam.
Sən ki, mənimləsən, ey təzə çiçək,
Mənimlədir bütün bir dünya demək.
Sən qolumun gücü, gözümün nuru,
Odlu həyatımın enməz qüruru.
Eşitsin kainat verirəm xəbər:
Yoxdur bu dünyada məndən bəxtəvər.

MƏCNUNUN GÖZLƏRİ

Xalq nağılı

Çağırıb Məcnunu Harun-əl-rəşid
Dedi: "Sözlərimi, ey aşiq, eşit:
Könlünü vermisən adi bir qıza,
Düşmüsən çöllərə divanələr tək.
Salmısan özünü dilə, ağıza;
Yanırsan odlara pərvanələr tək.
Leyli dedikləri qapqara qızdır;
Mənim kənizlərim gözəldir ondan.
Halına yanmayır, çox insafsızdır
Qayıt bu mənasız eşqin yolundan.
Könlünü üzməsin bu möhnət, kədər
Yetər, üz verməsin qüssə, qəm sənə.
Mənim sarayımda var şux gözəllər,
Hansını xoşlasan verərəm sənə".

Məcnun hökmdarı sakit dinlədi
Sonra öz fikrini bu sayaq dedi:
Leylini duymağa, ey şahim, ancaq
Ona gəl Məcnunun gözlərilə bax.

AZƏRBAYCAN QADINI

Mən səni ilham alıb təsvir etmədim ancaq
Zil-qara xallılar tək;
Səndən söhbət açmışam, fərəhlənib coşaraq,
Dərya kamallılar tək.
Yazmışam tükənməyən mənəvi sərvətini,
Bizim gözəl cahanda,
Sənin eyni zamanda
Tərənnüm eləmişəm şanını, şöhrətini.
Tarlada iş başında səhərlər görünəndə,
Axşam evə dönəndə
Gözümdə bayraq kimi göylərə ucalmısan.
Ağlın, fərasətinlə könülləri almısan.
A mehriban qələmqaş, a gözləri badamı,
Yaradan insanların yanında hörmətin var.
Sən ecazlar törədən şərəfli elm adamı,
Buruqlarda mühəndis, masa dalında memar.
Rəssamsan, bəstəkarsan.
Bütün cəbhələr boyu bizimlə sən də varsan.
İşıqlar yandırmısan mehrabında zəhmətin.
Həyat verir insana qayğın, mehrin, şəfqətin.
Sən misilsiz oxuyan,
Gözəl xalı toxuyan,
Həkim, şəfqət bacısı,
Tanışındır dünyanın şirinliyi, acısı.
Sən, ali məclisimdə mötəbər deputatsan,
Unudulmaz həyatsan.
Ey ana,
ey mehriban,
sevimli,
gözəl qadın
Qəlbimin lövhəsində başda yazılıb adın.
Müqəddəsdir muradın, məhəbbətin təmizdir.
Vətən eşqin, qüdrətin tükənməz bir dənizdir.
El uğrunda oğul tək əllərində avtomat
Döyüşlərdə olmusan, al qanından keçmisən,

Gülsün deyə kainat
Həyatın keşməkeşli tufanından keçmisən.
Əməllər dünyasından indi gül dərə-dərə,
Al şəfəqlər saçırsan günaydın səhərlərə.
Zəfər dastanlarıdır nəcib-nəcib işlərin.
Ən gözəl bir nəğmədir mənalı gülüşlərin.
Mən sənin incə ruhlu olduğunu yazmışam,
Tərənnüm eləmişəm beşik başında axşam
Səni layla deyəndə.
Baxtın əlvan geyəndə.
Yazmışam çeşmə kimi təmiz məhəbbətini.
Azərbaycan gözəli yazmışam ismətini.
Sənsiz ömür sürənin sinəsi dağlı olar,
Üzünə səadətin qapısı bağlı olar...

GÖZƏL VAR Kİ...

Gözəl var ki, boyalıdır,
Gözəl də var boyasızdır.
Gözəl var ki, həyalıdır,
Gözəl də var həyasızdır.
Gözəl var ki, bir gülüşü
Min xəstənin çarəsidir.
Gözəl də var can dərmanı
Gözlərinin qarasıdır.
Məlahətdə bu nazənin
Elə bil ay parasıdır.
Gözəl var ki, necə deyim,
Quyruqlu ulduza bənzər.
Gözəl də var təbiətən
Dağdakı sal buza bənzər.
Gözəl var ki, xislətini
Görsə qorxar şeytan belə.
Gözəl var ki, yurd-yuvadır
Qəlbi ancaq fitnə, felə.
Gözəl var ki, modabazdır

Təravətin çəmənində
Yamanca bir ədabazdır.
Qayəsidir ancaq geyim
Eləsindən, nə söyləyim?
Bu gözəldən, yaxşı olar,
Susmasam da, mən az deyim.
Boyaqçıdır, suvaqçıdır
Adına qoy rəngsaz deyim.
Kəsib ayna qabağını
Saçlarını rəngləyəcək,
Qızardacaq dodağını.
İşlədikcə bu malakeş
Gözlərinin kənarları
Neçə rəngli cızıq olur.
Bilməyir ki, bu halətdə
Çox eybəcər, yazıq olur.
Sadəliyin düşmanıdır
Belə suvaq, belə boyaq.
Gözəlliyin mehrabına
Saxtalığı buraxmayaq...
Nə olar ki, yer üzündə
Fitnə-fel, riya olmasın.
Qaşda, gözdə, kirpiklərdə,
Dodaqda boya olmasın...

GECƏ

Gecədir, cəzb eləyir göy məni, hilal məni,
Çəkib, çəkib aparır sevgilim xəyal məni.
Söykəmişəm böyrümü əzəmətli bir daşa,
Nə zamandır edirəm ulduzları tamaşa.
Karvanqıran ağarır, parıldayan rız kimi,
Ay da süzür aləmi bir ismətli qız kimi.
Yeriyir dalğa-dalğa asimanın dağları,
Mənə astadan-asta ağlımın dodaqları
Deyir ki: "Şair, yetər, seyr etdin, daha bəsdir!"

Özüm də bilməyirəm bu həvəs nə həvəsdir!
Hey baxıram, cəzb edir göy məni, hilal məni,
Çəkib, çəkib aparır sevgilim xəyal məni,
Söykəmişəm böyrümü əzəmətli bir daşa,
Nə zamandır edirəm ulduzları tamaşa.
Doldururam gecədən öz ilhamı piyaləmi,
Gündüzün bir yeri var, gecənin bir aləmi.

Ötürmüşəm səni mən, qayıdıram geriyə,
Xəyalə qərq olmuşam, yol yeriyə-yeriyə.
Üç aylıq bir ayrılıq qəlbə xeyli çəkər dağ,
Sənsiz keçən hər günüm ağır bir il olacaq.
Sən qızıl axtarmağa gedirsən, a qaş-daşım,
Üç ay təklik olacaq yaxın dostum, yoldaşım.
Nədir qram-qram zər? Sən misli yox zərimsən,
Sən mənim can evimdə bahalı gövhərimsən.
Günahkarmıyam ki, mən coşqun illərimizdir.
Könül bağında sevgi solmaz güllərimizdir.
Bircə gün sənsizliyə tab etməyən, dözməyən
Üç aylıq həsrətinə dözərmi? Neyləyim mən?
İstəyirəm can deyəm sevimli sözlərinə.
İstəyirəm heç dalam alovlu gözlərinə.
İstəyirəm eşidəm həyat dolu səsini,
İstəyirəm hey duyam ətirli nəfəsini.
Nə günahım var axı güclüsə məhəbbətin
Həyat qədər şirinsə gülüşlərin, söhbətin?..
Yaxşı bil, sevimli qız, qısqanmayıram ancaq,
İstəmirəm olasan bir an gözümdən uzaq.
İstəmirəm, nə çarə, sən məni tərk etmisən,
Urala üç aylığa kəşfiyyata getmisən.
Ötürmüşəm mən səni, qayıdıram geriyə,
Fikirlərin əlində yol yeriyə-yeriyə...

MƏN HƏMƏN AĞACAM, SƏN HƏMƏN BAHAR

Bir ağac görmüşdüm yol üzərində,
Dayanıb dururdu sakit yerində.
Onu torpağından sarsıtmışdılar.
Buna baxmayaraq gələndə bahar
Ağac çiçək açıb göyərdi yenə,
Saldı kölgəsini yerin üstünə...
İnsanam, olsa da şöhrətim uca
Oxşarım var həmən yaşıl ağaca.
Kəc baxdım elə ki, mənə bir qədər
Sarsılıram yaman. Solur ümidlər.
Nə vaxt gülümsəsən baxıb bir anlıq,
Çəkilir qəlbimi saran qaranlıq.

Düşünürəm belə bəzən, a dildar:
Mən həmən ağacam, sən həmən bahar.

OLSUN

Açıb varaq-varaq oxuyum deyə,
Təbiət baharda kitabım olsun.
Gəzim aşıq kimi çöldə, çəməndə;
Hüsnü vəsf etməyə rübabım olsun.

Canandan söz açım sərim Şinkara,
Eşqimin gəlini geysin al xara.
Dikib gözlərimi uzun yollara,
Yarı gözləməyə qoy tabım olsun.

Əgər görünməsə bulaq başında,
Rahim, yaz adını çeşmə daşında.
Vaqif tək demirəm on dörd yaşında,
Mənim də öz tayım, öz babım olsun.

CEYRAN

Gözəllər gözəli görmək istəsən
Bizim Muğana gəl, ara ceyranı.
Canımdan çox əziz bilmişəm hər vaxt
O şəhla gözləri qara ceyranı.

Deyirlər indi o, Muğandan köçür,
Gözləri qan yaşlı İrana keçir,
Görən harda yatır, harda su içir
Ovçu gətirəli zara ceyranı?

O, tərk olsa əgər azər elindən,
Sənə lənət yağar şair dilindən.
Bir xata çıxmasın ovçu əlindən,
Amandı salma gəl dara ceyranı.

Boylanır quzusu baxır hər yana,
Nişana alma gəl, odlanar ana.
O ki, yaraşıqdır Azərbaycana,
Didərgin salırsan hara ceyranı?

Ceyransız Muğanın gözləri dolar,
Ətrini saçmamış çiçəklər solar.
Öldürsə, Rahimə ağır dərd olar
Ovçunun vurduğu yara, ceyranı...

BÜLBÜL

Yenə qonub şax budağa
Nə sızlarsan belə, bülbül?
Vəfasızdır yarın sənin,
Yanıb dönmə külə, bülbül!

Hər bir bağın bağbanı var,
Hər aşiqin dövranı var,
Hər bağçanın reyhanı var.
Rahimin öz cananı var,
O bənzəməz gülə, bülbül!

Öz meylini salmış xara,
Etmiş səni bəxti qara,
Aşiq olub dönük yara
Düşmə dildən-dilə, bülbül!

Dövranımın şən çağında
Ötmə qəmli gül bağında.
Vəfasızın sorağında
Ömrü vermə yelə, bülbül!

DAĞLAR

Bilir yaşıl çəmən, çiskinli dərə
Mən çoxdan aşiqəm gözəlliklərə.
Demişəm, deyərəm yenə yüz kərə
Vurulmuşam sizə dağlar, a dağlar!

Min ləzzət almışam axar-baxardan,
Zirvələr məskənim olmuş hər zaman.
Qalalar yadigar qoç Koroğludan,
Əziz xatirələr saxlar, a dağlar.

Dəlir asimanı qarlı başınız,
Vaxt olur çatılır kaman qaşınız.
Yaxşı bilsin bunu yar-yoldaşınız
Sinəmdə eşqiniz çağlar, a dağlar.

Yolçu qüzeylərə yaxşı nəzər sal!
Qarlı zirvələrə qalxıb ilham al!
Bir yol üstünüzdə uçmasa qartal
Qayalar dil deyib ağlar, a dağlar!

Görüb qışınızı, baharınızı,
O həlim, amansız rəftarınızı,
Rahim vəsf eləyir vüqarınızı,
Yetirsin səsini dağlara dağlar.

NUBAR

Mən bir quşam, ötən şirin dilim var,
Hicran nədir? Yanımda sevgilim var,
Bir bağbanam təzə qönçəm, gülüm var;
Bahar mənim, bağça mənim, bar mənim.

Bir insanam yoldaşımdır səadət,
Sürgün olmuş vətənimdən fəlakət,
Bilməyirəm nədir həsrət, zəlalət,
Dünya bilir ağ günlərim var mənim.

Mənim özgə aləmim var, çağım var.
Hər il təzə nubar verən bağım var,
Günə baxan bostanım var, tağım var,
Ətirli gül, heyva mənim, nar mənim.

Şeir yazıb kirpiyinə, qaşına,
Dolanmadım hər gözəlin başına.
Azad elin torpağına, daşına
Səda salan kaman mənim, tar mənim.

Ellərimdir incəliyi fərq edən,
Bir iz qoyar bu dünyadan hər gedən.
Könül deyir mən qalmaram cərgədən,
Hasilimi görür vətən, yar mənim...

BİR GÜNDƏ, BİR SAATDA

Oğlan qıza söylədi: "Tanışıq biz, üç ay var.
Bu xam torpaqlarda da yaşayırıq bəxtiyar.
Bir sualım var sənə:
Nə zaman, nə vaxt mənə
Mehribanım, əzizim, ərim söyləyəcəksən?"
Qız, ilk baharın sühüb gələcək yollarını,
Bir də yeni əkilmiş qızılgül kollarını

Dedi: "Bağça-bağından,
Qızıl gül budağından
O zaman ki, sənə gül dərim, söyləyəcəksən".
Şoferdir bizim oğlan, aldımı bir təyinat
Yetirərdi yerinə tapşırığı o saat.
Tez başa çatdırardı üzügülər, sürətlə.
Nəğməylə qət edərdi daim iş yollarını.
Ancaq o gündən bəri şofer oğlan həsrətlə
Seyr eləyir həyətdə qızılgül kollarını.
Qız, ona gələcəkdir qızılgül açılanda.
Meh əsdikcə ətrafa ətirlər saçılanda.
İndi seyr elədikcə
Ona elə gəlirdi:
Qızıl gül budaqları
Çox ağır dirçəlirdi...
Ah, bu oğlan necə də istəyərdi həyatda
Qızıl gül açılaydı bir gündə, bir saatda.

MƏNİM AĞ GÖYƏRÇİNİM

Göyərçinim sevimli,
Göyərçinim dümağdır.
Göyərçinim fərəhlə
Hələ çox uçacaqdır.

Dolanacaq göylərin
Aydın üfüqlərində;
Süzəcəyəm onu mən
Əməllər şəhərində.

Bəsləyirəm quşumu,
Özüm ona baxıram,
Ucalanda göylərə
Sanki mən də qalxıram.

Sevimli nəğməsinin
İlk sözü qurtuluşdur;

Sülhüm qardaşı, dostu
Bəslədiyim bu quşdur.

Dönsün şirin arzular
Həqiqətə, çin olsun.
Ölkələr üzərində
Uçan göyərçin olsun.

Göyərçinim qəşəngdir,
Qanadları qırılmaz,
Uçar azad göylərin
Qucağında yorulmaz.

Dolansın göyərçinim
Göylərin üst qatını,
Ötsün həyatlarında
Ellərin həyatını.

Tükləri pambıq kimi
Yumşaq göyərçinim;
Yaşa azad ölkədə,
Mənim ağ göyərçinim!

SEVGİ

Sevginin ürək adlı
Günəşli mənzili var.
Eşqə düşənlər bilir
Sevginin öz dili var.

Baxmamışdan görürsən,
Danışırsan dinmədən.
Bəzən də qəm yeyirsən
Bir dəfə sevinmədən.

Baxışlar danışanda
Kilidlənir dil, dodaq,

Girir şirin söhbətə,
Bu dəm ürəklər ancaq.

Bir təbəssüm, bir gülüş
Min bir hekayət deyir:
Məlul-məlul bir duruş
Giley, şikayət deyir.

Şirin barın dadı bir,
Eşqin min bir dadı var.
O bizi ruhlandırır,
Uçurur, qanadı var.

Nədir sevgi, məhəbbət,
Eşqə düşənlər bilir.
Bəxtiyardır o kəs ki,
Həm sevir, həm sevilir!

LİRİK NƏĞMƏ

Mixəkmidir, hilmidir,
Şirin balmı, dilmidir?
Lalədən al yanaqmı,
Yoxsa qızıl gülmüdür?

Baxça gözəl, bar gözəl;
Heyva gözəl, nar gözəl
Hələ xeyli bəxtiyar
Günlərimiz var, gözəl!

Mixəkmidir, xalmıdır?
Yaşılmıdır, almıdır?
Çəməndə narın gəzən
Yarmıdır, maralmıdır?

Qoy söyləyim ürəkdən!
Yar, gözəlsən çiçəkdən.

Mən səni qısqanıram
Əsən mehdən, küləkdən.

Ümidmi, gümanmıdır?
İqrarmı, peymanmıdır?
Çəməndə ətir saçan
Gülmüdür, cananmıdır?

Yar, şəkərdir sözlərin,
Gül bitirir izlərin.
Səhərlərə nur verir
Sənin ala gözlərin.

Dağlar başı qar deyil,
Göy bağçalar xar deyil.
Düzləri gülzar edən
Yarımdır, bahar deyil.

KÖNÜL VERDİM

Eşqə düşdüm, könül verdim
Siyah zülfü şahmara, mən.
Ötdüm şeyda bülbül kimi
Aşiq oldum bahara mən.

Könül verdim şirin sözə,
Ellər keçdim gəzə-gəzə.
Ovçu kimi çıxdım düzə
Özüm döndüm şikara mən.

İstər etsin dərdə çara,
İstər məni çəksin dara,
Könül verdim nazlı yara –
O gül üzlü nigara mən...

NƏSƏN

Gözəlim, başına dönür fələklər
Sevgi dünyasında sultansan, nəsən?
Ətrin məst eləyir aşiqlərini,
Yoxsa qızıl gülsən, reyhansan, nəsən?

Nədir bu gözəllik, nədir bu camal?
Üzünü görəndə utanır hilal.
Sən bu lətafətlə, a dərya kamal,
Sirlər xəzinəsi ümmansan, nəsən?

Sakit sular kimi bəzən axırsan,
Canlar yandırırsan, evlər yıxırsan,
Bəzən tovuz kimi süzüb baxırsan,
Yoxsa öz-özünə heyransan, nəsən?

Məcnunun Leylası neylər yanında?
Başqa lətafət var şirin canında.
Eşqin bu varılmaz asimanında
Belə ki, süzürsən, tərlansan, nəsən?

Sənsən gözəllərin başının tacı!
Aşiqlər hüsnünün olmuş möhtacı,
Rahimin dərdinin sənsən əlacı,
Özüm də bilmirəm loğmansan, nəsən?

DEYİRƏM

İlham rübabımı dindirim yenə,
Ürəkdən bir onu çalım, deyirəm.
Ötsün aşiqlərin sədaqətindən
Sarı simlərdəki xalım, deyirəm.
Yazım qüdrətini ana yurdumun,
Dərin xəyallara dalım, deyirəm.
Qaraqaş, qaragöz şux gözəllərin

Camalından ilham alım, deyirəm.
Vətən torpağında yaşıl bir ağac,
Ətirli gül, çiçək olum, deyirəm.
Etibardan yazım, əməldən yazım
Yenə öz əhdimdə qalım, deyirəm.
Dolanım başına vəfalı yarın,
Onun qadasını alım, deyirəm...

HƏSRƏTİNDƏYƏM

Dedin ömür sürək hər zaman qoşa,
O əhdi-peymanın həsrətindəyəm.
Sənsiz açılmayır qapım, sevgilim,
Sən gələn zamanın həsrətindəyəm.

Həyat mehrabımın şamı sən oldun,
Ağzımın bal dadan tamı sən oldun,
Baxtımın şərbəti, camı sən oldun,
Bəs nədir fərmanın, həsrətindəyəm.

Gül tez solur, sənə çiçək demərəm,
Mələk xəyalidir, mələk demərəm,
Sənsiz ömür mənə gərək demərəm,
Sənlə hər anın həsrətindəyəm.

Sənsiz üzüm gülməz, könlüm açılmaz,
Üstümə bir dəfə işıq saçılmaz,
Həqiqətdən, axı kənar qaçılmaz,
Sən kimi insanın həsrətindəyəm.

Sənsiz uzun gecə yuxum çəkilər,
Üstümə dünyanın odu tökülər,
Sənsiz aşiqinin beli bükülər,
Əziz mehribanın həsrətindəyəm.

Təsəllim olmusan ağır çağımda,
Güllər yetirmisən əməl bağımda,

Mən öz çəmənimdə, öz oylağımda
Sən kimi tərlanın həsrətindəyəm.

Fələk arzuladı: könlüm qanaya,
Saldı nigarımı xəstəxanaya,
Mən hansı gəlinə, hansı anaya,
Deyim ki, cananın həsrətindəyəm.

Rahimin varsa da dərdə dözümü,
Sevgilim, yollarda qoyma gözümü.
Qurbanlıq istəsən verrəm özümü,
Olaram qurbanın, həsrətindəyəm.

ÇAY DƏRƏN QIZLAR

Gördüm sizi yaşıl kollar içində
Çay dərəndə, sərvətiniz var olsun.
Yurdumdakı mərd oğullar içində
Ad-sanınız, şöhrətiniz var olsun.

Lənkəranın çay dərən şən qızları,
Həsəd çəkir sizə göy ulduzları.
Bu dünyada səadətdir payınız,
Ətirlidir, çox gözəldir çayınız.

Axşamüstü eyvanından yarımla
Seyr edirəm, süzür göydə ulduz, ay;
Baş-başayam şirin arzularımla
Qabağımda var məxməri dəmli çay.

O kəslər ki, alnı açıq, üzü şən
Yurdumuzu lalәzara döndərir,
İftixarla öyünərək ürəkdən
Bu nəğməylə sizə salam göndərir.

LEYLA

Getsən bağdan əgər
Güllər boynun əyər,
Bülbül qan-yaş tökər.
Ağzı, dili şəkər –
Allı-güllü Leyla,
Şirin dilli Leyla!

Dedim adın ceyran,
Ceyran sənə heyran.
Ətri bağda, canan,
Alır səndən reyhan
Allı-güllü Leyla,
Şirin dilli Leyla!

Qaşın, gözün qara,
Çəkmə məni dara!
Canım qurban yara,
Allı-güllü Leyla,
Şirin dilli Leyla!

SƏNƏ

Fərəhlə gəzəndə yamaclar boyu
Baxıb həsrət çəkər dağda qar sənə.
Demirəm bənzərin qızıl gülədir,
Oxşar təravətdə ilk bahar sənə.

Bu ana yurdumun azad qızısan,
İşığı sönməyən dan ulduzusan.
Adın Mehribandır, özün mehriban,
Səadət bəxş edib bu diyar sənə.

Qartal sənə baxıb qanad çalıbdır,
Rahim ilhamını səndən alıbdır.
Bu ana yurdundan miras qalıbdır:
Sədaqət, dəyanət, etibar sənə.

ÜÇ GÜNDƏN BİR, BEŞ GÜNDƏN BİR

Səhər gəzib göy çəməni
Axtaranda gözüm səni,
Qınamasın nadan məni
Üç gündən bir, beş gündən bir.

Nədən aşiq bihuş ola?
Könül istər bir quş ola,
Pəncərənə qonmuş ola
Üç gündən bir, beş gündən bir.

Şumal boya qurban olum,
Gül üzünə heyran olum,
Yara əziz mehman olum
Üç gündən bir, beş gündən bir.

Qaya dibi sərin olur,
Göy dəryalar dərin olur.
Yar busəsi şirin olur
Üç gündən bir, beş gündən bir.

A ZALIM!

Ağ kağız kimidir qız, mərmər sinən,
Sən məgər dağlarda qarsan, a zalım?
Nə bir uf deməsəm, nə də bir aman,
Xəncərlə bağrımı yarsan, a zalım!

Sənsən aşiqlərin fikri, xəyalı,
Gecələr mat qoyur hüsnün hilalı.
Olmaz sevənlərin dərdi, məlalı;
Sən ki, bu hüsnilə varsan, a zalım!

Ay ellər gözəli alagöz pəri!
Şairin dilinin sənsən əzbəri.
Hüsnünü vəsf edir havaxdan bəri
Sən məgər Rahimə yarsan, a zalım?

O GÜNÜ SAYARDIM SEVİMLİ BAYRAM

Qaranlıq çökəndə, gələndə axşam,
Anam otaqlarda alışdırdı şam.

Dedim ki: "ay ana, işıqlar yanır,
Ətraf gündüz kimi nura boyanır.
Söylə yandırdığın bu şamlar nədir?
Dedi: mehribanım, əziz gecədir.
Axı ildə bu vaxt şam yandırarlar.
Bizə qonaq gəlir sevimli bahar!
Bayram axşamıdır, el adətidir,
İşıq səadətin əlamətidir!"
Bu gecə göydə də yanır çox ulduz...
Gözümdə canlandı xoşladığım qız,
Yandıra bilsəydim əgər onun mən
Könül otağında məhəbbətimdən
Balaca bir işıq, balaca bir şam,
O günü sayardım sevimli bayram.

MƏNİ YANDIRMA BELƏ

Ay gözəl, nə var belə
Baxmırsan biz tərəfə?
Nədir bu rəftar belə,
Rast gələndə hər dəfə
Yan durursan, nə üçün?
Məni odsuz, ocaqsız,
Yandırırsan nə üçün?
Adına güldən ağır,
Axı nə söz demişəm?
Nə olar ki, biləydim
Nə günah işləmişəm.
Söylə bu halət nədir?
Olmaya bilməyirsən

İnsaf, ədalət nədir?
Gözəl şəhər bağında
Gəzəndə, dodağında
Gülüşlər gülə dönür:
Mənim elə bu zaman
Fərəhim selə dönür.
Əgər nə vaxt görürsən
Qəzəbli, qaşqabaqlı
Sevincin qapıları
Olur üzümə bağlı.
Bunları bilə-bilə
Dinməyirsən nə üçün
Məni görəndə belə?
Sən ki, başdan-ayağa
Çox incə bir şeirsən.
Nə olub son zamanlar
Belə zülm eləyirsən?
Gəl cəfanı tərk elə.
Yetər, odsuz-ocaqsız
Məni yandırma belə.

DEDİM – DEDİ

Dedim: nə var, lalə, belə yanırsan?
Dedi: al qırmızı alma yanaqdır.
Dedim: nə şirinsən bəxtəvər şəkər,
Dedi: məndən şirin dildir, dodaqdır.

Dedim: yara, sanma qəmdən bezərəm,
Dedi: əhli halam, yaxşı sezərəm.
Dedim: hər zülmünə özüm dözərəm
Dedi: nə sözün var, bu da sınaqdır.

Dedim: çoxdan könül sorağındadır,
Dedi: pərvanə şam fərağındadır.
Dedim: nə var, Rahim otağındadır,
Dedi: nə işin var, əziz qonaqdır...

SEVGİLİM

Bizim yerdə bu adətdir əzəldən,
Hörmət olar sənətkara, sevgilim,
Mən dönmərəm sənin kimi gözəldən
Qaşlar qara, gözlər qara, sevgilim.

Siyah tellər gərdənində görünür,
Könlüm kimi həsrətinlə sürünür.
Can sarayı nəşələrə bürünür
Sən çıxanda çəmənzara, sevgilim.

Şümşad baxar, həsrət çəkər əlinə,
Əttar aşiq mixəyinə, hilinə;
Qənd heyrandır şirin-şəkər dilinə,
Dağ çəkirsən dağda qara, sevgilim.

Qulac-qulac hörüklərin ilandır.
İncimirəm, sal boynuma dolandır,
Biz gedirik, qoca dünya qalandır,
Rahim qurban nazlı yara, sevgilim.

YALAN HA DEYİL

Dedim: gəl çıxmayaq uca dağlara,
Dedi: qorxma-qorxma, duman ha deyil!
Dedim: kirpiklərin tökdü qanımı,
Dedi ki, qaşlarım kaman ha deyil!

Dedim: gül dərmişəm eşqin bağından,
Dedi: keçməmisən Sənan dağından,
Dedim: şamamanı dərrəm tağından,
Dedi ki, nə olub, talan ha deyil!

Dedim: doymamışam şəhdü-şəkərdən,
Dedi: var xəbərim bu son xəbərdən.

Dedim: işıqlıdır könlün səhərdən,
Dedi: başqa sayıq olan ha deyil...

Dedim: sevdamızı el, mahal bilir.
Dedi: kim bu eşqi qeylü-qal bilir?
Dedim: dodağını Rahim bal bilir,
Dedi ki, doğrudur, yalan ha deyil...

KEÇDİ

Yenə gülşəndən ötüb gözləri afət keçdi.
Yenə şahanə xuram etdi, qiyamət keçdi.

İzlədim sayə kimi yar baxıb güldü qəşəng,
Göstərib aşiqinə xeyli nəzakət keçdi.

Coşdu şaxlardakı bülbül onu gördükdə yenə,
İlk baharım verərək bağə təravət keçdi.

Unudub yar məni zənn eyləyərək küsmüşdüm,
Onu gördükdə sönüb cümlə ədavət keçdi.

Ahu gözlüm yenə səyyad kimi gəlsin Rahim,
Aşiqin günləri ol şux ilə şərbət keçdi.

BİRİ SƏNSƏN, BİRİ MƏN

Gözəlim, tər qönçəsən göy yarpaqlar içində,
Bərabərin tapılmaz yaşıl bağlar içində.
Əhdinə dönük çıxan doğransın dilim-dilim,
Mən sənə yar demişəm, sən də mənə sevgilim.
Kama yetişənlərin arasında xeyli şən
Biri sənsən, biri mən.

Sevilmək ağır günah, sevişmək xətər deyil,
Sevda nədir bilməyən sanıram bəşər deyil.

Göylərə uçanların,
Aya yol açanların
Əməlindən ruhlanan, zövq alan hünərindən
Biri sənsən, biri mən.

Fərəhimiz dənizdir.
Eşqimiz saf, təmizdir.
İqbalımı tapmışam gözünün qarasında,
Vüsalına yetişən gənclərin arasında,
Sədaqət çeşməsindən içib, doydum bilməyən
Biri sənsən, biri mən.
Tərsanələr yaradan, işıqlı evlər tikən,
Bağ salan, şiş dağlara tunellər, yollar çəkən
Gözəl yurdumuzdakı əziz mehribanların,
Bu sevimli, bu azad, bu xoşbəxt insanların
Polad cərgələrində mətanətlə yeriyən
Biri sənsən, biri mən.

Daha gözəl gələcək sevdamızın baharı,
Bayraq kimi qaldıraq vəfanı, etibarı.
Aşiq nə arzulayır: ünsiyyət, mehribanlıq,
Yer üzündə bilməyib nədir qəzəb, yamanlıq,
İnsanlara səadət, bəxtiyarlıq istəyən
Biri sənsən, biri mən.

RÜBAİLƏR

Dedim vətən adlı bir işvəkara:
"Bu nədir geymisən yenə al, xara?
Xəbərin yoxmudur qocalığından?"
Dedi ki: "Mən hara, qocalıq hara!"

Dünən yüz yaşında bir ağsaqqalı
Bizim zamanadan eylədim halı.
O dedi: "Nə gözəl qanun olubdur
Xalqın öz əməli, xalqın öz malı!"

Kefi kök, damağı xeyli çağ bizik,
Alnı daim açıq, üzü ağ bizik.
Əriyən şamların dövranı keçdi,
Əbədi parlayan gur mayak bizik.

Vətənim sevimli xoş laləzardır,
Hər addım başında aləmi vardır.
Mən bu çəmənzarda kamə yetmişəm,
Ömrüm təravətli bir ilk bahardır.

Bakının ulduzu yansın vüqarla,
Əməlim gül açıb gülür baharla.
Azadlıq aşiqi insan öyünür
Bizim yurdumuzla, bizim diyarla.

Bu calal, bu şövkət, bu şan mənimdir,
Gül açan ətirli öz gülşənimdir.
Azadlıq, səadət, əməl gülzarı
Sülhün ilk beşiyi bu Vətənimdir.

Aşıq gördüyünü dastan eləyər,
Gəzər əlində saz cövlan eləyər.
Səadət yurdudur bizim yurdumuz,
Qocanı döndərib cavan eləyər.

Tazə gəlin kimi çətrin var, ay gül!
Şairin yanında xətrin var, ay gül!
Cananın əlləri dəymişdir sənə,
Ki, bu qədər gözəl ətrin var, ay gül?!

Tarçı şurə gələr tarı görəndə,
Tülək tərlan cumar sarı görəndə.
"Canan həyatımdır" söyləyən aşiq,
Nədən huşdan olur yarı görəndə?!

Dünyada lələ var, kaşı var, dəniz!
Hər adanın neçə yaşı var, dəniz?!

Könül dedikləri bir dəryadır ki,
Onun da incisi, daşı var, dəniz!

Borcludur, nadanı salsın başa söz,
İnsanda olmasın heç vaxt qoşa söz,
Yalnız bir ürəyə yatan olmasın,
İşləsin ox kimi gərək daşa söz.

Bal da şirin deyil cananə kimi,
Sındırma qəlbini peymanə kimi
Yarın şəmə dönüb yanır eşq ilə,
Dur, dolan başına pərvanə kimi.

Mənim yarım gərək qələmqaş olsun,
Hüsnü kamalilə həmyoldaş olsun.
Ey mənə "sevgidən əl götür!" deyən
Əmr elə ürəyim qara daş olsun.

Çəməndə lalənin rəngi al olur,
Aşiqin nəsibi xoş vüsal olur.
Səni görən kimi, a şirinüzlüm,
Nədən tuti dilim mənim lal olur?

Ömür mənalanır şirin keçəndə,
Dövranın əlindən şərbət içəndə.
Bizim dünyamızda çox bəxtiyardır
Elçi seçilən də, elçi seçən də.

Seyrə çıx gülzara, bahar çağıdır,
Çiçək ətir yayır, kədər dağıdır.
İncimə o gülü canan, iyləsəm,
O da bir gözəlin al yanağıdır.

Sənin alnın açıq, üzün də ağdır,
Sevincin, fərəhin qucaq-qucaqdır.
Əsl sənətkarın qeydini çəkmə,
O, söz dünyasında yaşayacaqdır.

Bu dünya işində az xam olmadı,
Bəzən uşaq kimi aram olmadı;
Çoxları mey içdi meyxanələrdə,
Kefləndi, amma ki, Xəyyam olmadı.

Könül odlar saçan qızğın ocaqdır,
Vətəni insana doğma qucaqdır.
İndi gurlamasa mənim sənətim
Bir deyin nə zaman gurlayacaqdır?!

Baxaraq günəşə dedim: "İşvəkar,
Sən ki, parlayırsan bu göydə par-par,
Qaralsan dönməzmi cahan zülmətə?"
Dedi: "Qorxma, sənin öz günəşin var".

Buludlar, buludlar, bəyaz buludlar.
Dəryanız ki, deyil dayaz buludlar!
Sizlərdən yuxarı könlümdür edən
Azad quşlar kimi pərvaz, buludlar!

Nə qonmusan yenə budağa, bülbül!
Can sənə elərəm sadağa, bülbül!
Dayan, mən də çıxım evdən bağçaya
Ötək, verib dodaq-dodağa, bülbül!

Ölməz bu dünyada vəsli-yar görən,
Sədaqət hiss edən, etibar görən.
Olmuşmu söyləyim uzun çinarda,
Ya da boz söyüddə şirin bar görən?

Gözəldir kainat, bir bax, bənövşə!
Bu qanun, bu şərəf, bu haqq, bənövşə!
Yaraşmaz sənə də bizim zamanda
Belə boynu əyri durmaq, bənövşə!

Səsini boşluqda bərkitmə, durna!
Eldən uzaqlara gəl getmə, durna!

Dəyişir iqlimi öz əllərimiz,
Bu yaşıl çölləri tərk etmə, durna!

Kim deyir ulduzun göydə sanı var?
Hər yanan ülkərin öz dövranı var.
Könül dedikləri bir asimandır,
Onun da günəşi, kəhkəşanı var.

Sanma ki, bir günəm, düşün il məni,
Çay deyil, gur seləm, tanı, bil məni.
Min bir xal vurmuşam bir simdə, qafil
Sən indi görürsən belə zil məni?

Qəlbə fərəh verən şirin muraddır.
Nəşəmiz oynağan bir şux Qıratdır.
Böyük Nizaminin vətəni – yurdum,
Bilirəm hər daşın cavahiratdır.

Haqq gərək dünyada pərdələnməsin,
İnsanın vüqarı yerə enməsin.
Bir Şirinüzlünün Fərhadıyam mən
Eşqimin oduna su çilənməsin.

Dünyanı cənnətə döndərən bizik,
Düşmənə zərbələr endirən bizik.
Yarımın minməyir sənək belinə,
Çayları kəndlərə göndərən bizik.

Mənəm həqiqəti yaşadan ancaq,
Azadlıq məndədir, qəlbimdədir haqq.
Nə bir ah çəkəcək ömrüm dünyada,
Nə Kür quruyacaq, nə sal yanacaq.

Zil heç duyulmazdı bəm olmasaydı,
Bütöv sevilməzdi kəm olmasaydı.
Nəşənin qədrini bilməzdi insan
Qüssə olmasaydı, qəm olmasaydı.

Qızıl gül açıldı, uzadıb əl, dər!
İncitmə yarpağı, ehtimallı gəl dər!
Özün çevrilməmiş qara torpağa
Zamandır, sevgilim, nazlı gözəl, dər!

Gözümün nurudur qoçaq adamlar,
Ruhumu dırmalar şıltaq adamlar.
Nə zaman dünyadan silinəcəkdir
Simasız adamlar, yaltaq adamlar?

Zövqi meydə görmə, səhba nə lazım?
Axar susuz çəmən, səhra nə lazım?
Dünyanı dolduran nəşəm olmasa
Siz deyin, bu quru dünya nə lazım?

Ruhum sığışmayır əsla darlığa,
Mən azad gəlmişəm geniş varlığa.
Şərimin süngüsü sancılacaqdır:
Hiyləyə, fitnəyə, riyakarlığa!

Yarım dənizdədir, sahilə dönsün,
Sevincim, fərəhim gur selə dönsün.
Cananla bir yerdə olduğum zaman
Hər günüm uzanıb bir ilə dönsün.

QIZ, XALİQİN ÖLƏYDİ

Saldı qara gözlərin neçə aşiqi bəndə,
Qız, xaliqin öləydi səni xəlq eləyəndə,
Kamına çatmayaydı,
Səni yaradırdısa, məni yaratmayaydı.
Nə ad verim hüsnünə, dağlardakı qarmısan?
Ömrə əsən sərin meh, zəhərli ruzgarmısan?
Sənə mələkmi deyim? Görməmişəm mələyi.
Sənmi dolandırırsan, söylə, çərxi-fələyi?
Bu necə yaraşıqdı, bu nə sayaq bədəndi?

Qız, vücudun nədəndi?
Nəyə oxşadılıbdı yarananda bu qamət?
Hardandı bu təravət?
Sən bahar fəslisənmi?
Leylimi, Əslisənmi?
Yoxsa adın Şirindi?
Şirinliyin ətirli şəkərdən də şirindi!
Süsənbər, ağ yasəmən səndən təzə-təmidir?
Vücudun mərmərmidir?
Sənə axar su deyim suyu dayandırarsan.
Atəşmi adlandırım? Alovu yandırarsan.
Saldı qara gözlərin neçə aşiqi bəndə,
Qız, xaliqin öləydi səni xəlq eləyəndə,
Kamına çatmayaydı,
Səni xəlq edirdisə, məni yaratmayaydı...

PİLLƏLƏR

Ağır-ağır qalxıram pillələrlə yuxarı,
Saralıb solmaqdadır ömrün axar-baxarı;
Gedirəm yavaş-yavaş, elə bu vaxt yanımdan
Sürətlə gəlib keçir xeyli cavan bir oğlan.
Mən onunçün kölgəyəm, mən onunçün qaraltı.
Zərif yel nəğməsini oxuyur dodaqaltı.
Durub nəfəs dərirəm, yol çatmayıb yarıya.
Nəzər salıram geri,
Görürəm ceyran kimi sıçrayıb pillələri
Enir cavan, mən isə qalxıram yuxarıya.
O, düşərkən aşağı nəşəli nəğmə deyir,
Mən yuxarı qalxıram, könül qüssə, qəm yeyir.
Pillələr, daş pillələr!
Qalxıram üstünüzdən yavaş-yavaş, pillələr!
Düşünürəm bir müddət
Həyat pillələrində bambaşqadır vəziyyət.
Orda mən aşağıya enirəm, cavan oğlun
Ox kimi yuxarıya süzüb keçir yanımdan.

Yüksəlir çox fərəhlə həyat pilləkanında;
Tək deyil, qara gözlü bir qız da var yanında,
Xəbərsizəm cavandan, bilməyirəm o kimdir.
Bəlkə elə bu oğlan mənim öz gəncliyimdir?
Baxıram arxasınca, ah çəkirəm dərindən,
Mən enirəm, o qalxır həyat pillələrindən...

MEŞƏ HƏSRƏTİ

Əzəmətli ağacdım, tufan kimi əsdilər,
Bir gün məni kəsdilər.
Apardılar, qopardım yanıq nalə, hay-haray,
Qulaq asan olmadı, doğradılar laybalay.
İş getdi üzərimdə.
Bir gün eşitdin mənə ela masa deyirlər;
Aldın, evinə gəldim oturdum öz yerimdə.
Üstümdə o zamandan yaradırsan şeirlər.
Sıxılıram, qələm al, meşədən bir əsər yaz,
Yaz, xəbər ver nə sayaq ayaq tutub gəlir yaz,
Oyanır qardaşlarım səhər, necə yuxudan,
Heyvanlar ac gəzirmi ürkək-ürkək qorxudan,
Əvvəlki tək yayırmı güllər çölə ətrini?
Xeyli əziz tuturam talaların xətrini.
Mən yarpaqlı olanda,
Qol-budaqlı olanda
Gərək sən təbiətin qucağına gələydin,
Kölgəmdə dincələydin.
Gözəllər gül dərəndə çəməndən ətək-ətək,
Təbiətin qoynuna sən də gələydin gərək;
Köpüklü çay mənimlə danışanda gələydin,
Gecələr ay mənimlə danışanda gələydin.
Arasından şaxların duman, çən yeriyəndə,
Göydə köçəri quşlar həzin nəğmə deyəndə,
Eşidəydin onların dərdini, möhnətini;
Dinləyəydin meşənin əsrarlı söhbətini.
Sən o zaman gəlmədin,

Kölgəmdə dincəlmədin.
Darıxıram indi çox, sıxır könlümü həsrət,
Meşəni tərənnüm et!
Ağaclar yellədirmi quşların yuvasını?
Yaz, şərindən hiss edim meşənin havasını.
Yaz, könlümə düşübdür yaşıl çöllər bayırlar;
Bir meşə yaz ki orda ağac doğramayırlar.

GÜL KİMİ BİTMƏYİRSƏN

Gözəl qız, nədən mənə etina etməyirsən,
Neçin belə soyuqsan quzeydəki qar kimi?
Eşqimin bağçasında gül kimi bitməyirsən,
Qürurlusan möhtəşəm, vüqarlı dağlar kimi?
Hüsnünə, bilməyirəm, nə üçün yetməyir əl?
Sən ki, belәsən, gözəl;
Gərək mən çevriləydim sərin bir yaz yelinə,
Oxşayaydım üzünü, toxunaydım telinə.
Həmin yel olduğumu sən əsla bilməyəydin,
Açıb mərmər sinəni sərinləyim, deyəydin
Əziyyətsiz, cəfasız olaydım otağında,
Ətrafında gəzəydim-ətirli gül bağında.
Günəş olaydım gərək,
Hər gün yaxaydım səni işgəncələr verərək.
Ətirli gül olaydım, əllərinlə dərəydin,
Sinən üstə sərəydin.
Bunların heç birisi olmamışam, insanam.
Dağa döndərir məni insanlıq məziyyətim.
Məni bu kainata insan doğmuşdur anam,
Gül qədər bir kimsəyə olmamış əziyyətim,
İndi ki, bəs belədir, nə üçün sən ey gözəl,
Arzuma edib əməl
Mənə bircə dəfə də etina etməyirsən?
Eşqimin bağçasında gül kimi bitməyirsən?..

O YANIRDI

Şair bahar çağında
Qapadı gözlərini öz ana torpağında.
Qərq oldu eşidənlər dərin matəm içində,
Axın-axın gələnlər hüzünlü, qəm içində.
Tabutunun önündə keşik çəkib, dayandı.
Sənətin aşiqləri alışıb yandı-yandı.
Axı o çox yazardı insanın sevdasından,
Yorulmadan ötərdi məhəbbət dünyasından.
Apardılar dəfn üçün onu mehriban əllər
Hörmətlə tapşırmağa sonuncu mənzilinə.
Gəldi məzarıstana vəsf etdiyi gözəllər,
Gözəllər ki, verərsən ömrünü bir telinə.
Sükut çöküb hər yana, daşa dönüb camaat.
Danışdılar bir saat.
Bu kədərli, bu qəmli,
Bu dərdli, bu ələmli
İnsanlardan kənarda bir qadın dayanırdı,
Qara örtük başında.
Qərq olmayırdı əsla, o qadın göz yaşında,
Lakin hamıdan artıq şairə o yanırdı...

QUBA YAYLAĞI

Şəhərin səs-küylü küçələrindən
Gəldinmi qoynuna yaşıl bağların?
Zövq alıb ulduzlu gecələrindən,
Duydunmu ətrini bu torpaqların?

Alma qızaranda qız yanağı tək
Əyilən şaxlara vurdunmu paya?
Burda könül verər sənə gül-çiçək,
Bir dastan oxuyar hər daş, hər qaya.

Təmiz üfüqlərlə, şəfəqli göylə
Dinib danışmamaq mümkün olarmı?

Özün ədalətlə, insafla söylə
Quba bağlarının oxşarı varmı?

Çeşmədən gələndə qızlar, gəlinlər,
Yanından keçəndə başı aşağı,
Onları süzdünmü hər axşam-səhər,
Coşdumu qəlbində eşqin bulağı?

Üçgünə, Qəçrəşə heç getmisənmi?
İçmisənmi sərin bulaqlarından?
Qoşqarı, Kəpəzi seyr etmişsənmi?
Xəbərin varmıdır yurdun varından?

Təndir içindəki təzə gilnəndən
Götürüb isti qax yemisənmi heç?
Gözəl təbiətə vurularaq sən;
"Əhsən bu yerlərə!" demisənmi heç?

Quşlar oxuyanda irəmələrdə
Seyrə dalmısanmı saf təbiəti?
Qəlbə fərəh verir, dostum, bu yerdə
İnsan məhəbbəti, insan zəhməti.

Qulaq asmısanmı, bağban riqqətlə
Deyəndə, mal yeyib cavan şaxları?
Görmüsənmi süzür necə heyrətlə
Gələn qonaqları, kənd uşaqları?

İncə nəğmə deyir axar bulaqlar,
Dinib söhbət açır el şöhrətindən.
Aşıq Ələsgərin sevdiyi dağlar
Nişanədir xalqın əzəmətindən.

Demə valeh olub, qapıldım hissə,
Söylə, bu yerlərə bənzər yer hanı?
Qubanı, Göy gölü görməmisənsə,
Demə ki, görmüşəm Azərbaycanı...

AYRIDIR YOLLARIMIZ

Sən keçirsən qürurla yetkin bir maral kimi,
Mən, dayanıb baxıram məlul-məlul, lal kimi,
Sənin yaşın iyirmi, mənim sinnim əllidir,
Baxışların ruhuma sadəcə təsəllidir.
Sən parlaq günəş kimi süzürsən iftixarla,
Mən baxıram dalınca ürək dolu qubarla.
Məni mat qoyan gözəl,
Ya sən əlli il əvvəl
Gələydin yer üzünə,
Ya da mən otuz il gec.
Söhbətinə, sözünə
Asıram indi qulaq
Həsrətlə, a gülyanaq!
Bülbül kimi ötürsən, keçirsən maral kimi,
Mən səni seyr edirəm məlul-məlul, lal kimi.
Neyləyim, sevimli qız,
Məhəbbət dünyasında
Ayrıdır yollarımız...

ALAPALAZ OĞLU

Deyirlər Şuşada bir vaxt yaşarmış
Alapalaz oğlu – nadir oxuyan.
Deyirlər ki, şərqdə şöhrəti varmış,
Mədinəsi tarmış, Məkkəsi kaman.

Belə deyirlər ki, Bibiheybətdə
O, sakit gecələr oxuyan zaman
Bizim bu möhtəşəm Qız qalasının
Yanında, sahildə, kiçik həyətdə
İlahi səsinə qalaraq heyran,
Dinlərmişlər onu.

Böyük istedad
Ötüb, eləyərmiş ürəkləri şad.
O, çox məclislərə zinət olarmış,
Ömrünü verdiyi sənət olarmış...
Onun yazmasam da mən, həyatını,
Yazıram İranda başına gəlmiş
Bir xan evindəki əhvalatını:
Məclis yaratmışdı xan, bağ içində,
Gül ətir saçanda yarpaq içində,
Xəbər tutan kimi demişlər xana
Alapalaz oğlu gəlib İrana.
Bizim el oğluna göstərib hörmət,
Etmiş məclisinə xan onu dəvət.
Coşanda duyğular, qaynayanda hiss,
Bütün şiddətilə qızanda məclis
Xan demiş: Görürəm növbə sənindi,
Alapalaz oğlu, dilə gəl indi!
Bu gün daş, divar da başlamış kefə...
Xanəndə üz tutub məclis tərəfə:
– Bağışlayın məni...
– Oxuyacaqsan!
– Hali-pərişanam, pəjmürdəyəm, xan!
– Mənim məclisimdə, ziyafət çağı?!
– Xeyr.
Xanın səsi bürüdü bağı:
– Bir "Müxalif oxu!" gələr xələtin.
(Bu sayaq bilindi qədri sənətin.)
– Oxu!
Xanəndəmiz əsla dinmədi.
– Əlli qızıl verrəm. O, sevinmədi.
Pula satılmayır həqiqi sənət.
Dalğalanıb, coşdu xandakı hiddət!
– Fərraş!
Tez gəldilər, əl üstündə əl.
Söylədi:
– Sözümə etməyir əməl;

Demək eləməyir ehtiram xana,
Əlli çubuq vurun bu qudurğana...
Dərhal köynəyini soyundurdular,
Onu üzüquylu yıxdılar yerə,
Çubuq dalısınca çubuq vurdular,
Dözdü sənət oğlu bu zərbələrə,
Vurdular...
Xanəndə qımıldanmadı.
Vurdular...
Halına zalım yanmadı.
Çubuqlar kürəkdə yaratdı zolaq.
Razı qalsın deyə xan, neçə yaltaq
Hiyləgərcəsinə gülümsədi də,
"Bəli, öz əcridir, çəksin" dedi də.
Vurdular... Xanəndə boyandı qana,
Görüm yerə girsin alçaq zamana.
Kin, qəzəb qəhr etdi xanı az qala,
Təəccüb elədi, baxıb bu hala
Mat qaldı "o necə insandır, – deyə –
Aman istəməyir heç mədən niyə?"

Bir kilim üstünə qoydular onu –
Mənim vətənimin əziz oğlunu
Məclisdən götürüb aparan zaman
Zorla gəlib dilə söylədi ki
– Xan,
Sən əmr eləyəndə yoxdu həvəsim,
Sandım ki, heç zaman olmayıb səsim.
Qubarlıydım azca, süstdüm bir qədər,
Yaltaqlar, ilhamı dərk etməyənlər
Qızdırdılar səni, durub yanında,
Demədilər, axı oxuyanın da
Qəlbi var, hissi var, möhnəti də var,
Daşdan yaranmayıb, axı sənətkar.
Həvəsi yoxdursa möhlət ver bir az,
Axı sənətkara zor gəlmək olmaz.

Sən bunu duymadın, əmr etdin: "Oxu!"
Bir yerə sığmayır sənətlə, qorxu.
Mənsə oxumadım... hələlik sağam,
Xan, indi, bax, indi oxuyacağam...
Zor-güclə bir "Zabul" başladı pəsdən.
Bu həzin, bu qəmli, bu dərdli səsdən
Xan kiçildi yaman, balacalandı...
Apardılar bizim vətən oğlunu;
Göylərin çırağı alışdı, yandı,
"Segah" kəsilmədi...
Söyləyim bunu:
Belə deyirlər ki, o vaxtdan bəri
Bəzən axşam üstü "Segah" səsləri
O bağ ətrafında ucalır göyə,
"Alapalaz oğlu yaşayır" deyə.

24 sentyabr 1965

HEÇ SƏNDƏN GÖZLƏMƏZDİM

Tər çiçək bilib səni, bir yol baxmadım gülə,
Dedim ki, mən sənlə çataram son mənzilə.
Bilməyirəm şüursuz, ya qəsdən bilə-bilə
Qırdın əhdi-peymanı, heç səndən gözləməzdim.

Güman etməzdim əsla məni salarsan dara,
Axı söylə, ay gözəl, hicran hara, mən hara?
Dırmandım həsrətinlə uca, qarlı dağlara,
Yağdırdığın boranı heç səndən gözləməzdim.

Dənizlərdə inci yox, səni gəzdim üzərək,
Tək səni axtarmışam möhnətlərə dözərək.
Sənsə öz aşiqindən uzaqlarda gəzərək
Bir demədin yar hanı? Heç səndən gözləməzdim.

Dedim gülər sevgimin əbədiyyət baharı,
Yağdı eşqin bağına uca dağların qarı.

Nə gizlədim, doğrusu, mən bu sayaq rəftarı
Ey eşqimin soltanı, heç səndən gözləməzdim.

Sənsiz ömrüm bənzəyər bir zavallı yetimə,
Dedi ki, son qoyarsan hicrimə, həsrətimə.
Vəfasız çıxdın niyə təmiz məhəbbətimə? –
Ey Rahimin cananı, heç səndən gözləməzdim.

KÖRPÜ

Körpü vardır ağacdan, körpü var daşdan olur,
Körpü vardır mötəbər metallardan qurulur,
Binəsi etibarlı.
Körpü var ehtişamlı, əzəmətli, vüqarlı,
Körpü vardır çay üstə, göy dəniz sularında,
Körpü vardır salınır insan arzularında.
Mən sevirəm ürəkdən bu gözəl körpüləri;
Onlardan insan oğlu keçib gedir irəli.
Körpü də var bir dəfə görünməyir gözə heç,
Sən belə körpülərdən yollanıb inamla keç!
Sevdasından yaradır təmiz ürəklər onu,
Zərrəcə sarsıtmayır əsən küləklər onu.
Keşməkeşli illərin çıxır ağır qışından,
Sarsılmayır namərdin fitnə-fel yağışından.
Daşı belə körpünün mehribanlıq, məhəbbət,
Dirəkləri vəfadır, bir də insana hörmət.
Ondan keçib gedənin iqbalı uğurludur,
Həyat yolu nurludur.
Bəşər belə körpülər ildən-ilə bol salır,
İnsanlıq bu körpüdən ağ günlərə yol salır.
Sən, cəmiyyət içində tapmağa öz yerini,
Həyat eşqindən yarat bu körpüdən birini.

TEZMİ GƏLƏR

Dayanmışam çəməndə, yolunu gözləyirəm.
Sevdiyim qız görəsən tezmi gələr, deyirəm?
Ay baxır, tapşırmısan bəlkə nurunu saçsın,
Sənsizliyi qovlayıb, mənim könlümü açsın.
Darıxıram, bu zaman sərin-sərin meh əsir,
Saçlarıma toxunur, o deyəsən tələsir
Məni sakit etməyə,
İndicə gələr, deyə.
Bülbül ötür çəməndə, bəlkə sən göndərmisən?
Ruhumu oxşamağa ona mahnı vermisən,
Demisən öt budaqda.
Ellər ki, heyranındır o dərədə, bu dağda.
Bürüyür çiçəklərin ətri bütün çəməni,
İstəyirlər, çox güman, bir az unudam səni.
Ulduzlar da parlayır bir cüt qara gözün tək,
Mənisə cəzb etməyir nə ay, nə meh, nə çiçək,
Nə bülbülün ötməsi; yolunu gözləyirəm,
Görəsən sevdiyim qız tezmi gələr, deyirəm?..

GÜNAHKARAM

Qəmlənmişəm gülüşün bəzən yüksəlməyəndə,
Səsin qulaqlarıma bir saat gəlməyəndə.
Görünməyəndə bir gün gözlərimə surətin,
Demişəm ki, nə oldu, hardadır mərhəmətin?
Söyləmişəm etibar, sədaqət, vəfa hanı?
Pozma, əhdi-peymanı.
Nə gizlədim, olmuşam gileyli, günahkaram,
Düzü bu rəftarımçın mən xeyli günahkaram.
Sən ki, öz aşiqini salmamısan zindana,
Nə üçün yana-yana
Söyləyim ki, nə olar?
Yar yolunda aşiqə zindan kaşanə olar.
Duymamışam ki, hicrin şirindir vüsalın tək,

Qana dönmüşdür ürək.
Doğrusu zillətindən, cövründən, möhnətindən,
Əzabından, cəfandan, qəmindən, həsrətindən
Şikayətlər etmişəm, ey afət, günahkaram,
Çəkirəm zaman-zaman xəcalət, günahkaram.
Sən məni doğrasan da ney kimi para-para
Deməliyəm parçala, istəsən kəs dübara.
Mən belə etməmişəm,
Həqiqi sevənlərin yolilə getməmişəm.
Bağışla aşiqini, ey canan, günahkaram,
Etməmişəm yolunda can qurban, günahkaram...

AZARLA SÖHBƏT

Professor İ.M.Orucova ithaf edirəm

Gündə bir xəstəlik kəsir yolumu,
Çalışır ki, sala gücdən qolumu.
Mən deyirəm ki, yox, azar, ay azar,
Hələ yaratmağa iqtidarım var.
Get bu sözlərimi ölümə bildir;
Dünyadan köçməyin vaxtı deyildir.

Gündə bir xəstəlik kəsir yanımı,
Mən deyirəm ki, yox, Mələk xanımı
Tək qoyub, dünyadan gedə bilmərəm,
Belə bir hərəkət edə bilmərəm.
Laləzar görməsəm Ceyrançölümü
Bu gözəl dünyadan köçən deyiləm.
Get, xəbərdar elə cəllad ölümü,
Hələ badəsini içən deyiləm.
Xəstəlikdir adım, zorluyam, demə!
Neyləyə bilərsən həyat eşqimə.
Hələ Ceyranbatan yaxşı dolmayıb,
Bakının ətrafı meşə olmayıb.
Köpürüb axsa da çağlayan sular,
Həqiqət olmayıb bir çox arzular.

Uzaq ölkələrdə gecələr boyu –
Görmüşəm acları küçələr boyu
Heykəllər yanında büzüşüb yatan,
Bir gün Afinada hey axşamatan
Özüm dinləmişəm yunan gəncini.
Böyük Afrikada qara zəncini
Ürəkdən eşidib, qulaq asmışam,
Qardaş tək bağrıma onu basmışam,
Onlar: "Yurdumuza bir də gəl, deyib,
Nə olar xahişə et əməl, deyib;
Onda başqa sayaq görərsən bizi,
Könlü şən, üzü ağ görərsən bizi".
Əgər o yerlərə bir də getməsəm,
Bu əhdi-peymana əməl etməsəm
Gözlərim qapanar qəlbimdə nisgil,
Yox, azar, köçməyin zamanı deyil.
Gedim bir neçə il qoy bağa hələ,
Çəkir ilham məni yaylağa hələ.
Yazmaq istəyirəm ellərimizdən,
Sonası çığrışan göllərimizdən.
Səmədsiz olsa da, çıxıb şikara
Arabir oylaqda azmasam olmaz.
Alqış, əhsən deyib mərd insanlara,
Böyük zəfərləri yazmasam olmaz.
Duyub aləmini şux gözəllərin
Hələ yazmalıyam saf məhəbbətdən,
Mənası göylərin qoynundan dərin
Bir dünya eşqilə yaşayıram mən.
Görməyirsən məgər gözəldir həyat?
Bəs niyə gəlirsən hər gün, hər saat?
Bəsləyir qoynunda arzular məni,
Səsləyir saz məni, kaman, tar məni.
Daha ağ günlərə mən çatmalıyam.
Hələ yaratmalı, yaratmalıyam.
Ay azar, yoxsa da səndə mürüvvət,
Köçməli deyiləm hələ, qayıt get.
Həyat sevdasilə çırpınır könlüm.
Nəkarasan, azar, nəçisən ölüm!..

MƏN SƏNİ AXTARIRAM

Mən səni axtarıram, gözlərim çəməndədir.
Mən səni axtarıram, çünki bahar səndədir.
Nərgiz yenə başını qaldırıbdır torpaqdan,
Mən səni düşünürəm baxıb ona bayaqdan.
Canlanır qabağımda yenə xumar gözlərin,
Dayanmışam yamacda, gün batır, hava sərin;
Salxım söyüd yellənir, kefidir ağacların.
Düşür yenə yadıma şəvə kimi saçların.
Sən ki, ağ yasəməndən daha təravətlisən.
Lalələr döşlər boyu sanki al piyalədir.
Sən onlardan alovlu, odlu, hərarətlisən,
Ürəyimin başında məhəbbətin lalədir.
Niyə gəzim baharı, sən mənim baharımsan.
Ətrinlə çəmənləri məst eləyən yarımsan.
Seyr edirəm səhərdən, gözlərim çəməndədir.
Mən səni axtarıram, çünki bahar səndədir...

HƏŞƏN BƏY ZƏRDABİYƏ

Çox ulduzlar doğur göydə,
Parıldayır zaman-zaman.
Sənsə yerdə şəfəq saçdın
Azərbaycan torpağından.
Səslənəndə yoxsulların
Ağır şallaq kürəyində,
El möhnəti dağa döndü
Sənin təmiz ürəyində.
Yola düşdün ilk baharda,
Rus xalqının torpağına,
Mədəniyyət ocağına
Getdin şəfəq gətirməyə,
Öz elinin salamını
Böyük xalqa yetirməyə.
Çıraq tutdu, qədim şəhər

Muradına, istəyinə.
Bir rus qızı heyran oldu
Arzuların məbədgahı ürəyinə.
Saçlarına dən düşmüşdü
Möhnətlərə sən dözəli.
Şəfqət gördün o dilbərdən,
Sevdi səni rus gözəli.
Alqış dedin hərarətlə bu müqəddəs məhəbbətə,
Alqış dedin qırılmayan bu hörmətə, sədaqətə.
Gözlərinin qabağından heç getmədi lakin sənin
Azərbaycan torpağında gəlişini gözətləyən
Kəlağaylı bir nazənin.
Həsrətilə yaşadığın elə bir gün döndün geri,
Sevdin Odlar dünyasında ağır ömür sürənləri.
İşıq saçdın boğmaq üçün qalın, qatı qaranlığı,
İşıq saçdın məhv etməyə cəhaləti, nadanlığı.
Məzlumlara dayaq oldun,
El yolunda oyaq oldun.
Gəzdin daim ədaləti,
Divanlarda axtardın haqq;
Nələr sezdin dolandıqca
Oba-oba, oymaq oymaq.
Qüvvət səni hədələdi:
"Yaxşı olar, – dedi, – Həsən,
Bu cındırlı kəndliləri
Oyatmaqdan əl çəkəsən".
Yox, müyəssər olmadı heç nə bəylərə, nə xanlara,
Bir ölkənin taleyinə həqir gözlə baxanlara
İradəni parçalamaq.
Sən hər zaman söylədin ki, qoy var olsun ana torpaq,
Budur! Doğma vətənində uzaq bir kənd, soyuq gecə.
Zülmət aclıq dəryazilə yeriyəndə dörd bir yana
Gah aşkara, gah gizlicə
Kəndlilərin əhvalını şərh elədin sən divana.
Yazdın: "Yetər, göyərməsin
Kəc niyyətlər, bəd əməllər!"
Elə bu dəm xain əllər

Sənə qıymaq istədilər
Oğrun-oğrun pəncərədən:
Aşdı düzdən, gen dərədən;
Güllə səsi xəbər verdi xəyanəti,
Hampaların törətdiyi bu vicdansız cinayəti;
Nə yaxşı ki, o güllələr dəydi soyuq divarlara,
Yoxsa elin ürəyində açılardı dərin yara.
Onlar kimə qıyırdılar,
Bunu yaxşı duyurdular.
Sən arxaydın göz yaşilə
Torpağını əkənlərə,
Qaşqa kəlin əvəzinə
Özü kotan çəkənlərə.
Yoxsul əsir, varlı harın,
Torpaq bəyin, mülkədarın.
El dərdinə gəzdin çara,
Zaman səni çəkdi dara.
Xainlərdən, alçaqlardan,
Satqınlardan, yaltaqlardan
Uğurunda bu vətənin
Başın bəla çəkdi sənin.
"Əkinçi"ni çap elədin, əkinçiyə "oyan!" dedin.
Zalım gördün: "Sənin payın veriləcək, dayan!" dedin.
El yolunda çalışanda hey bu sayaq,
Xəfiyyələr pusdu səni, taleyə bax!
Evindəki xidmətçinin qorxudaraq alıb elə
Göz qoydular üzərində.
Çarpışdıqca o mühitlə aydan-aya, ildən-ilə,
Əzəmətlə göyə qalxdın xalqımızın nəzərində.
Sən bu Odlar diyarının sədaqətli balasısan,
Azərbaycan torpağının sən də namus qalasısan.
Unutmarıq ömür boyu göstərdiyin o xidməti,
Sənə şanlı bir heykəldir xalqın böyük məhəbbəti.

ÖLÜM

O gün yaxın dostumu əbədi yola saldım,
Qayıdıb evə gəldim həyəcanlı, tələşlı.
Bircə günün içində sanki on il qocaldım,
Torpağa tapşıranda onu gözlərim yaşlı.

Sandım ümman od saçar, dağlar qopar yerind
Dünya, güman elədim, ayrılar mehvərindən.
Lakin heç sarsılmadı haman matəmdən şəhər
Qaynadı əvvəlki tək yenə geniş küçələr.

Yenə dünya öyündü tükənməyən varilə,
Qönçələndi budaqlar, yenə güllər açıldı.
Dövr elədi kainat əvvəlki qərarilə,
Yenə də axşam oldu, yenə səhər açıldı.

Dünyamızın dünən də getdi bir sənətkarı,
Qıydı amansız ölüm bir ölməzə o səhər.
Daşıyıb ürəyində bu dərdi, bu qubarı,
Yandı böyük sənətin mehrabına gələnlər.

Mən güman elədim ki, uçub çöküler cahan,
Parçalanıb tökülər yer üzünə asiman.
Fəqət aləm yerində əvvəlki tək dayandı,
Gün batdı, ay göründü, ulduzlar yenə yandı.

Gedir gündə çoxları dünyamızdan bu sayaq,
Alır öz qucağına insanı qara torpaq.
Ölüm aman bilməyir, ölüm tufan qoparır,
Qıyaraq insanlara vaxtlı, vaxtsız aparır.

Bir üzü ağ dünyanın bir üzü qapqaradır.
Torpaqdan ayrılanlar yenə torpaq olacaq.
Yaxşı deyib atalar; dünya karvansaradır,
Bir hücrəsi boşalıb, bir hücrəsi dolacaq.

BÜLBÜL VƏFALIDIRMI

Deyirlər ki, bizim bu sarı bülbül,
Güllü bağçalara vermişdir könül.
Xeyli vəfalıdır doğma torpağa,
Uçaraq getməyir əsla uzağa.
Yaxşı tanış olaq gəlin həyatla,
Qartalın payıdır vüsətli uçuş.
Sürəti olmayan zəif qanadla
Haraya uçacaq balaca bir quş?
Coşqun ümmanları keçə bilərmi?
Qarlı dağlar aşıb köçə bilərmi?
Hər şey öz yerində tapar qiyməti,
Bildirək aləmə bu həqiqəti:
Dəyanət, etibar, vəfa, məhəbbət
Olmuş bu dünyada insana qismət.
Bülbülə gəlincə xoş səsi vardır,
Gözəl xallar vuran şən nəğməkardır.
Oxusun fərəhlə gül bağımızda
Onun da yeri var torpağımızda...

NAKAM SEVGİ

Üz-üzə gəldi bir gün əsil köhnə tanışlar,
Salamlaşıb tutdular əl, təntənə yerində.
Görüşdü əvvəlki tək o mehriban baxışlar;
Yandı köhnə sevginin şöləsi gözlərində.
Kişi dedi: yadında varmı o keçən illər?
Qadın cavab verdi ki, ötüb xeyli fəsillər, –
Zənnimcə qırx il olar.
– Düzdür, elədir, bəli;
Yadına saldı qoca: əlində qızın əli
Gedirlər gəzə-gəzə.
İtalyadan qayıdıb gəlmişdir Bülbül təzə,
Böyük konsert verirdi
Sənətin əcazını aləmə göstərirdi.

Qadın dedi Cəfərin "Od gəlini" – o gövhər
İlk dəfə oynanırdı səhv etmirəmsə əgər.
Elxan Abbas Mirzəydi, səhnəmizin vüqarı,
– Aqşin Ülvi Rəcəbdi.
Nə qəşəngdi, əcəbdi
O vaxtkı səhnəmizin o zamankı baharı...

Yada saldılar, hər şey canlandı göz önündə,
Qızın nahaq, səbəbsiz küsüb getdiyi gün də...
Qoca birdən soruşdu xeyli acı olsa da
Anırsanmı o günü söylə düşürmü yada
Nahaq yerə...
Başını qadın saldı aşağı.
Gəlib durdu önündə ərköyün qız uşağı,
Sevgiyə qılınc çalan öz cavanlıq surəti.
Eşqə düşmən ayrılıq... Dönüklüyün möhnəti
Dərdə saldı oğlanı, sayıqladı gecələr,
Hicran dağa toxunsa, dağ əriyər, incələr.
"Nə üçün o kəlməni işlətdin ehtiyatsız"
Deyə eşqin bağında səmumə çevrildi qız,
Çıxıb getdi... Sonra da verdilər özgə ərə,
Baldan şirin həyatı çevrildi sitəmlərə...
İndi görüşürdülər onlar birinci dəfə,
Demədilər ki, çıxaq axşam sahil tərəfə.
Yadlarına düşmədi konsert, dram əsəri,
Qaş qaralıb, qüruba gedir ömrün səhəri.
Xatirində qalırmı, yadında varmı deyə,
Yas tutdular ürəkdən nakam ölən sevgiyə...

SƏN MƏNİM CAHANIMSAN

Ürəyimin odunu verib ilk məhəbbətə,
İnan ki, mən sənincin dözərəm hər möhnətə.
Ömr eləyib dünyada yaşayıram sənincin,
Sənin iqbalın üçün, bu doğma vətənincin.
Sevmişəm sənin gözəl, fərəhli zamanını,

Ruhlanmışam nəğməni oxuyanda, göy Xəzər.
Sevmişəm zövq aldığın geniş asimanını.
Göy dərindir, çünki sən dərinliyi sevirsən.
Məni vəcdə gətirmiş sənin dostun şəfəqlər.
Mənliyimi oxşamış söyüdlü bulaq başı,
Çünki sən sulardakı sərinliyi sevirsən.
Sən gəzdiyin yerlərin çınqılı, çaqıl daşı
Sanıram ki, misilsiz bir incidir, gövhərdir...
Sənin sevdiyin axşam məndən ötrü səhərdir.
Nə günlərə qalardım bəlkə sən olmasaydın.
Təsəvvür eləyirəm mən bunu aşkar, aydın,
Sən bu cahan içində mənim öz cahanımsan,
Arzum, şirin istəyim, ümidim, gümanımsan...

MƏNİ

Yar cövri-cəfanı artırır nədən
Gördükcə bu qədər mehriban məni?
Axıdır qanımı, qorxu bilməyir,
Deməyir ki, tutar nahaq qan məni.

Mən onu eşqimin sultanı sandım,
Pərvanə tək hüsnün oduna yandım,
Gecəli, gündüzlü mən onu andım,
O, qoydu hər zaman nigaran məni.

Bir deyən olmadı zülmünü az et!
Köçərəm dünyadan qalarsan həsrət.
Mən ondan gözlədim mehri-məhəbbət,
Etdi qəm mülkünə o, sultan məni.

Gətirir başıma yar qiyaməti,
Rahimin hər dərdə var dəyaməti.
Barı başa salın siz o afəti:
Yetirməz bir daha bu dövran məni.

OLMASA

Düşməzdi pərvanə bu qədər dilə
Əgər aramızda nisbət olmasa.
Möhnət əridərdi məni şam kimi
Şirin xəyalınla söhbət olmasa.

Sən bir nazəndəsən ipəkdən təmiz,
Mənalı sözlərin sakit bir dəniz,
Mən səni tutmazdım canımdan əziz
Sadəlik hüsnünə zinət olmasa.

Çoxdan eşqindəyəm, ey pəricəmal!
Mən səni hər zaman etmişəm xəyal;
Şirin olardımı bu qədər vüsal
Ayrılıq olmasa, həsrət olmasa?

Ey söhbəti şirin, sözü məzəli!
Rahimin gül açıb eşqi, əməli,
Gəl, dönüm başına, ellər gözəli;
Eşqin nə mənası, hörmət olmasa...

FÜZULİ

Sevgi baxçasında yar gəzən yerin
Qızıl qönçəsinə xar dedi, getdi.
Şirin ömür sürüb sevişənlərin
Qayğısı, hicranı var dedi, getdi.

Əlində ağlayan bir dərdli sazdı,
O göylər şairi yerə sığmazdı.
Nadir inci kimi şeirlər yazdı,
Saraylar gözümdə tar dedi, getdi.

Füzuli aşiqdi bir şux gözələ;
Dərdini söylərdi şerə, qəzələ.
Ömrünün baxçası döndü xəzələ
Biinsaf, bivəfa yar dedi, getdi.

Füzuli kamına qəlbən irmədi,
Sevdiyi telləri öpüb, hörmədi.
Yazıq ki, dövrandan bir gün görmədi,
"Bu aləm ruhuma dar" dedi, getdi.

KÖÇDÜ QƏZƏLXAN

Köçdü bu dünyadan sevimli Vahid,
O, qəzəl mülkünün son hakimiydi.
Sevdalı ürəklər sözümə şahid,
Gözəl misraları sədəf kimiydi.

Gəzdi dodaqlarda şərəflə adı,
Ellər əzizlədi qəzəllərini.
Böyük Füzulinin nadir övladı
Vəsf etdi yurdumun gözəllərini.

İçdi vüqar ilə bir xeyli müddət
İlhamın ətirli bal şərbətini,
Elədi sənətə namusla xidmət,
Yazdı aşiqlərin məhəbbətini.

Şöhrəti Xəzərin sahillərindən
Gəzdi ölkələri, ellərə çatdı.
Bunu aləm bilir, deməsəm də mən,
Nadir inci kimi qəzəl yaratdı.

Vurdu istedadı ölümə zərbə,
Soruşan olsa ki ondan, nə qaldı? –
Deyərəm deyməyib könlümə zərbə,
Ondan söz mülkündə dəfinə qaldı.

Sevdalı ürəklər sözümə şahid,
Safdı misraları, sədəf kimiydi.
Köçdü bu dünyadan Əliağa Vahid,
O qəzəl mülkünün son hakimiydi.

SƏNAN DAĞINA

Yolum düşdü səhər-səhər
Uca Şeyx Sənan dağına.
Bir səs gəldi qulağıma:
Tab gətir hicran dağına.

Aşiqlərə eylə xəbər:
Möhnət yeli əssə əgər,
Zərrə qədər etməz əsər
Əhd ilə peyman dağına.

Qalma Rahim öz halına,
Dildar gəlsin xəyalına.
Yetəcəksən vüsalına
Dözsən o canan dağına...

GÖRDÜM

Bu gün şərq elinin üfüqlərində
Bir şəfəq çöhrəli ulduzu gördüm.
Azadlıq bağında min bir fərəhlə
Əlində al bayraq el qızı gördüm.

Keçmişdə ağlardı yurdumda hər kəs,
İnsan bir quş idi, həyat bir qəfəs.
İndi ötüb, gedib həzin, yanıq səs,
Zülmətli yollarda nur izi gördüm.

Zalımlar qan ağlar – vəhşət görünməz,
İnsan azad yaşar, zillət görünməz,
Şərq elində bu gün zülmət görünməz,
Ölkəmi bəzənmiş qırmızı gördüm.

AY QIZ

Sən bir açılmalı təzə qönçəsən
Mən sənin yarpağın olaydım, ay qız!
Nazlısan, sazlısan, tüldən incəsən,
Mən sənin növrağın olaydım, ay qız!

Dilin qənd, dodağın məzədir, məzə.
Görüm gül camalın gəlməsin gözə.
Sən bir yeyilməli balsan – tər-təzə,
Mən sənin qaymağın olaydım, ay qız!

Tərlanı olmuşam uca dağların,
Rəngi soluxmasın al yanaqların.
İnciməsin deyə gül ayaqların –
Çəkili başmağın olaydım, ay qız!

Rahim əl çəkərmi öz diləyindən,
Ölüb qurtarmadıq yad güleyindən.
Sənin asılmağa ağ biləyindən
Qızılı qolbağın olaydım, ay qız!

SARIBAŞ QIZI

Ağac kölgəsində bir axşam üstü
Sədəfli saz çaldı Sarıbaş qızı.
Gözəl xallarının heyranı oldu,
Dağlar fikrə daldı, Sarıbaş qızı.

Mən belə bir gözəl görməmişdim heç
Qara saçlarını hörməmişdim heç,
Ona öz könlümü verməmişdim heç,
Canımda od saldı Sarıbaş qızı.

Gəzib dolandıqca burda hər yeri
Nə qədər xoş keçdi ömrün günləri.
Əfsus, mən Bakıya qayıtdım geri
Sarıbaşda qaldı Sarıbaş qızı...

ŞİRİNDİLLƏR İÇİNDƏ

Kür sahili... Bağça-bağ;
Çiçəklər qucaq-qucaq.
Gəzir şux nazəninim
Əlvan güllər içində.

Ara, dolan dünyanı,
Ona bərabər hanı?
Oxşarını görməsən
Şux gözəllər içində...

Gəzdikcə göy çəməni
Heyran eləyir məni.
Camalı nurlu aydır
Sırma tellər içində...

Almayanaq, güldodaq,
Onu sevmişəm ancaq,
Neçə-neçə sevimli
Şirindillər içində...

SƏNİN

Sevgilim, deyirlər, xeyli zamandır
Aya şölə verir camalın sənin.
Aşiqin cəzb edir hər axşam, səhər
Özün olmayanda xəyalın sənin.

Sözüm ağızlarda hekayət olur,
Aşiqdən məşuqə inayət olur.
İnciyərəm, desəm şikayət olur –
Dəyəndə sinəmə zavalın sənin.

Ey bahar könlümün körpə turacı,
Eşqimin vüqarı, başımın tacı.

Hicranın o qədər olmazdı acı
Şirin olmasaydı vüsalın sənin.

Mən səni sevmişəm, sevimli canan,
Bir canım var olsun yolunda qurban.
Rahim olardımı hüsnünə heyran
Əgər olmasaydı kamalın sənin?!

SƏNİ

Nə qızılgül deyim adına əsla,
Nə də oxşatmayım reyhanə səni.
Nə mən atəşinə yanıb kül ollam,
Nə görmək istərəm pərvanə səni.

Şöhrətin dolanır ağızda, dildə,
Əməlin gül açır sadə könüldə.
Səadət beşiyi bizim bu eldə
Azad yetişdirib zəmanə səni.

Bahar səninkidir, çiçək sənindir,
Xoş arzu, şən duyğu, dilək sənindir.
Rahimin dövləti – ürək sənindir,
İzin ver çağırım cananə – səni.

PƏRVANƏLƏR

Axşam yanıb alovlara,
Düşər dara, pərvanələr.
Öz dərdinə nə zamandır
Tapmaz çarə pərvanələr.

Aşiq olub, gəlməz dilə,
Eşq odunda dönər külə.
Qurban gedər şəmə belə
Baxtı qara pərvanələr.

Nə hünərdir, nə də cürət
Alovlanmaq bir yol fəqət.
Yüz dəfə yandım gülsifət
Bir nigara, pərvanələr!

Səməndərəm şölə çıraq.
Dildarımdan aldım soraq.
Rahim qurban bir al yanaq
Nazlı yara, pərvanələr.

YANAĞINDAN

Deyirlər alışıb yanır baxçada,
Qızılgül rəng alır al yanağından.
Hüsnünə heyrandır aşiqin kimi,
Əl çəkə bilməyir xal yanağından.

Səndən ayrı düşmək xeyli çətindir,
Zalım, insafa gəl, bir məni dindir.
Söylə, yanağımı baldan şirindir,
Yoxsa ki, şirindir bal yanağından.

Sən güləndə açır bağçalarda gül,
Gəlişindən alır ilhamı bülbül.
Mənə əmr eləyir deyəsən könül
Dur bunun bir öpüş al yanağından.

Qınama Rahimi, sevimli pəri!
O, hüsnə aşiqdir əzəldən bəri.
Yazdı dodaqları, qara gözləri,
İndi də vurdu bir xal yanağından...

QARA GÖZLƏR

Musiqisi C.Cahangirovundur

Məndən ayrı gəzən yardan,
Ürəyimi üzən yardan,
Kəklik kimi süzən yardan
Könül gəlmiş zara gözlər,
Qara gözlər, qara gözlər.

Adım dildən-dilə düşdü,
Sona vurdum, gölə düşdü,
Məcnun kimi çölə düşdü
Könül oldu yara, gözlər;
Qara gözlər, qara gözlər.

Yarın nazlı baxışları,
Şimşək kimi çaxışları,
Sular kimi axışları
Çəkdi məni dara, gözlər.
Qara gözlər, qara gözlər.

İnsaf elə, mürvət elə,
Dərmanımı şərbət elə.
Bu dərd ilə, möhnət ilə
Könül oldu para, gözlər,
Qara gözlər, qara gözlər.

Dağlarda yer əsər, gedər,
Söz qılıncdır kəsər, gedər,
Hay deməmiş küsər, gedər,
Neyləmişəm yara, gözlər?
Qara gözlər, qara gözlər.

DEYƏ BİLMİRƏM

Musiqisi həvəskar bəstəkar F.Quliyevindir

Deyirəm ki, səni gördüyüm zaman
Üstünə gül-çiçək səpəcəyəm mən.
Deyirəm ki, səni görəndə, canan,
Söz açaram təmiz məhəbbətimdən.

Sən bahar çağında yaşıl çəməndə
Ətir saçan zaman qızıl gül kimi,
Coşmaq istəyirəm fərəhlə mən də
Baharın aşiqi şən bülbül kimi.

Elə ki, qarşımda görürəm səni,
Tutuluram yaman, niyə, bilmirəm?!
Nədənsə bu sadə bircə kəlməni –
"Sevirəm" sözünü deyə bilmirəm.

DAN ULDUZU

F.Əmirov bəstələmişdir

Gəzsəm çəməni,
Dolansam bağı,
Gülün yanağı
Andırar səni.
Bir axar bulaq
Görsəm dalaraq,
Yadıma, dilbər,
Gülüşün gələr.
Çıxıb seyrana,
Bir şux ceyrana
Rast gəlsəm əgər,
Ey nazlı dilbər!
Səni anıram,

Dalğalanıram.
Sənsən şux yarım,
Səbrim, qərarım.
Sən mənim ancaq –
Bir alma yanaq,
Körpə quzumsan,
Dan ulduzumsan.

GƏLMƏDİ

Xalq havası

Bağda sarmaşıq olar,
Yar-yara aşıq olar.
Bəs bizim nazlı yar
Harda qaldı, gəlmədi?
Qaş qaraldı, gəlmədi.

El yeridi dağlara,
Yayıldı yaylaqlara,
Təkcə mənim şahbazım
Dərdə saldı, gəlmədi,
Şux maraldı, gəlmədi.

Çıxdım bulaq başına,
Dedim yar-yoldaşına
Ceyranım, tərlanım
Harda qaldı, gəlmədi?
Səbrim aldı, gəlmədi.

AY GÜLÜM

Musiqisi F.Əmirovundur

Əl vurduqca simli tara, aman, ay gülüm,
Səs salırsan göy dağlara, aman, ay gülüm.
Nə şirindir xoş avazın, ay ceyran gözəl,
Can qurbandır yara, aman, ay gülüm!
Qara gözlü gözəl yar, sənsiz könlüm yaralı,
İnsaf elə, amandır, Azərbaycan maralı.

Əl vurduqca simli tara, aman, ay gülüm!
Səs salırsan göy dağlara, aman, ay gülüm.
Gəl, sənsizəm, ömrün vüqarı
Gəl sevdalı gəncliyimin gülgün baharı!
Oldum aşiq, xeyli gözəlsən,
Nə sevdalı bir əməlsən, ay gülüm.

Nə şümşaddır barmaqların, alagöz pəri!
Qərənfildir dodaqların, alagöz pəri.
Ceyran gəzən bir ovçuydum, ovladın məni,
Şən maralı bu dağların, alagöz pəri.
Qara gözlü gözəl yar, sənsiz könlüm yaralı,
İnsaf elə amandır, Azərbaycan maralı!
Gəl sənsizəm, ömrün vüqarı,
Gəl sevdalı gəncliyimin gülgün baharı.
Oldum aşiq, xeyli gözəlsən,
Nə sevdalı bir əməlsən, ay gülüm...

BAHAR GƏLSİN

Gözəl bahar, gözəl bahar,
Gözləyirik tez gəl bahar.
Quşlar köçsün ölkəmizə,
Nəğmə desin yenə bizə.
Gəl, oyansın sıx meşələr,

Yasəmənlər, bənövşələr
Gəlişinlə ətir saçsın,
İydə, innab çiçək açsın.
Hər mövsümün öz yeri var,
Gəl sevimli, gözəl bahar,
Bu düzlərdə, bu dağlarda,
Yaşıl donlu yaylaqlarda
Yenə quşlar nəğmə desin,
Həyat versin xoş nəfəsin
Bərəkətli torpaqlara.
Mehribansan uşaqlara.
Gəl Xəzərin sahilinə,
Gözəl, sərin sahilinə.
Yayılanda günəş düzə
Gəl-gəl desin dəstəmizə
Ağacların xoş kölgəsi,
Baxçaların nəğmə səsi
Yayılanda dağa, daşa –
Gəl sənlə gəzək qoşa.
Gözəl bahar, gözəl bahar,
Gözləyirik tez gəl bahar!

LALƏ

Köynəyi al ipək lalə,
Zərif, qəşəng, göyçək lalə.
Yanağında xalın qara,
Gen düzlərə, şiş dağlara,
Yamaclara yaraşıqsan;
İlk bahara çox aşıqsan.
Əlvan geysin çöllər, açıl!
Çox sevirəm üzünü mən;
Sevimlisən, çünki qızıl
Bayrağımın rəngindəsən.

REYHAN

Yamyaşıldır köynəyim,
Balacadır çiçəyim.
Ləklərimə keçirlər,
Məni tez-tez biçirlər.
Yenə də boy atıram,
Məqsədimə çatıram.
Aşiqdir insan mənə,
Ətirli reyhan mənə
Ad qoyublar qədimdən.
Çoxlu sevilirəm mən.
Əldən-ələ gəzərəm,
Süfrələri bəzərəm.

QUZU

Oğlum İldırım üçün

Su üstündə duran quzu,
A boynunu buran quzu.
Gəl, mənimlə gəzə-gəzə
Çıxaq bizim yaşıl düzə.
Gəl dolanaq göy çəməni,
Çox sevirəm quzum səni.
Qoruyaram özüm kimi,
Bir cüt əziz gözüm kimi.
Gəl tükləri məxmər quzum,
A mənim südəmər quzum!
Düşmənimiz canavardan
Qorxma quzum, heç bir zaman.
Bir ovçudur mənim atam;
Ova çıxar səhər-axşam,
Tələ qurar, tülkü tutar,
Görünərsə boz canavar
Nişan alar atar onu,

Məntəqəyə satar onu.
Atam yaxşı nişan vurur,
Çaqqal vurur, dovşan vurur.
Gəl mənimlə gəzək qoşa,
Hər yan otdur başdan-başa.
Gəl dolanaq göy çəməni,
Otararam özüm səni.
Gəl tükləri məxmər quzum,
A mənim südəmər quzum!

QIŞ

Qar bürüyüb dağları,
Bağçaları, bağları.
Donub çaylar, bulaqlar,
Buz bağlayıb budaqlar.
Qış belə dövran sürür,
Əllərilə öldürür
Zərərli böcəkləri.
Qışa pis deyənmi var?
Taxılı örtməsə qar
Bir qalın yorğan kimi,
Sünbüllər ümman kimi,
Göylərə dalğalanmaz.
Qış bizə nemət verir,
Dad verir, ləzzət verir.
Qar düşməsə çöllərə,
Qovuşmarıq güllərə.
Sevimli bahar olmaz,
Baxçalarda bar olmaz.
Qış bizə nemət verir,
Dad verir, ləzzət verir.

BALACA BAĞBANLAR

Ağaclar dirçələndə,
Quşlar qonaq gələndə,
Bəzənəndə dağ, dərə,
Baxıb gözəl düzlərə
Bizim sadə uşaqlar,
Sevimlilər, qoçaqlar –
Durmanıb dağ döşünə,
Sevinərək çıxdılar
Baharın görüşünə.
Zəfər dedi: – Uşaqlar,
Çiçəklənir göy bağlar
Gəlin haqq-hesab verək
Kim neyləmişdir görək.
Həvəslə dedi Bəhram:
– Mən ancaq kağız badam,
Bir də hulu əkmişəm.
Dedi Qulu: əkmişəm
Heyva ağacı mən də.
Sizi qonaq edərəm
Ağacım bar verəndə.
Üzü gülər, könlü şad
Fərəhlə dedi Polad:
– Ərik yaxşı bəhərdir,
Tumu şirin, şəkərdir.
Püstənin tayı olmaz,
Barının sayı olmaz.
Yeməyə bəhərindən
Onları əkmişəm mən.
Tutu, o əlaçı qız
Dedi ki, mən də yalnız
Alma, armud əkmişəm,
Bir də ağ tut əkmişəm.
Hamı söylədi bir-bir
Nə ağacı əkibdir.
Şirindilli Firəngiz

Sual etdi: Zərəngiz,
Bir mənə de, a bacı,
Ancaq meyvə ağacı
Əkir nədən uşaqlar?
Güllərin də ətri var.
Bəs qızıl gül, qərənfil,
Süsənbər lazım deyil?
Hey ağacdan deyirlər,
Nədən gül əkməyirlər?
Kənardan sakit baxan
Bir kamil qoca bağban
Dedi, əziz balalar,
Hər bitkinin yeri var.
Şam ağacı qış və yaz
Yaşıl paltarsız olmaz.
Gözəldir alma, nar da,
Qızıl gül də, çinar da.
Çalışın zəhmət çəkin,
Ağac da, gül də əkin!
Uşaqları bağbanın
Razı saldı sözləri;
Şəfəq saçdı gözləri.
Çox şad gözdən itdilər,
Gülə-gülə baharın
Qarşısına getdilər.

1947

KİTABDAKILAR

Ön söz 4

ŞEİRLƏR

Bakı 13
Görmüşəm 14
Qanadlı insan 15
Qızım 17
Gürcü qızı 18
İsa bulağı 21
Kolxozçu aşıq 24
Bahar nəğməsi 26
Düşüncə 27
Şairin ölümü 28
Sahibin harı 30
Yoldaş sənətkar 32
Puşkin 33
Ay qız 35
Əntərə 35
Ay gözəl 38
Sənətkarındır 39
Kəpənək 39
Ömür iki olaydı 40
Ürəyimi məşəl kimi qaldıraram göylərə 42
Biz yenə də qayıdarıq 42
Vur! Ölən faşistdir 44
Nataşanın ölümü 45
Toyumuzu elərik 46
Sənsiz 48
Neftin dastanı 49
Sevgilinin arzusu 51
Mənə deyirlər ki 52
İkiqat cinayət 53

Müqəddəs kədər 54
Onu Don qucaqladı 55
Aslanım partizandır 58
Ümidlə yaşa 60
Sənin uğrunda 61
O yenə seyr edəcək 63
Səhərin nəğməsi 64
Nənəmin ulduzları 65
Arzu 66
Sevgilim 66
Ağacların şikayəti 67
Qara daşın həsrəti 69
O mənim yanımdadır 70
Bülbül və şair 71
Mən nə gətirmişəm 72
Azadlıq eşqilə alışıb yanar 73
Qarğa və göyərçin 74
Sazımın yerindən as yarağımı 75
Qələbə günü 75
İlk şikar 76
Səyyada döndün 77
Xaqani 78
Hər şey baqidir 79
Pərvanə və şam 80
Mənimdir 81
Arazın şikayəti 83
Ətir 85
Sənətkar ölməz 86
Təpə 87
Yolda 89
Gül dəstəsi 90
Teranə 91
Bakı 93
Kür və monitorçu 96
İran başdan-başa zindandır bu gün 97
Dəyirman 100
Samux meşəsində 100
Kür salındı kəmərdə 102
Xalçaçı qız 103
Bənnanın arzusu 108
Nəğmələr 109

Mingəçevir kəndinin kənarında 110
Balıqçı 111
Xarrat 113
Barışmayırsan 114
Cavab 115
Pol Robsona məktub 116
Nazim Hikmət azaddırmı 118
Ayrılsatan 119
Yeddi zənci 122
Tonqal başında 126
Mən niyə baxdım 127
Səni düşünürəm 128
Qara rəng və qara gözlər 128
Gəl, gözümün işığı 129
Deyə bilmirəm 130
Bağda alma dərən qız 130
Bir həqiqət olaydı 131
Sevişməyən də varmı 132
Ay qarabuğdayı qız 134
Vətən torpaqlarında 135
Buludlar 136
Heç də həsəd aparmıram 137
Livan bağında 139
Bağdad gecələri 140
Ərəb qızı 142
Gəl ötmə etinasız 143
Fatimənin taleyi 145
Füzuli 147
Pəncərənin qabağında 148
Durnalar 149
Viran qaldı otağı 150
Sanki heç nə olmayıb 152
Restoranda 154
Uçurun, daxmaları 156
Ey həkim 158
Zəfər təranəsi 159
Mənim təntənəm 160
Sağ ol, neftçi qardaşım 162
Məhəbbətin varsa 163
Xəyallar aləmində 164
Addımla cəbhəyə 165

Dolu düşməsin bağa 166
Dəniz neftçiləri 167
Qardaşlıq ağacı 168
Top atılır 169
Quba bağlarında 170
İçin ana yurdumun ətirli şərbətindən 171
Qız qalası 172
Yurdumun 172
İlisu 173
Bakı 174
Bizim yurdun 175
Bakı cavanlaşır 175
Elər 176
Sənət xəzinədarı 177
İnsan qəlbi 178
Göy söyüd göyərir ki 179
Təyyarədə 180
Mayak olaydım 180
Yaşamaq eşqi 181
Oğlan günəşə döndü 182
Dostun istəyi 183
Sən, bu nisyandan çəkin 183
Turac, kolluq, bağ 185
Qocalıq qansız olur 187
İnsan və ölüm 188
Köçəri quşlar 188
Aparır 189
Gəmilər 190
Özüm soruşacağam 191
Xiyabanlar içində 192
Üzüm yığan qız 192
Gəlsin 193
Məhəbbətin gətirdi 194
Olacaq 195
Dönür 195
Gözəlliyə dair 196
Görüş 196
Yoxdur bu dünyada məndən bəxtəvər 199
Məcnunun gözləri 200
Azərbaycan qadını 201
Gözəl var ki 202